**Azərbaycan Milli Elimlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutu**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Milli Azərbaycan Tarixi Muzeyi**



**AMEA-nın müxbir üzvü, tarix elimleri doktori,**

**“Şöhrət” ordenli epiqrafçı alim**

# MƏŞƏDİXANIM NEMƏT-100

**(1924-2016)**

**illik yubleyinə həsr olunmuş elmi-praktik**

**konfransın materialları**

**Bakı -2024**

**MƏŞƏDİXANIM NEMƏT-100**

**illik yubleyinə həsr olunmuş elmi-praktik konfransın materialları**

**Hazırlayanı : T.ü.f.d., dosent Həbibə ƏLİYEVA**

**Elmi redaktor: Akademik Nailə VƏLİXANLI**

**Rəyçi:**

***Azərbaycan Milli Elimlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutu***

***Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Milli Azərbaycan Tarixi Muzeyi***

***Kitabın içində AMEA-nın müxbir üzvü, tarix elimleri doktori, "Şöhrət" ordenli epiqrafçı alim Məşədixanım Nemətin (1924-2016)100 illik yubuleyinə həsr olunmuş məruzələr, xatirələr, məqalələr onun həyat və yaradıcılığını əks etdirir.***

**ORCID No 0000-0002-6726-1278**

**MÜNDƏRİCAT**

*Nailə Vəlixanlı ......................................................... 4*

*İsa Həbibbəyli............................................................ 5*

*Fərhad Quliyev........................................................... 6*

*Həbibə Əliyeva ............................................................7*

*Hacı Fəxrəddin Səfərli .................................................15*

*Şahin Fərzəliyev ......................................................... 22*

*Qafar Cəbiyev .............................................................24*

*Cəfər Qiyasi ................................................................27*

*Hidayət Cəfərov........................................................... 43*

*Cengiz Alyılmaz...........................................................46*

*Qasım Hacıyev.............................................................52*

*Tarix Dostiyev............................................................. 56*

*Rizvan Qarabağlı..........................................................65*

*Vəfa Quliyeva...............................................................69*

*Könül İmamverdiyeva...................................................75*

*Nərgiz Əliyeva..............................................................77*

*Firdovsiyyə Əhmədova..................................................85*

*Maral Poladova.............................................................88*

*Ülkər Hüseynova, Maral Poladova, Mehparə Axundova........100*

*Ганира Пиргулиева,,,,,,,...............................................104*

*Bədircahan Məmmədova, Aygün Məmmədova.......................108*

*Asif Hüseynov...............................................................113*

*Aliyə Cavanşir ..............................................................116*

*Yeganə Məmmədova.......................................................120*

*Əlavələr: Fotolar ...........................................................125*

**Elmi-praktik konfransın açılış**

## MƏRUZƏLƏRİ

28 fevral 2024-cü il tarixində Milli Azərbaycan Tarixi Muzeyində Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru, "Şöhrət" ordenli ilk epiqrafçı alim qadın Məşədixanım Nemətin 100 illiyinə həsr olunmuş **"Məşədixanım Nemət-100"** adlı elmi-praktik konfransı giriş sözü ilə açan Milli Azarbaycan Tarixi Muzeyin direktoru, ***akademik Nailə Vəlixanlı***, qonaqları salamlamlayaq, tədbirin əhəmiyyətini qeyd edərək, epiqrafçı alim Məşədixanım Nemətin əvəzolunmaz yaradıcılıq fəaliyyəti haqqında ətraflı məlumat verdi.



***Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı***

Akademik Nailə Vəlixanlı məruzəsində Məşədixanım Nemətin Azərbaycan ərazisində tədqiq etdiyi kitabələr haqqında nəşr olunan əsərlərin böyük tarixi əhəmiyyətə malik olduğunu vurğuladı. Həmçinin, bildirdi ki, ***"Məşədixanım Nemət tarix elminin ən çətin sahələrindən biri ilə məşğul idi və bütün ömrünü bu işə həsr etmişdi. Məhz Məşədixanımın əməyi sayəsində daşlar üzərində yazılar bizə gəlib çatıb. Onun yazdıqları hələ uzun illər tariximizin müəyyən dövrlərini işıqlandırmaq üçün bizə əsas material olacaq. Məşədixanım Nemət çox ləyaqətli bir ömür sürüb. O, bütün mənalı ömrünü xalqına xidmətə həsr etdi və çox böyük mədəni, zəngin irs qoyub getdi. Bu, hər alimə nəsib olmur. Məşədixanım Azərbaycan elminin milli sərvətidir".***

Sonra akademik Nailə Vəlixanlı sözü Azərbaycan Milli Elimlər Akademiyasının prezidenti, ***akademik İsa Həbibbəyliyə*** verdi.



***Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli***

İsa Həbibbəyli həyatını elmə həsr edən AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru Məşədixanım Nemət Azərbaycan elminin görkəmli nümayəndələrindən biri olmaqla yanaşı, sözün əsl mənasında böyük vətəndaş, ziyalı olmasını qeyd etdi. O, alimin bizə miras qoyub getdiyi dəyərli irsinin yenidən nəşr olunamsını tövsiyyə edərək, qeyd etdi ki, rus dilində "Azərbaycanın epiqrafik abidələri" toplusunu 5 cilddə (Bakı-Abşeronun ərəb-fars-türkdilli kitabələri (XI-XX əsrlərin əvvəli), I cild, Bakı, 1991; Şəki-Zaqatala bölgəsinin ərəb-fars-türkdilli kitabələri (XIV-XX əsrlərin əvvəli), II cild, Bakı, 2001; Naxçıvan Muxtar Respublikasının ərazisindəki ərəb-fars-türkdilli kitabələr (XII-XX əsrlərin əvvəli), III cild, Bakı, 2001; Quba-Xaçmaz Cənubi Dağıstanın ərəb-fars-türkdilli kitabələri (VIII-XX əsrlərin əvvəlləri), IV cild, Bakı, "Nurlan", 2008; Şirvan, Gəncə, Ağdam, Füzuli, Şuşa, Zəngilan, Cəbrayıl, Laçın, Kəlbəcər və başqa rayonların ərəb-fars-türkdilli kitabələri (XI-XX əsrlərin əvvəlləri), V cild, Bakı, 2011) çap olunan kitablar Azərbaycan və ingilis dillərində, Azərbaycan dilində çap olunan (Mis qablar, silahlar, bayraqlar üzərindəki ərəb-fars dilində olan kitabələr (XVII-XIX əsrlər), VI cild, Bakı, 2011) əsəri isə rus və ingilis dillərində nəşrə hazırlanmalıdır. Bu işin həyata keçməsi üçün Azərbaycan Milli Elimlər Akademiyasının Arxeologiya və Antropologiya İnstitutu və Milli Azərbaycan Tarixi Muzeyində çalışan epiqrafçı və şərqşünas alimlərin bu işə cəlb olunmasını xüsusuilə vurğuladı.

Muzeyin direktoru, akademik Nailə Vəlixanlı növbəti məruzəçi, AMEA Arxeologiya və Antropologiya İnstitutunun direktoru, ***t.ü.f.d., dosent Fərhad Quliyevə*** söz verdi.



***AMEA Arxeologiya və Antropologiya İnstitutunun direktoru, t.ü.f.d., dosent Fərhad Quliyev***

İnstitutunun direktoru öz məruzəsində Məşədixanım Nemətin 1993-cü ildən AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunda Epiqrafika şöbəsinin rəhbəri olmasını iştirakçılara xatırladaraq qeyd etdi ki, alimin Azərbaycanın orta əsrlərə aid epiqrafik abidələrini tədqiq etməsi, Ermənistan, Gürcüstan və Dağıstan ərazilərində qalan qədim Azərbaycan torpaqlarında epiqrafik cəhətdən apardığı çoxsaylı tədqiqatları, AMEA Arxeologiya və Etnoqrafiya üzrə müdafiə şurasının, "Tarixi mədəniyyət abidələrinin qorunması" cəmiyyətinin rəyasət heyətinin, AMEA ictimai elmlər şöbəsi nəzdindəki Orta Əsr Azərbaycan Tarixi Koordinasiya Şurasının üzvü olmasından və əvəzolunmaz alimin əsərlərinin Bakı, Moskva, Sankt-Peterburq, Aşqabad, Daşkənd, Mahaçqala,Türkiyə və digər şəhərlərdə nəşr olmasından, böyük bir irsi bizə yadigar qoyub gedən alim və gələcək nəsillərə örnək bir tədqiqatçı, şair qəlbli vətənpərvər bir vətəndaş, gözəl ana və nənə olamasından bəhs etdi.

**Həbibə ƏLİYEVA**

***Milli Azərbaycan Tarixi Muzeyi,***

***tarix üzrə fəlsəfə doktoru, dosent***

***ahebibe@gmail.com***

# EPİQRAFÇI ALİM MƏŞƏDİXANIM NEMƏTİN HƏYAT YOLU (BİBLİOQRAFİYASİ)



***T.ü.f.d., dosent Həbibə Əliyeva***

Məşədixanım Nemətova 1924-cü il yanvarın 5-də Bakının II Zabrat kəndində anadan olmuşdur. O, 1941-ci ildə orta məktəbi, 1948-ci ildə Azərbaycan Dövlət Universitetinin (indi BDU) şərqşünaslıq fakültəsini bitirmiş və həmin ildə Azərbaycan EA-nın Tarix İnstitutunda aspiranturaya daxil olmuş (foto 1), elmi fəaliyyətinə 1953-cü ildən Azərbaycan SSR EA Tarix İnstitutunda başlamış və görkəmli epiqrafçı alim Əjdər Ələsğərzadənin rəhbərliyi ilə Şirvanın epiqrafik abidələrini tədqiq edərək, 1954-cü ildə "Şirvanın XIV-XVI əsrlər tarixinin öyrənilməsinə dair (epiqrafik abidələr əsasında)" adlı namizədlik və 1968-ci ildə isə doktorluq dissertasiyasını müdafiə etmişdir.

1969-1977-ci illərdə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində epiqrafika fənnindən dərs demiş Məşədixanım Nemət hələ 1948-ci ildən ehtibarən Dərbənddən tutmuş İrəvana və Borçalıya qədər Azərbaycanın bütün tarixi ərazilərini gəzərək ərəb qrafikasının müxtəlif xətt növləri ilə həkk olunan ərəb-fars-türkdillli kitabələrin estampını çaxarmış, ölçülərini gütürərək oxuyub tədqiq etməyi fədakarcasına bacarmışdır (foto 2).

1993-cü il AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunda Epiqrafika şöbəsinin rəhbəri olan ilk epiqrafçı alim qadın Azərbaycanın orta əsrlər islam epiqrafik abidələrini tədqiq etmiş, Ermənistan, Gürcüstan və Dağıstan ərazilərindəki müsəlman kitabələri haqqında da çoxsaylı tədqiqatları var (foto 3).

AMEA Arxeologiya və Etnoqrafiya üzrə müdafiə şurasının, “Tarixi mədəniyyət abidələrinin qorunması” cəmiyyətinin rəyasət heyətinin, AMEA ictimai elmlər şöbəsi nəzdindəki Orta Əsr Azərbaycan Tarixi Koordinasiya Şurasının üzvü olmuş alimin əsərləri Bakı, Moskva, Sankt-Peterburq, Aşqabad, Daşkənd, Mahaçqala və Türkiyədə nəşr olunmuşdur.

Məhz onun səyi ilə 2500-dən artıq epiqrafik abidə oxunub araşdırmış və tarixi əhəmiyyəti müəyyənləşdirilmişdir. Görkəmli alimin 12-dən artıq monoqrafiyası və 200-dən artıq elmi məqaləsı nəşr edilmiş, o cümlədən 6 cildlik sanballı "Azərbaycanın epiqrafik abidələrinin toplusu"nun müəllifidir. Məşədixanım Azərbaycan ərazisində apardığı 60 illik tədqiqatlarını yekunlaşdıraraq “Azərbaycanın epiqrafik abidələri” toplusunu 6 cilddə (I cild Bakı-Abşeronun ərəb-fars-türkdilli kitabələri (XI-XX əsrlərin əvvəli), Bakı, 1991; II cild Şəki-Zaqatala bölgəsinin ərəb-fars-türkdilli kitabələri (XIV-XX əsrlərin əvvəli), Bakı, 2001; III cild Naxçıvan Muxtar Respublikasının ərazisindəki ərəb-fars-türkdilli kitabələr (XII-XX əsrlərin əvvəli), Bakı, 2001; IV cild. Quba-Xaçmaz Cənubi Dağıstanın ərəb-fars-türkdilli kitabələri (VIII-XX əsrlərin əvvəlləri), Bakı, “Nurlan”, 2008; V cild. Şirvan, Gəncə, Ağdam, Füzuli, Şuşa, Zəngilan, Cəbrayıl, Laçın, Kəlbəcər və başqa rayonların ərəb-fars-türkdilli kitabələri (XI-XX əsrlərin əvvəlləri), Bakı, 2011; VI cild. Mis qablar, silahlar, bayraqlar üzərindəki ərəb-fars dilində olan kitabələr (XVII-XIX əsrlər), Bakı, 2011) nəşr etdirmişdir (foto 4).

Qeyd etmək lazımdır ki, belə fundamental əsərlərin ərsəyə gəlməsində təkcə eiqrafik abidələr oxuyub tədqiq etmək deyil, həm respublikamızın muzey və arxivləri, həm də Moskva, Sank-Peterburq, Dərbənd, Tiflis və b.şəhərlərin arxivlərindən alim yararlanmışdır. Bildiyimiz kimi, Sank-Peterburq arxivlərində saxlanılan XIX əsrin görkəmli epiqrafçı alimlərdən olan V. Dornun, Xanıkovun və digər tarixçi alimlərin şəxsi arxivlərindən məharətlə istifadə edərək bizə böyük miras ərməğan edib.

92 illik ömrünün 60 ilini xalqına xidmətə həsr etmiş bu alimi dövlət tərəfindən yüksək mükafatlandırmışdır. Elimlər Akademiyası camisi 2001-ci ildə onu AMEA-nın müxbir üzvü seçilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il 4 mart tarixli sərəncamı ilə "Azərbaycanda epiqrafik irsin tədqiqi sahəsində xüsusi xidmətlərinə” görə dəyərli alimə "Şöhrət" ordeni təqdim etmişdir. 60 illik elmi fəaliyyəti dövründə Azərbaycanın bütün tarixi ərazisini gəzərək ərəb qrafikasının müxtəlif xətləri ilə ərəb, fars, türk dillərində daşlara həkk olunmuş daş salnamələrin səhifələrini vərəqləmiş, ölkənin iqtisadi-siyasi, sosial-mədəni tarixi, memarlıq, sənətşünaslıq, filologiya, islam fəlsəfəsi - sufizm, toponimika, etnoqenez və s. problemlərə dair külli miqdarda yeni və ən dəqiq sənədlərlə Azərbaycanın tarixşünaslıq bazasını zənginləşdirmişdir.

Demək olar ki, bir neçə alimin işini tək başına bacaran bu zərif qadın bu sahədə qələbə əldə etmişdir. Öz Vətənini sevən böyük alim, əzəmətlik rəmzi olan bu gözəl insan Azərbaycanı qarış-qarış gəzərək, daşlaşan sirləri çətinliklə olsada tədqiq edərək tarix elminə yeniliklər gətirməyə qadir olmuşdur.

Azərbaycan xalqının izini özündə əks etdirən, bütün yazılı daşları bir-bir öz incə qadın əlləri ilə oxşaya-oxşaya oxumağa nail olan M. Neməti gah at belində, gah piyada, gah da maşınla görən yerli əhali ona məmuniyyətlə bu işdə kömək etmişdir ( foto 5) .

Onuda qeyd etmək lazımdır ki, epiqrafika sahəsində kadr hazirlayacaq heç bir tədris müəssisəsi olmadığından və açıq səma altında çalışmaq lazım gəldiyindən bu sahəyə gedən yollar çox çətin olur. Fədakar alim günlərlə isti-soyuq havada, dizəcən tikanlı ot basmış ilanlar mələşən orta əsr qəbiristanlıqlarında, qızmar günəş altında, susuz yerlərdə işləməyi bacarır və özünə bunu Vətən borcu bilirdi. Alimin epiqrafika sahəsində xidmətləri əvəzsizdir. Tanınmış alimimiz artıq məhvə məruz qalmış madi-mədəniyyət nümunələrimiz sayılan abidələrimiz və məzarlıqlardakı türbələrimizi, qəbir daşları üzərindəki çox çətinliklə oxunan kitabələri oxuyub üzə çıxarmışdır. Vətəninin əsrarəngiz torpağına bağlı olan bu zərif xanım ürəyindən keçənləri poetik misralara çevirərək "Hicran" təxəllüsü ilə "Hicran dərdi" kitabında şerlerini toplayıb çap etdirmişdir. Bu şerlərin birində Ustad bütün əldə etdiyi nailiyyətlərə görə birinci növbədə özünü kitablara borclu sayaraq söyləyirdi.Bu kəlam onun mənəvi haqqının təzahürüdür.

***"Var idim izim qaldı, Od idim közüm qaldı.***

***Əsrin daş yaddaşında, Mənim də izim qaldı"***

Məşədixanim Nemət Şirvan, Muğan, Qarabağ, Mil, Naxçıvan, Dərbənd, Gürcüstan və erməni işğalı altında olan Qərbi Azərbaycandakı tarixi abidələrimizin kitabələrini tədqiq etmiş alim olmuşdur. Azərbaycan epiqrafikasının yaranması və təkamülü fənn olaraq M. Nemətin adı ilə bağlıdır (foto 6).

Alim epiqrafika sahəsində olan kəşfləri ilə torpaq iddiasında olan bədnam erməni qonşularımıza da tutarlı cavab verməsini biz unutmadıq. Hələ, 1961-ci ildə üzə çıxardığı Zəngəzurun Urud kəndində XIV-XVII əsrlərə aid qoç və at fiqurlu, sənduqə tipli məzar daşları üzərində ərəb qarfikası ilə həkk olunan "Avladi ağvan" – "Alban övladları" sözləri Zəngəzurda yaşamış alban tayfalarının türkləşməsini və islamı qəbul eməsini təsdiqedən daş sənəddir ( foto 7) .Zəngəzur abidələrini erməni abidələri kimi qələmə vermək istəyən Erməni tarixçilərini ilk susduran Məşədixanım Nemət olmuşdur. Zəngəzur abidələrindəki kitabələri araşdıran alim üzdəniraq erməni tarixçilərin qarşısına nadir faktlar qoyaraq bu torpaqların heç vaxt ermənilərin olmamsını xatırladıb (foto 8).

Bir maraqlı faktı da xatırlamaq lazımdır ki, 1999-cu ildə Ümummilli lider və ulu öndər Heydər Əliyev cənablarının iştirakı ilə keçirilən Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi ilə əlaqədar Dövlət Komissiyasının iclasında epiqrafçı alim M. Nemət də iştirak edirdi. Epiqrafçı alimin Zəngəzur mahalının Urud kəndindəki abidələrin epiqrafik tədqiqi haqqındakı həyəcanlı çıxışı Ümummilli liderin böyük marağına səbəb oldu (foto 9). Alimin Urud

qəbiristanlığındakı ərəb-fars-türkdilli kitabəli sənduqələri və Oğuz türklərinin möhürü sayılan qoç heykəlli tarixi məzar daşları haqqında elmi dəlliləri ermənilərə tutarlı cavab idi. Mərhum prezidentin məruzəsi və hörmətli alimin belə çıxışlarına səbəblərdən biri də mənfur ermənilərin 1988-ci ildə orta əsr Urud qəbirstanlığındakı abidələri yerlə yeksan etməsi idi. Hazırkı dövrümüzdə Urud sənduqələrinin və qoç heykəlli məzar daşlarının şəkilləri və məşhur epiqrafçı alimimizin əvəzolunmaz əsərləri dəyərli tədqiqat olaraq aktuallığını qorumaqdadır (foto 9). Toplunun V cildi bütün işğal altında olan ərazilərin epiqrafik abidələridir. Ermənilərin işğalı zamanı orada yerləşən bütün maddi-mədəniyyət abidələri də təcavüzə məruz qalıb. Toplunun V cildi bu torpaqların bizə vətəndaşlıq hüququ verən pasportumuzdur, desək yanılmarıq. Bunu da qeyd etmək lazımdır ki, 1960-cı illərdə Qarabağ torpagının dilbər guşəsi olan Şuşa şəhərin simğəsi sayılan “Məsciddi-Gövhəriyyə”,“Yuxarı Gövhər Ağa məscidi” vəya “Cümə” məscidi, Ağdamda “İmarət” adlanan dini-tarixi abidələrin kitabələrini tədqiq edən fədakar alimi Məşədixanım Nemət olmuşdur. Qarabağ torpaqları işğalda olan 30 ilə yaxın dövrdə oradakı əlçatmaz abidələrin kitabələrinə, məhz alimin əsərləri vasitəsilə əlimiz çatırdı.

Məlumdur ki, mənfur ermənilərin işğalı nəticəsində dağıdılan Qarabağın yüzlərlə epiqrafik abidələri kimi 8 may 1992-ci ildə Şuşa şəhərindəki tarixi memarlıq abidələrimizdə erməni vandalizminin qurbanına çevrilmişdir. 44 günlük II Qarabağ savaşından sonra rəşadətli Müzəffər Ordumuzun 8 noyabr 2020-ci Böyük Zəfəri nəticəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqımıza ***“ƏZİZ ŞUŞA, SƏN AZADSAN!”*** müraciəti bu torpaqları qürurlandırdı, yenilədi, bütövləşdirdi.

Qarabağ torpağının Azərbaycana məxsus olmasını sübut edən maddi-mədəniyyət abidələrimizin kimliyi, yəni kitabələrini araşdıran Məşədixanım Nemətin Milli Azərbaycan Tarixi Muzeyində də fəaliyyəti danılmazdır. Muzeyin ən möhtəşəm epiqrafik abidələri sayılan kufi xəttlə ərəb dillində XI əsrə aid Şəmkir kitabəsi, XII əsrə aid Şirvanşahların şəhər qalasının kufi xəttli iri daş lövhə, Azərbaycanın görkəmli alimi Pir Hüseyn xanəgah kompleksindən aşkarlanmış XIII əsrə aid kitabə, Samuxdan gətirilən sənduqə (1285), XIV əsrə aid qoç fiqurlu məzar daşı, Şirvan–Abşeron memarlıq məktəbinə (XVII-XVIII əsrlər) aid sənduqələr, Qarabağ xanı Pənahəli xan Cavanşirin (1758/59) və Quba xanı Fətəli xanın (1788/89), Bakı xanı Dərgahqulu xan oğlu Mirzə Məhəmməd xanın (1768/69) məzarüstü abidələri alimin tədqiq edib oxuduğu kitabələr sırasındadır. Həmçinin, Məşədixanım illər uzunu arzusunda olduğu silah və məişət-dini qablar üzərindəki kitabələrin oxunub çap olunmasına da nail ola bilmişdir. Epiqrafçı alimin elmi fəaliyyəti respublikamızdan kənarlarda dəyərləndirilib. Məşədixanım Nemət müxtəlif illərdə Rusiyanın Moskva, Sank-Peterburq, Türkiyənin Kars, Ərzurum şəhərlərində, İran, Küveytdə və digər ölkələrdə elmi məruzələr ilə Azərbaycanı təmsil etmişdir (foto 10 ).

Alimin elmi yaradıcılığı və zəngin həyat tərzi hər bir gənc alim üçün bir örnəkdir. Alim hər dəfə gənc alimlər qarşısında söylədiyidi ki, çoxlu oxumaq

və çalışqan olmaq lazımdır. Şerlərin birində Ustad bütün əldə etdiyi nailiyyətlərə görə birinci növbədə özünü kitablara borclu sayaraq söyləyirdi:

***"Yalqız günlər, fəraq məni sıxanda,***

***Yaxşı dostum etibarsız çıxanda,***

***Qohum-qardaş kəc-kəc dönüb baxanda,***

***Arxa-dayaq olmuş mənə kitablar,***

***Dərya kimi tükənməzdir kitablar"***

Vətənin layaqətli iki övlad yetişdirən bu qadın həqiqətən,çox zəhmətlərə qatlanmış və sağlığında özünə bir abidə qoymuşdur. Ustadım Məşədixanım Neməti yaxından tanıdığım və onun davamçısı olduğum üçün özümü xöşbət hesab edir və onu özümə örnək bilirəm (foto 11).

26 dekabr 2016-cı ildə 92 yaşında dünyasını dəyişən görkəmli alim Məşədixanım Nemət Zabrat qəbiristanlığında dəfn olunmuşdur. Ustad Alim nurlar içində uyusun!!!

Xatırladım ki, alimin ölmündən sonra vəfa borcumuzu yerinə yetirmək üçün onun əziz xatirəsinə həsr olunan tədbirlər, elmi-praktik və beynəlxalq konfranslar təşkil etmək boynumuzun borcu idi. Belə ki, 10-12 oktyabr 2019-cu il tarixində Türkiyə Cumhuriyyətinin Tokat şəhərində Qaziosmanpaşa Universitetində Azərbaycanın görkəmli epiqarfçı alimi Məşədixanım Nemətin xatirəsinə həsr olunmuş "I Beynəlxalq Türk-İslam Sənətlərində Epiqarafik Çalışmalar" Simpoziumu keçirildi. Simpoziumuna Türkiyənin fərqli bölgələrindən, Azərbaycandan, Özbəkistandan, Bolqarıstandan, Rusiyadan, İrakdan, İranın Təbriz şəhərindən, Polşadan alimlər iştirak edirdilər (şəkil 12).

Mərhum alimin Azərbaycan tarixşünaslığındakı xidmətləri və tədqiq etdiyi saysız-hesabsız daş yaddaşlarımızın tarixi əhəmiyyəti haqqında elmi məruzələr dinlənildi. Alimlər tərəfindən yad edilən mərhum epiqarfçı alim Məşədixanım Nemətin ruhu şad olsun!!!

***Fotolar:***







***Foto 1***




***Foto 2***




***Foto 3***





***Foto 4***




***Foto 5***



*Foto 6*



*Foto 7*



*Foto 8*



*Foto 9*







***Foto 10***






***Foto 11***









***Foto 12***

**Hacı Fəxrəddin SƏFƏRLİ**

***Naxçıvan Dövlət Universitetinin professoru,***

***AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru***

seferli949@mail.ru

# GÖRKƏMLİ ALİM, ELM FƏDAİSİ, BÖYÜK USTAD



***Professor Hacı Fəxrəddin Səfərli***

2024-cü il yanvar ayının 5-də Azərbaycan tarix elminin tanınmış nümayəndələrindən biri, görkəmli alim, nəcib insan, ustadım Məşədixanım Sədulla qızı Nemətin anadan olmasının 100 ili tamam oldu. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru Məşədixanım Sədulla qızı Nemət Azərbaycanın orta əsrlər dövrü tarix və mədəniyyətinin müsəlman epiqrafikası abidələrinin məlumatları əsasında tədqiqi və təbliği sahəsində çox böyük xidmətləri olan görkəmli və fədakar alim olmuşdur. Azərbaycan Epiqrafika elminin ən görkəmli nümayəndəsi, həyatının 60 ildən artıq bir dövrünü Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın müsəlman epiqrafikası abidələrinin tədqiqinə həsr edən Məşədixanım Nemət yaşadığı və fəaliyyət göstərdiyi dövrdə məşğul olduğu  sahə üzrə elmin yüksək zirvəsinə qalxa bilmiş, öz tədqiqatları ilə nəinki Azərbaycanda, bütövlükdə keçmiş İttifaqda, hətta dünyada tanınmış bir alimə çevrilmişdir. Yetirməsi, onu yaxından tanıyan və yardıcılığına bələd olan bir şəxs kimi deyə bilərəm ki, Məşədixanım Nemətin adı çəkiləndə ilk növbədə nəzərimizdə Azərbaycan Epiqrafika elmini sistemli şəklə salan və yaradan bir elm fədaisi, görkəmli alim, zəhmətkeş tədqiqatçı, müqəddəs ana, qayğıkeş və nəvazişkar nənə canlanır.

Məşədixanım Nemət çox çətin, ancaq zəngin bir həyat yolu keçmişdir. 1924-cü ildə Bakının II Zabrat kəndində dünyaya göz açmış Məşədixanım Nemət uşaq vaxtlarından valideynlərini itirməsi səbəbindən böyük çətinliklərlə

üzləşməsinə baxmayaraq təhsilini dayandırmamış, 1941-ci ildə orta məktəbi bitirmişdir. Bütün çətinliklərə baxmayaraq ali təhsil almaq istəyən gənc qız Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nin) filologiya fakültəsinə daxil olmuş, sonradan görkəmli alim və pedaqoq Mir Cəlal Paşayevin köməkliyi ilə yeni açılan şərqşünaslıq ixtisasına köçürülmüşdür. 1948-ci ildə həmin ixtisası bitirmişdir. Bundan sonra Məşədixanım Nemət həyatını elmə həsr etmək qərarına gəlmiş, buna görə də Azərbaycan SSR Elmlər Akademiyasının Tarix İnstitutunun aspiranturasına daxil olmuşdur. Bununla da, bəzi vaxtlarda Azərbaycan Dövlət Universitetində (indiki BDU-da) epiqrafika fənnini tədris etməsi istisna olmaqla həyatını tamamilə Elmlər Akademiyası ilə bağlamışdır. Məşədixanım Nemət namizədlik dissertasiyası mövzusu üçün Şirvanın epiqrqfik abidələrini tədqiqat obyekti kimi seçmişdir. Beləliklə, Bakı mühitində böyüyən gənc qız tariximizin çox çətin və nadir sahələrindən, həm də islam dini ilə sıx bağlı olduğu üçün sovet ideoloqları tərəfindən heç də xoş qarşılanmayan bir mövzu ilə – Azərbaycanın müsəlman epiqrafikası abidələrinin tədqiqi ilə məşğul olmağa başlamışdır.

Epiqrafik abidələrin qeydə alınması, xüsusilə yay mövsümündə çöl tədqiqatlarının aparılması, müxtəlif tikililər üzərində qalmış kitabələrin, unudulmuş qəbiristanlıqlarda sükut içərisində qalmış başdaşıların, sənduqələrin, qoç və at fiqurlarının üzərində həkk edilmiş kitabələrin tədqiqi tədqiqatçıdan böyük diqqət, səbr, təmkin, dözüm, bacarıq və məharət tələb edir. Epiqraf-alim kitabələrin həkk olunduğu ərəb əlifbasının müxtəlif xətlərinə (kufi, nəsx, süls, nəstəliq, şikəstə və s.) yaxından bələd olmalı, onları oxumağı bacarmalıdır. Kitabələr əsasən açıq havada olduqları üçün təbii qüvvələrin təsirinə daha çox məruz qalaraq aşındığından qalan sözlərə əsasən kitabələrin mətnlərini bərpa etmək, müxtəlif vasitələrdən istifadə edərək oxumaq da tədqiqatçının bacarığından çox asılıdır.

Bütün bu çətinliklərə baxmayaraq Məşədixanım Nemət qorxmadan bu işin ağırlığını öz üzərinə götürmüş, körpə uşaqlı olmasına baxmayaraq Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın yaşayış məskənlərini həyat yoldaşı ilə birlikdə gəzmiş, epiqrafik material toplamışdır. O, nəinki Azərbaycanın, həmçinin vaxtilə Azərbaycana məxsus olan, ancaq sonralar Azərbaycan Xalq Cümhuriyyəti və qondarma erməni dövləti yaratmaq üçün Sovet hakimiyyəti tərəfindən ermənilərə hədiyyə edilən ərazilərdə, həmçinin Gürcüstan Respublikasında, Dağıstan Respublikasında qalan müsəlman epiqrafikası abidələrinin tədqiqi ilə məşğul olmuş, bu sahədə çox ciddi tədqiqatlara və nəşrlərə imza atmışdır. Onun bu yerlərdə, xüsusilə Qərbi Azərbaycan ərazisində tədqiq etdiyi kitabələrin nəşr olunduğu əsərlər çox böyük tarixi əhəmiyyətə malikdir. Şübhəsiz ki, alimin əldə etdiyi uğurlar heç də birdən-birə, göydəndüşmə əldə olunmamışdır. Aspiranturanı bitirdikdən sonra, Şirvanın XIV-XV əsrlər tarixinin epiqrafik abidələr əsasında tədqiqinə həsr etdiyi namizədlik dissertasiyasını 1954-cü ildə müdafiə edən Məşədixanım Nemət, 1968-ci ildə epiqrafik abidələr və onların Azərbaycanın XIV-XIX əsrlər sosial-iqtisadi tarixinin öyrənilməsində əhəmiyyətinə həsr etdiyi

doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. Mənalı ömür yolunun böyük bir hissəsini müsəlman epiqrafikası abidələrinin tədqiqinə həsr edən alim dünyada tanınan və qəbul edilən tədqiqatçıya çevrilmişdir. Təsadüfi deyildir ki, Sovet Epiqrafika elminin banilərindən və ən görkəmli nümayəndələrindən biri olan V.A.Kraçkovskaya 1976-cı ildə Moskvada nəşr olunan "Sovet tarix ensiklopediyası"nın 16-cı cildində dünyada müsəlman epiqrafikası ilə məşğul olan ən məşhur bir neçə alimin adı ilə birlikdə Məşədixanım Nemətin də adını qeyd etmişdir. Məşədixanım Nemət elə nəhəng alimdir ki, onun elmi fəaliyyəti, Azərbaycan tarix və mədəniyyəti qarşısında xidmətləri haqqında bir yazıda bəhs etmək imkan xaricindədir. Ona görə də, burada onun elmi fəaliyyətinin bəzi məqamları haqqında qısa şəkildə bəhs etmək istəyirik. Məşədixanım Nemət tədqiq etdiyi kitabələrin özlərində əks etdirdiyi təkzibolunmaz və başqa mənbələrdən məlum olmayan faktları əsasında Azərbaycanın orta əsrlər dövrü siyasi, iqtisadi və mədəniyyət tarixinin bir sıra qaranlıq və dərindən tədqiqinə ehtiyac olan məsələlərinə aydınlıq gətirmişdir. Alim bu kitabələrin təqdim etdiyi məlumatlar əsasında çoxlu yaşayış məskəninin tarixini dəqiqləşdirmiş, onlardan bəzilərinin adlarının toponimika ilə məşğul olan alimlər üçün dəyərli mənbə olan ilkin variantını müəyyənləşdirmişdir. Həmçinin tədqiqatçı Azərbaycan ərazisində dövrümüzədək gəlib çatan yüzlərlə tarix-memarlıq abidəsinin təyinatını, sifarişçisini, kimin xatirəsinə inşa edildiyini, inşa tarixini, memarının adını aşkar edərək elmi dövriyyəyə daxil etmişdir.

Kitabələrdə qeyd olunan istilahları, xüsusilə titul və epitetləri hərtərəfli araşdıran tədqiqatçı onların əsasında Azərbaycanda feodal cəmiyyətinin mürəkkəb strukturunu, ayrı-ayrı şəxsiyyətlərin ölkənin ictimai-siyasi həyatındakı yerini və rolunu öyrənmiş, təhlil etmişdir. Həmçinin bu titul və epitetlərin təhlili sayəsində alim orta əsrlər zamanı Azərbaycanın müxtəlif bölgələrində yaşayan yüzlərlə görkəmli şəxsiyyətin, o cümlədən, orta əsr Azərbaycan dövlət aparatında müxtəlif vəzifələr tutan dövlət xadimlərinin, alimlərin, müxtəlif peşə sahibi olan sənətkarların, sufi şeyxlərinin və s. adlarını, qəbirlərinin yerini, vəfat tarixini müəyyən etmişdir. Beləliklə, Məşədixanım Nemətin tədqiqatlarının nəticəsi olaraq orta əcrlər zamanı Azərbaycanda yetişmiş və adları başqa mənbələrdən məlum olmayan çoxlu sayda görkəmli şəxsiyyətin adları aşkar olunmuş, onların yaşadıqları dövrdə, cəmiyyətdə tutduğu mövqe və yer müəyyən edilərək elmi dövriyyəyə daxil edilmişdir. Adları kitabələrdə əks olunan şəxsiyyətlərin daşıdığı bu titul və istilahların təhlili əsasında tədqiqatçı Azərbaycanın orta əsrlər dövrü sosial-siyasi və mədəniyyət tarixi, inzibati ərazi bölgüsü, dövlət quruluşu və idarəçiliyi məsələlərinin bir sıra problemlərinə aydınlıq gətirmişdir. Azərbaycanın müxtəlif yerlərində, həmçinin tarixi Azərbaycan torpaqlarında tədqiq etdiyi kitabələrin köməyi ilə Məşədixanım Nemət müsəlman Şərqində VIII yüzillikdən etibarən təşəkkül tapan və Azərbaycanın bir sıra yerlərində də fəaliyyət göstərən müxtəlif sufi təriqətlərinə mənsub xanəgahların fəaliyyətini təhlil etmişdir. Alimin qənaətincə Azərbaycanda XII-XIX yüzilliklərdə

Qələndəriyyə, Bektaşiyyə, Nəqşibəndiyyə, Xəlvətiyyə, Səfəviyyə və s. sufi cəmiyyətlərinə məxsus xanəgahlar fəaliyyət göstərmiş, böyük təsir gücünə malik olduqlarından dövrün ictimai-siyasi və mədəni həyatında mühüm rol oynamışlar. Həmçinin alim tərəfindən bu xanəgahlara, zaviyələrə, ribatlara rəhbərlik edən çoxlu sayda şeyxlərin adı müəyyənləşdirilmişdir.

Alim kitabələrdə, xüsusilə məzar kitabələrində tez-tez rast gəlinən və insanla güclü, psixoloji və həyəcanlandırıcı təsir göstərən Quran ayələrini, hədisləri və digər dini xarakterli kəlamları, şiəliklə bağlı ehkamları orta əsr hökmdarlarının, xüsusilə Səfəvi şahlarının yeritdiyi siyasətin təhlili üçün mənbə kimi öyrənmişdir. Həmçinin kitabələrdə tez-tez rast gəlinən elegiya formalı mənzum parçaların köməyi ilə tədqiqatçı Azərbaycanın müsəlman Şərqi ölkələri ilə ədəbi və mədəni əlaqələrini işıqlandırmaq baxımından mühüm tədqiqatlar aparmışdır.

Məşədixanım müəllimə Azərbaycan ərazisində zəmanəmizədək gəlib çatan İslam dini ilə əlaqədar ziyarətgahlarla əlaqədar tədqiqatlar aparan çox görkəmli alimdir. Onun elmi yaradıcılığında ölkə ərazisində əhali tərəfindən hörmətlə ziyarət edilən ziyarətgah-pirlərin tədqiqi xüsusi yer tutur. Müşahidələrimizə əsasən deyə bilərik ki, zəvvarlar bəzən ziyarət etdikləri pirin haqqında ətraflı məlumata malik olmur, ziyarət olunan obyektin mahiyyətini bilmir, ziyarətlərini kor-koranə, ənənəyə uyğun olaraq həyata keçirilər. Azərbaycan ərazisindəki ziyarətgahların əksəriyyətini tədqiq edən və kitabələri əsasında onların əsil mahiyyətini açan, bu səbəbdən də onlar haqqında zəngin biliyə və məlumata malik olan Məşədixanım Nemət ateist dövlət olan Sovet hakimiyyəti illərində dövrün tələblərinə uyğun olaraq həmin ziyarətgahların əsil mahiyyətini aça və xalqa çatdıra bilməmişdi. Ona görə də, o, 18 oktyabr 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən az sonra, uzun illərdən bəri arzusunda olduğu işi həyata keçirdi və 1992-ci ildə “Azərbaycanda pirlər” kitabını nəşr etdirdi. Böyük tirajla nəşr olunan kitab oxucular tərəfindən rəğbətlə qarşılanmış, əl-əl gəzmişdi. Ona görə də alim 2010-cu ildə kitabın genişləndirilmiş və yenidən işlənmiş variantının nəşrinə nail olmuşdu.

Görkəmli epiqraf-alim Məşədixanım Nemət müxtəlif təyinatlı abidələr üzərindəki kitabələri tədqiq etməklə kifayətlənməmiş, abidələr üzərində rast gəlinən təsvirlərə və ornamentlərə də diqqətlə yanaşmış, onları qeydə almış, toplamış, bir sənətşünas səriştəsi ilə tədqiq və təhlil etmiş, elmi əhəmiyyətini açıqlamışdır. Bu təsvirlər alim tərəfindən Azərbaycan orta əsr tarix və mədəniyyətinin mənbəyi kimi öyrənilmişdir.

Keçmiş İttifaqda, bütövlükdə dünyada müsəlman epiqrafikası üzrə tanınmış bir neçə görkəmli alimdən biri olan Məşədixanım Nemət Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bir sıra xarici ölkələrdə, o cümlədən qonşu ölkələrdə daha da məşhurlaşmağa başladı. İran İslam Respublikasının paytaxtı Tehran şəhərində 1991-ci ildə keçirilən kitab sərgisində kitabları ilə iştirak edən alim, 2011-ci ildə Türkiyə Respublikasının Qars şəhərində keçirilən “Qazi Qars şehrengizi” simpoziumuna qatılmış və orada türk-islam mədəniyyətinə xidmətlərinə görə mükafatlandırılmşdı.

Məşədixanım Nemət nadir alimlərdəndir ki, Azərbaycanın hər yerində tanınırdı və əhali arasında böyük hörmət qazanmışdı. Çünki o, xoş xasiyyəti, davranışı, rəftarı, şirin söhbətləri, yüksək insani keyfiyyətləri ilə epiqrafik material toplamaq məqsədi ilə səfər etdiyi bütün yaşayış məskənlərinin əhalisinin xatirində silinməz izlər buraxırdı. Ünsiyyətdə olduğu insanlar onu həmişə xoş xatirələrlə xatırlayırdılar. Tədqiqatları və insani keyfiyyətləri ilə Azərbaycan xalqının sevimlisinə çevrilən görkəmli alim Məşədixanım Neməti ümummilli lider Heydər Əliyev də şəxsən tanıyırdı və onun elmi fəaliyyətini yüksək qiymətləndirirdi. Məhz bunun nəticəsi idi ki, Naxçıvan Muxtar Respublikasının 75 illiyi ilə əlaqədar yaradılmış Dövlət Komissiyasının iclasında və AMEA Naxçıvan Bölməsinin yaradılması münasibəti ilə 12 avqust 2002-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən, mənim də iştirak etdiyim müşavirədə ulu öndər ona söz vermiş və çıxışını dinləmişdi. Müşavirədə alimin xahişinə cavab olaraq ümummilli liderin verdiyi tapşırığa əsasən Məşədixanım müəllimənin uzun illərdən bəri nəşrini gerçəkləşdirmək arzusunda olduğu "Azərbaycanın epiqrafik abidələri korpusu"nun qalan cildləri qısa müddətdə işıq üzü gördü. Bu əsəri alimin Azərbaycan tarix elminə çox böyük hədiyyəsi kimi qiymətləndirmək olar. Tam qətiyyətlə deyə bilərəm ki, əgər Məşədixanım Nemətin bütün elmi fəaliyyətini və yaradıcılığını bir kənara qoysaq belə, 6 cildlik bu fundamental əsər müəllifinin tariximizdə əbədi yaşayacağına və gələcək tədqiqatçılar tərəfindən rəhmətlə anılmasına kifayət edər.

Burada qeyd etmək istərdim ki, alim 1961-ci ildə Ermənistanın müxtəlif yerlərində tədqiq etdiyi 30-dan artıq kitabənin mətnini, rus dilinə tərcüməsini və foto şəkillərini Korpusun Naxçıvan Muxtar Respublikasının epiqrafik abidələrinə həsr olunmuş III cildinə daxil etmişdir. Həmin kitabələr erməni vandalları tərəfindən məhv edildiyi üçün Məşədixanım müəllimənin tədqiqatları onlar haqqında məlumat verən yeganə mənbələr kimi çox qiymətlidirlər. Alim 1961-ci ildə Qərbi Azərbaycanın müxtəlif yerlərində tədqiq etdiyi həmin kitabələrin, o cümlədən Dərələyəz mahalındakı Ələyəz dağının Səlim aşırımında XIV əsrdə inşa olunmuş karvansaranın, İrəvan şəhəri yaxınlığında yerləşən Cəfərabad kəndindəki XV əsrə aid Pir Hüseyn türbəsinin, qədim Zəngəzur qəzasına daxil olan Qarakilsə (indiki Sisian) rayonunun Urud kənd qəbiristanlığında öyrəndiyi XV-XVI əsrlərə aid qəbirüstü xatirə abidələri üzərində həkk edilən və onlarla digər kitabələrin təkzibolunmaz məlumatları əsasında məlum həqiqətləri, indiki Ermənistan Respublikasının yerləşdiyi ərazilərin ermənilərlə heç bir əlaqəsi olmadığını, onların qədim və tarixi Azərbaycan torpaqları olduğunu bir daha sübuta yetirdi.

Məşədixanım Nemət elmi fəaliyyəti dövründə 2500-dən artıq müsəlman epiqrafikası abidəsini qeydə almış, foto-şəklini çəkmiş, mətnlərini oxumuş, Azərbaycan və rus dillərinə tərcümə etmiş, estamplarını işləmiş, kalkaya köçürmüşdür. Onun tədqiqatlarının nəticələri öz əksini müxtəlif illərdə nəşr etdirdiyi 12 kitab və monoqrafiyada, 200-dən artıq məqalədə, xüsusilə 6 cildlik "Azərbaycan epiqrafik abidələri korpusu"nda tapmışdır. Bu əsərlərdə

özünə yer alan epiqrafik abidələrin böyük əksəriyyəti alimin özü tərəfindən aşkar olunaraq tədqiq olunmuş və ilk dəfə elmi dövriyyəyə daxil edilmişdir.

Görkəmli alim M.Nemət elmdə qazandığı böyük uğurlara görə 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Onun əməyi Azərbaycan dövləti tərəfindən layiqincə qiymətləndirilmişdir. Azərbaycanda epiqrafik irsin tədqiqi sahəsində xüsusi xidmətlərinə görə görkəmli alim Məşədixanım Nemət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 4 may 2009-cu ildə imzaladığı Sərəncama əsasən "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Məşədixanım müəllimə fəal elmi tədqiqatlar aparan görkəmli alim olmaqla bərabər, həm də müqəddəs bir ana idi. Azərbaycanın nümunəvi analarından olan Məşədixanım Nemət xalqımıza layiq, onun adət-ənənələrini yüksək səviyyədə qoruyan və onlara əməl edən 2 övlad böyüdüb boya-başa çatdırmışdır. Oğlu Fuad müəllim iqtisad üzrə fəlsəfə doktoru, dosentdir. Qızı Vəfa xanım tarix elmləri doktorudur. Elmi fəaliyyətlə yanaşı ədəbi yaradıcılıqla da məşğul olan, hətta bir şeirlər kitabı da nəşr etdirən Məşədixanım müəllimə həm də qayğıkeş və nəvazişkar nənə idi. 80-ci illərdə kiçik uşaq olan nəvəsi Şəfaya həsr etdiyi və tez-tez söylədiyi:

***" Gör bir necə qızam mən,***

***Həm şəkərəm, duzam mən,***

***Nənəmin yaxasında,***

***Bir parlaq ulduzam mən"***

Şeir parçası onun Şəfanın timsalında bütün nəvələrinə sevgi və məhəbbətinin ifadəsi idi. Azərbaycan elminin cəfakeş və fədakar nümayəndəsi, apardığı elmi tədqiqatları həyatının mənası hesab edən görkəmli alim Məşədixanım Nemət 26 dekabr 2016-cı ildə bu fani dünyaya "əlvida" dedi və əbədiyyətə, axirət dünyasına köç etdi. Ancaq o bu dünyanı səssiz-səmirsiz, izsiz-soraqsız tərk edib getmədi. Burada Məşədixanım müəllimənin çox sevdiyi və arabir təkrar etdiyi, həmçinin mənə hədiyyə etdiyi əsərlərinin bir neçəsində yazdığı aşağıdakı şeir parçasını xatırlayıram:

***Var idim izim qaldı,***

***Od idim közüm qaldı.***

***Əsrin daş yaddaşında,***

***Mənim də sözüm qaldı.***

Məşədixanım müəllimə özündən sonra çox böyük bir elmi irs buraxdı, özünün dediyi kimi əsrlərin daş yaddaşında izi və sözü qaldı. Tam əminliklə demək olar ki, övladları onun nəslini genetik cəhətdən davam etdirəcəklərsə, zəngin elmi irsi onu tarixdə əbədi olaraq yaşadacaqdır.

Dünyaya göz açmasının 100 ili tamam olan hörmətli müəllimim, ustadım Məşədixanım Sədulla qızı Nemət haqqında fikrimizi bir məzar kitabəsinin sözləri ilə bitirmək istərdik:

***İsmi pakın həmişə yad edəlim,***

***Ruhunu fatihəylə şad edəlim!***

***Ruhun şad olsun, ustad!***

**Şahin FƏRZƏLİYEV**

***AMEA A. A. Bakıxanov adına Tarix İnstitutunun***

***"Mənbəşünaslıq və tarixşünaslıq" şöbəsinin müdiri,***

***Azərbaycan Yazıçılar Birliyinin üzvü, professor***



***professor Şahin Fərzəliyev***

Bu gün mən Milli Azərbaycan Tarixci Muzeyində qeyd olunan Azərbaycan Milli Elimlər Akademiyasının müxbir üzvü, tarix elimləri doktoru Məşədixanım Nemətin 100 illik yubleyində böyük ehtiram hissi ilə, 30 mart 2020-ci ildə ona həsr etdiyim şerlə Sizlərə öz ürək sözlərimi çatırmağı özümə borc bilirəm. İllər uzunu mənimlə elmi yolda addımlayan və hər an bu yolda mənə vüsət verən alicənab xanım Məşədixanım Neməti ehtitram və minnətdarlıqla yad edirik. Bu incə qəlbli, şair ruhlu alim qadının ruhu şad, məkanı cənnət olsun!

## *MÜNSƏRİHİ-MÜSƏMMƏNİ-MƏTVİYYİ-MƏKŞUF*

***Bəllidir hərçənd ki, aləmə xilqət gəlib,***

***Amma ki, alim ilə Fəxrü-Fəxarət gəlib.***

***

***Mən bu qadın barədə, bəlkə də az yazmışam,***

***Söz deməyə şəninə indi fürsət gəlib.***

***

***Elmə elə bağlı ki, əl çəkə bilmuir hələ,***

***Ser yazandan bəritəbbinə qüvvət gəlib.***

***

*Dəvət ediblər onubir neçə yol İrana,*

*Türkiyədən isminə bir neçə dəvət gəlib.*

***

*Xan Qarabağ yurdunun həsrəti qəlbindədir,*

*Yurd gedəndən bəri qəlbinə möhnət gəlib.*

***

*Mən bu xeyirxahdan xeyli xeyir görmüşəm,*

*Elmə məni sövq edib, elmimə vüsət gəlib.*

***

*Səksəni ötmüş yaşı, doxsana addımlayır,*

*Bilməliyik qədrini, xalqa əmanət gəli.*

***

*Şahin, o Yer mülkünə təkcə xanım gəlmədi,*

*Həm məşədi, həm xanım, həm də nemət gəlib!*



*Məşədixanım Nemət, Şahin Fərzəliyev beynəlxal konfransda*



*Məşədixanım Nemət, Şahin Fərzəliyev İranda*

**Qafar CƏBİYEV**

***AMEA Arxeologiya və Antropologiya İnstitutu,***

***tarix elmləri doktoru, professor***

***gafarjabiyev@gmail.com***

## NƏSİLLƏRƏ ÖRNƏK OLAN ŞƏRQŞÜNAS ALİM



***Professor Qafar Cəbiyev***

1969-cu ildə mən ali məktəbə qəbul olanda o artıq elmlər doktoru idi. Mən üçüncü kursda oxuyarkən o bizim instituta gəlmişdi. Tarix fakültəsində dövlət imtahan komissiyasının sədri idi. Bir çox tələbə yoldaşlarım kimi mən də İnstitutun dəhlizində gedərkən ona kənardan baxıb qibtə edirdik. Uca boylu, şux qamətli, gülərüzlü bir xanım idi. Elmin zirvəsinə yüksəlmiş bir xanım! Əvvəlki illərdə gələn dövlət imtahan komissiyası sədrlərinin üz-gözündən sanki zəhər yaydığını görmüşdük. Amma bu xanım-alimin sanki baxışı və yerişi də onun kübarlığından, ürəyiyumşaq insan olduğundan xəbər verirdi. İmtahandan çıxan tələbələr öz müəllimlərindən daha çox ondan razılıq edirdi. Deyirdilər ki, öz müəllimlərimizdən fərqli olaraq komissiya sədri uşaqlara dolaşdırıcı və çaşdırıcı suallar vermirdi. İmkan yaradırdı ki, hər kəs bildiyini ifadə edə bilsin. İmtahanların son nəticələri də deyilənləri təsdiq etmiş oldu. Yəni professor Məşədixanım Nemətovanın komissiya sədri olduğu ildə heç kəs evə gözüyaşlı getmədi.

Tale elə gətirdi ki, aspiranturaya qəbul olaraq Akademiyanın Tarix İnstitutunda isə başlayanda onunla bir söbənin əməkdaşı oldum. O zaman professor M.Nemətova epiqrafika qrupuna rəhbərlik edirdi. Hansı ki, həmin qrup da mənim elmi rəhbərim Qara Əhmədovun müdir olduğu Orta əsrlər arxeologiyası söbəsinin nəzdində fəaliyyət göstərirdi. Şöbə iclasları və digər tədbirlərdə Məşədixanım müəllimə və onun qrupunun əməkdaşları da bizimlə bir yerdə olardı. Elmi diskussiya və müzakirələrdə hər zaman çıxış edər, tövsiyyə və tənqidi qeydlərini deyərdi. Gənc tədqiqatçılara, o cümlədən mənə qarşı hər zaman isti və qayğıkeş münasibət sərgiləyərdi.

Namizədlik dissertasiyasının şöbə səviyyəsində ilkin müzakirəsi zamanı doğrusu, ondan bir qədər ehtiyat edirdim. O aralarda bilmirəm nədənsə məndən incik düşdüyünü hiss etmişdim. Bu səbəbdən də müzakirə zamanı işimi sərt tənqid edəcəyini gözləyirdim. Amma tam tərsinə oldu. O, dissertasiya işim barədə olduqca müsbət ruhlu çıxışı ilə məni təəccübləndirdi. Öz düşüncəmə görə dissertasiya işimin nisbətən zəif olan hətta birinci fəslini belə o çox tərifləyərək məni daha da ürəkləndirdi. Mən o zaman professor M.Nemətovanı daha yaxından tanımış oldum. Onun mənim tanıdığımdan və bildiyimdən də genişürəkli insan və mükəmməl düşüncə sahibi olan alim olduğunu yəqin etdim.

O, Akademiya binasının altıncı mərtəbəsində yerləşən Tarix İnstitutun qərb dəhlizinin başında yerləşən kiçik bir otaqda otururdu. Qrup əməkdaşları Ənmar Abbasov və Ağaqasım Qasımov da öz rəhbərləri ilə birliklə o kiçik otaqda çalışırdılar. O otaqda ki, orada üç adam ayaq üstə duranda belə sıxlıq olurdu. Təkcə Süleyman Allahverdiyev çox cancüssəli olduğundan nağıllarda deyildiyi kimi "o əlcəyin içinə" yerləşməmişdi. Ona görə də, Süleyman üçün memar Kamil Məmməzadənin şöbəsində bir stol ayırmışdlar ki, oturub orada işləsin. Belə "şəraitdə" çalışmalarına rəğmən görün, professor N.Nemətovanın rəhbərliyi ilə o darısqal otaqda hansı xarüqələr yaradıldı?!

Professor M.Nemətova dünya miqyasında tanınan görkəmli şərqşünas alim idi. Onun tədqiqatları Azərbaycanın hüdudlarını aşıb keçirdi. Azərbaycan rayonlarını, kəndlərini qarış-qarış gəzərək epiqrafik abidələrini qeydə alan, ərəb və fars dilli kitabələrin estampını çıxararaq, mətnlərini oxuyaraq, elmi şərhini hazırlayaraq nəşr etdirildi. Qərbi Azərbaycan və Gürcüstan ərazilərindəki bir sıra epiqrafik abidələr də ilk dəfə məhz M.Nemət tərəfindən elmi dövriyəyə abidəni qeydə alıb, onları oxuyaraq, elmi şərhini hazırlayaraq nəşr etdirildi. Qərbi Azərbaycan və Gürcüstan ərazisindəki bir sıra epiqrafik abidələr də ilk dəfə məhz M.Nemət tərəfindən elmi dövriyyə gətirilibdir. Ümumilikdə o, 2500-dən çox epiqrafik abidəni qeydə alıb, onları oxuyaraq elmi-tənqidi şərhini işləyib.

Sovet dönəmində Leninqradda (indiki Sankt-Peterburq) nəşr olunan məşhir "Epiqrafika Vostoka" jurnalının 1967-ci ilə aid 18-ci nömrəsində oxuyuruq: *"M.S.Nemətova Azərbaycan kitabələrini sistemli şəkildə toplayır və tədqiq edir... Məqalələrində o vaxtadək məlum olmayan, yəni, bilavasitə özünün aşkar etdiyi kitabələri nəşr etdirir... Hansı ki, nəşr edilmiş həmin*

*kitabələr filoloqlar, dilçilər, Azərbaycanın maddi mədəniyyət incəsənəti və bədii sənətkarlığı ilə məşğul olan mütəxəssislər üçün son dərəcədə dəyərli elmi mənbələrdir". Görkəmli sovet şərqşünas alimi V.A.Kraçkovskinin 48 il öncə Moskvada nəşr olunmuş "Tarixi ensiklopediya"*da yer alan məqaləsində son 200 ilin dünyanın tanınmış şərqşünas alimləri sırasında M.Nemətovanın adını hörmətlə xatırlaması da onun həqiqətən dünyaca məşhur şərqşünas alim olduğundan xəbər verir.

M.Nemətova 12 monoqrafiya, 200-dən çox elmi məqalə müəllifidir. O, rus dilində yazılmış altı cildlik "Azərbaycanın epiqrafik abidələr toplusu"nun müəllifidir. Əfsuslar olsun ki, bu son dərəcə mühüm elmi əhəmiyyəti olan bu fundamental toplunun AMEA rəhbərliyi tərəfindən indiyədək tərcümə edilərək ən azı Azərbaycan və ingilis dillərində nəşri təmin edilməyib. Təsəvvür edirsinizmi, həmin topluda yer alan materialların xeyli hissəsi indiki halda Azərbaycan alimləri üçün əlçatmaz olan Ermənistan və Gürcüstan ərazisindədir. Daha dəhşətlisi odur ki, professor M.Nemətovanın böyük zəhmət və fədakarlıq hesabına topladığı, qeydə aldığı, estampını çıxararaq nəşr etdiyi həmin epiqrafik abidələrin xeyli qismi ötən illərin məşəqqətləri fonunda sındırılıb, qağıdılıb, yox edilib. Allah qəni-qəni rəhmət eləsin! Əgər vaxtında o işləri görməsəydi, indi əlimiz hara çatasıydı?!

Milli Azərbaycan Tarixi Muzeyində professor M.Nemətovanın 100 illik yubileyinə həsr olunmuş tədbirdə mən M.Nemətin altı cildlik "Azərbaycanın epiqrafik abidələri toplusu" əsərinin gec də olsa Azərbaycan və ingilis dilinə tərcümə olunaraq yenidən nəşr olunması məsələsini qaldırdım. AMEA prezidenti İsa Həbibbəyliyə də söz verdi ki, AMEA rəhbərliyi bu məsələ ilə məşğul olacaq və toplu Azərbaycan və ingilis dillərinə tərcümə olunaraq yenidən nəşr ediləcəkdir. Təki, belə olsun!

**Cəfər QİYASI**

***Abidələrin Bərpası Elmi-tədqiqat Layihə İnstitutu ("Azərbərpa" ETLİ)***

***Şərq Ölkələrinin Beynəlxalq Memarlıq Akademiyasının həqiqi üzvü,***

***Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor***

***jafar.giyasi@gmail.com***

# BAKI QIZ QALASININ ÇEVRƏSİNDƏKİ ARXEOLOJİ ABİDƏLƏRİN MEMARLIQ ÖZƏLLİKLƏRİ



***Professor Cəfər Qiyasi***

Orta əsr Bakısının ən önəmli şəhərsalma qovşaqlarından biri Qız qalasının qapısı önündə olmuşdur. Ancaq buradakı çoxəsrlik memarlıq kompleksini təşkil edən bina və qurğuların çoxu zaman boyunca dağılıb aradan getmişdir. Bu səbəbdən qala önündəki ərazi XX yüzilin ikinci yarısından ciddi arxeoloji araşdırmalar obyektinə çevrilmişdir. Bakının ən əski tarixli tikililərinin orada aşkar edilməsi də həmin qovşağın şəhərsalma və memarlıq baxımından nə qədər yüksək dəyər daşıdığını nümayiş etdirir.

**Bazar meydanı:** Qız qalası qülləsinin qərb tərəfində ilk arxeoloji qazıntılar 1964-cü ildə, öncədən planlaşdırılmış şəkildə deyil, bir təsadüflə bağlı aparılmışdır. O zaman A.Zeynallı (Ticarət) küçəsi ilə Bəzzar məscidi önündən keçən 4-cü Böyük Qala döngəsinin itibucaq altında kəsişdiyi yerdə tikinti uçuqlarından sərt enişli bir təpəcik yaranmışdı. O yer üçün layihələndirilmiş kafe-kababxana binasının təpəciyin biçiminə uyğun üçbucaqlı planı vardı. Dəmir-beton və şüşədən tikiləcək həmin binanın özülü üçün 1964-cü ilin mart ayında yer qazılanda qalın torpaq qatından dəyərli bir abidənin –

şəhər meydanının qalıqları üzə çıxdı. Memarlıq toplumunun israrlı tələbi ilə kababxananın tikintisi dayandırıldı və orada Ö.İsmizadənin rəhbərliyi ilə arxeoloji araşdırmalar aparıldı. Qazıntılarda olduqca dağılmış durumda aşkar edilmiş abidə üç yandan sıratağlarla əhatə olunmuş meydanın qalıqları idi. Onun qərb tərəfində yeddi, şimal tərəfində üç tağ salamat qalmışdı. Cənub tərəfdəki tağları tikinti işlərini aparan ekskavator dağıtmışdı (3, s.343). Bərpa işləri aparılmaqla meydanın itmiş bölümlərinin böyük qismi geri qaytarıldı.

Bütünlüklə daşdan tikilmiş abidənin bucaqları kəsilmiş «П» şəkilli plan quruluşu var. Onun baş - qərb tərəfində 7, yan tərəflərindən şimalda 9, cənubda 11 tağ yerləşir. Meydanın uzun cənub tərəfinin yönü mövcud Hacı Qayib hamamına görə təyin edilmişdir. Qərb tərəfi 4-cü Böyük qala dalanının abrisinə uyğun götürülmüş, şimal tərəfi isə cənub tərəfə paralel tikilmişdir. Bu səbəbdən meydanın planı düzgün olmayan «П» şəkilli-trapesvarı biçim almışdır. Memar meydana daha nizamlı və baxımlı biçim vermək amacı ilə onun qapalı bölümünün bucaqlarını kəsmişdir. Bucaqlardakı birər tağlar o birilərindən biraz enlidir. Meydanı dövrələyən tağların hamısı yüksəkliyi 80 sm, dərinliyi 120 sm olan səki üzərinə qaldırılmışdır. Üç tərəfdən sıratağlı eyvana bənzəyən tağlı divarlarla qapadılmış məkanın dördüncü – şərq tərəfinin necəliyi bəlli olmadığından abidə yarımçıq bərpa edilmişdir. Qazıntı işlərini aparmış arxeoloqların fikrincə abidənin açıq tərəfi ilkin halında «tağlı divarla əhatə olunmuş və baş qapı bu divarda yerləşmişdir» (3, s.344). Sonrakı arxeoloji araşdırmalarda bu ehtimalı təsdiq edən faktlar aşkar edilmədi. Meydanın aydın əks olunduğu Bakının iki qədim rəsmlərində də (E.Kempfer – XVII əsr və S.Qmelin – XVIII əsr) onun bir tərəfinin açıq olduğu görünür. Rus mühəndislərinin XIX əsrdə – 1806, 1807, 1816, 1829, 1855 və s. illərdə çəkdikləri planlarda da «Rınok» - bazar adı ilə təqdim olunan həmin meydan «П» şəklində qeydə alınmışdır. Onlardan 1806-cı ildə işlənmiş «Baş plan» cizgisindən bəlli olur ki, meydan – bazarın Qız qalasına yönələn açıq tərəfində məscid binası yerləşirmiş (14).

Azərbaycanın orta əsr şəhərsalma təcrübəsində şəhər meydanının üç tərəfdən sıratağlarla qapadıldığı, bir tərəfinin isə açıq saxlanıldığı hallar olmuşdur. Bunun ən parlaq örnəyi, yenə də rus mühəndislərinin 1797-ci ildə çəkdiyi Gəncə şəhərinin planında əks olunmuş Bazar meydanıdır (11, s.125).

Səkilər yaxşı yonulmuş daşlarla üzlənmiş, tağlararxası divarlar isə yarıyonulmuş daşlardan hörülmüşdür. Yonulmuş daşlardan qurulan tağlar gələnəksəl sivri biçimli olub gözəl sütunlar üzərində dayanır. Bütöv daş blokdan yonulmuş sütunların altlığı – bazası planda bir tərəfi 26-30 sm arasında dəyişən kvadrat biçimlidir. Altlıq künclərdəki üçbucaqlı maili səthlərlə səkkizbucaqlıya çevrilir. Sütunun səkkizüzlü gövdəsi yuxarıda künclərdəki birər stalaktit ayrıntısı ilə yenidən kvadrat planlı sütun başlığına – kapitelə çevrilir. Sütunun genəl yüksəkliyi 1,38 metrdir. Kapitellərin üzü və yanları iki sıra dekorativ tağcıqlarla bəzədilmişdir. Sütun altlığı isə son dərəcədə sadə işlənmişdir. Bütövlükdə sütunlar mütənasib biçimli olub böyük ustalıqla işlənmişdir. Sütun başlıqları üzərinə qoyulmuş impostlar (tağaltı

daşlar) plastik biçimləri ilə tağ əyrisinə gözəl keçidi təmin etmişdir.

Sütunlararası məsafə 166 sm ilə 171 sm arasında dəyişir. Tağların orta yüksəkliyi 2,62 m civarındadır. Bucaqlardakı dörd sütunun biçimi biraz dəyişik olub yerinə və konstruktiv tələbə uyğun həll edilmişdir. Sıratağlı eyvanların tektonik quruluşu kifayət qədər ifadəlidir. Üç yandan eyvanla əhatə olunmuş meydan İçəri Şəhərə görə iri ölçülüdür: yan tərəfləri şimalda 18,60 m, cənubda 22,50 m, eni 16,20 metrdir. İndiki halda meydanın sahəsi 350,0 m2 civarındadır. İri ölçüləri və ifadəli plan-məkan quruluşu ilə memar və arxeoloqlarda böyük maraq doğarmış bu abidənin təyinatı və tikilmə tarixi haqqında dəyişik fikirləri əks etdirən məqalələr nəşr olunmuşdur.

Arxeoloji qazıntılar zamanı meydanın döşəməsi altından 50-dən artıq qəbir aşkar edilmişdir. Qəbirlərin çoxu, arxeoloqların yazdığına görə, müsəlman qaydasında – «istiqamətləri şimal-qərbdən cənub-qərbə doğru» yerləşir. Burada qəbirlər çox sıx yerləşdirilmiş, bəziləri üst-üstə düşmüş, bəzilərində isə 2-3 meyid basdırılmışdır. Arxeoloqların fikrincə bu hal «islamiyyətdə olan əmanət (müqəddəs) meyidlərin digər yerlərdən gətirilib burada dəfn edilməsini xatırladır» (3,s. 353). Ö.İsmizadə və H.Ciddi buna əsaslanaraq öncə həmin yerin İmamzadə kompleksinin bir hissəsi olduğu, sonra «müqəddəs məkan yeri daşıdığı» fikrini irəli sürmüş və «orada yalnız xüsusi şəxslərin basdırıldığını» vurğulamışlar (3,s. 355).

***Görkəmli epiqrafçı Məşədixanım Nemət arxeoloqların abidə haqqındakı fikirlərini biraz dəyişik şəkildə dəstəkləmişdir. O, meydan yaxınlığındakı kiçik bir məscid binasının kitabəsinə (1703-cü il) əsaslanaraq Qız qalası yanında aşkar edilmiş meydanın dini təyinatlı olduğunu bildirmiş və oraya uzaq yerlərdən gətirilmiş insan qalıqlarının dəfn olunduğu fəxri məzarlıq hesab etmişdir. Alimin fikrincə «Orta əsr Bakısında, Qız qalası önündə Şeyx Tahirin xanəgahı olmuşdur» və meydan həmin xanəgah kompleksinə daxil edilmişdir*** (10,s. 144). Qeyd edilməlidir ki, yalnız bir kitabədə adı çəkilən Şeyx Tahirin kimliyi, ictimai mövqei və nə zaman yaşadığı bəlli deyil.

Yazılı qaynaqlarda, tarixi sənədlərdə və el yaddaşında Qız qalasının yaxınlığında hər hansı bir «müqəddəs məkanın», xanəgahın, yaxud ziyarətgahın olması barədə heç bir bilgi yoxdur. Abidənin memarlıq-məkan quruluşu və şəhərsalma durumu da onun dini xarakter daşıması fikrini təsdiqləməyə heç bir əsas vermir. Memar-akademik Ə.Salamzadə abidə yenicə aşkar edilən zaman arxeoloqların ehtimalına öz münasibətini belə ifadə etmişdi: «… burada bizim «müqəddəs» dəfn yeri ilə rastlaşdığımızı təsdiq etmək ciddi səslənmir. Yaxşı bəllidir ki, müsəlman dininin normalarına görə, nəinki «müqəddəs yerlərdə», hətta adi şəraitdə də fərdi dəfn zəruridir. Bu sayaq kollektiv dəfnə yol verilməsinin təbii izahı o ola bilər ki, bu qəbirlər şəhər mühasirədə olan dövrdə əmələ gəlmişdir. Əhali qala divarlarından kənarda yerləşən qəbristanlıqlardan istifadə etməkdən məhrum olanda öldürülənləri və ölənləri şəhər içərisində basdırmağa məcbur olmuşdur və bunun üçün mövcud sərbəst ərazilərdən istifadə etmişlər» (11, s. 83).

Meydanın döşəməsi altında aşkar edilmiş qəbirlər bir-birinin üzərinə çıxacaq dərəcədə sıx yerləşməklə yanaşı, həm də dəyişik yönləri ilə diqqət çəkir. Onlardan dördünün yönü müsəlman qəbirlərinin tam əksinə – şimaldan – cənuba doğrudur. Bu faktı həmin qəbirlərin müsəlman olmayanlara aid olduğunu iddia edənlər var. O zaman belə bir təbii sual yaranır: müsəlmanların «müqəddəs yeri» olan bir məkanda «kafirlərin» dəfn olunmasına necə icazə verilmişdir.

Qəbirlərdən üçü tamamilə, dördü isə yarıyacan eyvan səkilərinin altında qalmışdır. Arxeoloqlar heç bir əsas olmadan «həmin qəbirlərin abidə tikiləndən sonra burada qazıldıqlarını və onunla bilavasitə əlaqədar olduğunu göstərən əlamətlərdən biridir» fikrini irəli sürmüşlər (3, s.345-346). Halbuki, bəzi qəbirlər təkcə səkilərin deyil, eləcə də tağ sütunlarının altına düşmüşdür. Belə bir durum arxeoloqların «qəbirlər tağlar mövcud olandan sonra yaranmışdır» (3, 345) fikrini təkzib edir. Bu dəlillər əksini göstərir – sıratağlı eyvanlar mövcud olan qəbirlərin üstündə tikilmişdir. Tağ divarlarının tikintisində məzar daşlarının işlədilməsi (3, s.318) faktı da şəhər mərkəzində məcburiyyət üzündən əmələ gəlmiş qəbristanlığın dinclik vaxtı dağıdılaraq meydana çevrildiyini sübut edir.

Qazıntılar zamanı, əvvəllər Bakının əski planlarından bəlli olan su kəməri xətləri – kəhrizlərlə yanaşı, şəhərin şimal hissəsindən gələn çirkab suları üçün başqa kanallar da sıratağların özüllərinin və meydanın altından aşkar edilmişdir (11, s.82). Eni 50 sm, dərinliyi 60-70 sm olan bu üstüörtülü kanalların bəzi yerlərindən də qəbir kimi istifadə edilmiş, «kanal iki tərəfdən bağlanaraq qəbir halına salınmışdır» (3,s. 346). Arxeoloji araşdırmalara görə qəbirlər kanaldan sonrakı dövrə aiddir. Bu faktlar da, həmin ərazidə dəfn işlərinin ekstremal şəraitdə aparıldığını və heç bir «müqəddəsliklə» bağlı olmadığının göstəriciləridir. Müqəddəs bir yerdən kanalizasiya xətlərinin keçməsi yolverilməz bir haldır.

Sıratağlı abidənin təyinatının və konfiqurasiyasının dəqiqləşdirilməsi məsələsində ən sanballı sənədlər rus topoqraflarının XVIII əsrin başlanğıcından XX yüzilin ilk rübunəcən – iki əsrdə çəkdikləri Bakı qalasının planlarıdır. Bu planların tarixi-memarlıq dəyəri daha çox onunla bəlli edilir ki, onlarda orta əsr Bakısının planlaşma quruluşu əks olunmaqla yanaşı, bir sıra önəmli memarlıq abidələrinin funksiyaları da göstərilmişdir. Həmin planların bir çoxunda haqqında bəhs edilən abidə, yeri və konfiqurasiyası düzgün verilməklə, «Rınok» (Bazar) adı ilə təqdim edilmişdir. Rus mütəxəssislərindən öncə – 1683-cü ildə alman E.Kempfer Bakının rəsm-planını çəkmiş və o rəsmdə üç yandan sıratağlarla əhatə olunmuş məkanı «der Mark» - Bazar meydanı adı ilə ayrıca qeydə almış və onun çevrəsində hər cür emalatxana, sənətkar və tacir dükanlarının olduğunu yazmışdır (11, s.88). Abidənin şəhərsalma durumu da onun dini deyil, ticarət funksiyalı məkan olduğunu çox aydın əks etdirir.

Xəzərsahili bir təpədə salınmış Bakı qala şəhərinin ən yüksək yerində – təpənin zirvəsində inzibati mərkəz – içqala, ən aşağı sahilyanı ərazisində isə ticarət mərkəzi yerləşirdi. Bakı XVI-XVII yüzillərdə Xəzər dənizində ən iri

limana çevrilmişdi və bu səbəbdən bəzi Avropalı səyyahlar Xəzəri «Bakı dənizi» adlandırırdı. Önəmli liman şəhəri olması, dəniz ticarətinin üstünlüyü Bakının ticarət mərkəzinin sahil xəttinə paralel uzanan küçə şəklində formalaşması ilə nəticələnmişdir. Bakının əski ticarət mərkəzinin əsas bölümü Cümə məscidi ilə Qız qalası arasında yerləşmişdi. Onun tərkibində bu tip komplekslər üçün səciyyəvi olan karvansaraylar, örtülü bazarlar, dükan sıraları, hamamlar, məscidlər, emalatxanalar və başqa ictimai binalar var idi. H.Sarabskinin yazdığına görə bu bazarın «Cümə məscidi» ətrafında olan hissəsi Aşağı bazar, Qız qalası yanında olan hissəsi isə Yuxarı bazar adlanırdı. Yuxarı bazarda Qız qalası yanından Çuxur karvansarayadək olan hissəsində üstüörtülü bazar yerləşirdi. Buradakı dükanlar üz-üzə olub üstüörtülü bir bina içinə salınmışdı. Burada böyük tacirlər, sərraflar yerləşirdi (6,s. 121).

Göründüyü kimi, Yuxarı bazar ticarət küçəsinin mərkəzi bölümü – orta əsr Bakısının baş ticarət qovşağı olmuşdur. Bu qovşağın kompozisiya mərkəzi üç yanı sıratağlı Bazar meydanı idi. Öz rəsmində E.Kempfer çox aydın təsvir etdiyi bu meydanın yazılı şərhini də vermişdir: «Şəhərin dağ yamacında yerləşən bölümü şəhərlilərin biganəliyi və kasıblığı üzündən boş qalmışdır. Onun ancaq aşağı bölümü məskunlaşmışdır. İctimai binalardan yalnız səkkizbucaqlı biçimdə olan, yonulmuş daşdan tikilmiş, iç həyəti çox gözəl sütunlu tağlarla dövrələnmiş karvansaray daha çox seçilir… İctimai meydan əzəmətli deyil, sadəcə nəhəng kvadrat meydan kimidir» (8, s. 252). Araşdırıcı L.Bretanitski E.Kemferin bu tək və çox qısa təsvirinə əsaslanaraq belə düzgün nəticəyə gəlmişdir ki, bu təsvir «əslində tikilinin təyinatı haqqında başlamış diskusiyalara son qoyub onun dini deyil, ictimai, özəlliklə ticarət tikililərinə (karvansaray, bazar) aid olduğunu təsdiqləyir» (9, s.407).

E.Kempfer Bazar meydanında sənətkarlar və tacirlərin emalatxanaları və dükanlarının olduğunu vurğulamışdır (8, s.252). Gerçəklən də Bazar meydanının çevrəsində – Yuxarı bazarda ticarət mərkəzi üçün zəruri olan dəyişik tipli və tarixli çoxlu bina yerləşirdi. Bunlardan bəlli olanları örtülü bazar, üç kvarsansaray, üç məscid, dükanlar, emalatxanalar, anbarlar, hamam, zorxana və başqa binalardır. Rus işğalından sonra meydan kompleksinin tərkibində olan məscid uçurularaq yerində rus kilsəsi, ikiqatlı (Çuxur) karvansaraya bitişik erməni kilsəsi inşa edilmişdir. Bununla da Yuxarı bazar dəyişiklikyə və ilk yabançılaşmaya məruz qalmışdır.

H.Sarabskinin şahidlik etdiyinə görə «Aşağı bazarda xırda alverçilər, baqqallar, dərzilər və papaqçılar, Yuxarı bazarda isə bəzzazlar (arşınmalçılar), xalçaçılar yerləşirdi (6, s.121). Yəni, Yuxarı bazar Bakının ticarət küçəsinin elitar bölümü idi və onun ən önəmli tikilisi üstüörtülü bazar sayılırdı. Bu səbəbdən Yuxarı bazarı Üstüörtülü bazar da adlandırırdılar. Sarabskinin yazdığına görə, «Yuxarı bazarın hamısı üstüörtülü deyildi. Onun yalnız bir hissəsi üstüörtülü idi. Bu hissə də Qız qalası yanından Çuxur karvansarayınacan olan hissə idi. Bazardakı dükanlar qarşı-qarşıya iki cərgə olub üstüörtülü bir bina içinə salınmışdı. Burada böyük tacirlər yerləşirdi» (6, s.121). Yuxarı bazarın önəmli qovşaqlarından birini Buxara və Multanı

Karvansaraları təşkil edirdi. Yuxarı bazarın qurtaracağında tikilmiş bu «binalara Qoşa karvansaray deyərdilər» (6, s. 121). Meydan Bakının qədim ticarət mərkəzinin Qoşa karvansaray, Üstüörtülü bazar, Meydan məscidi, Məktəb-məscid və Bəzzaz məscidi kimi önəmli binalarını öz çevrəsində birləşdirib çox dəyərli bir memarlıq kompleksi əmələ gətirmişdi. Əski Bakının iki əsas magistralının qovşağında yerləşən meydan canlı bir həyatla yaşayırdı və bütövlükdə şəhər həyatında az qala həlledici rol oynayırdı (9, s.407). Rəssam Ə.Rzaquliyevin bir qrafik rəsmində Qız qalası çevrəsindəki qaynar həyat çox dolğun əks olunmuşdur. Belə bir qaynar bazar həyatı olan yerdə İmamzadə, fəxri məzarlıq, ziyarətgah, yaxud xanəgahın olduğunu iddia etmək Ə.Salamzadənin deyimincə «ciddi səslənmir» (11, s.83).

Meydanın ticarət xarakteri onun memarlığında, özəlliklə sıratağlı səki – eyvanlarında da əks olunmuşdur. Dini binalardan məscid, tapınaq və mədrəsələrdə bu tip sıratağların sütunları bir qayda olaraq həyət döşəməsi üzərində qoyulurdu. Bunu Misir, Orta Asiya və Osmanlı məscidlərində aydın görmək olur. Belə enli sıratağların kölgələri isti çağlarda ən rahat ibadət və dincəlmə yerinə çevrilirdi. Bakı meydanında isə tağları saxlayan sütunlar yüksəkliyi 80 sm, yəni piştaxta hündürlüyündə olan səkilər üzərinə qaldırılmışdır. Belə yüksək və ensiz, piştaxtaya bənzəyən səkilər bazar meydanında açıq ticarətin təşkilində önəmli rol oynamışdır. Bu meydan qədim Bakının ticarət mərkəzinin üstüaçıq bazarı olmuşdur. Şirvanşahlar sarayı kompleksindəki Divanxanada da sıratağlı eyvanlar dini deyil, dünyəvi memarlığın tələblərinə və xarakterinə görə inşa edilmiş, tağlar alçaq səki üzərində qurulmuşdur. Divanxana səkiləri daha çox kölgələnəcək funksiyası daşıdığından bazar səki – piştaxtalarına görə daha enlidir.

Azərbaycanın orta əsr memarlığında ayrıca dayanan sütun və sütunlu tağlar əsasən interyerlərdə qalmışdır. Bazar meydanı Divanxanadan sonra Şirvanda bu günə gəlib çatmış sütunlu açıq sıratağları olan ikinci abidədir. Hər iki abidədə üstüaçıq geniş məkan üç tərəfdən səki üzərinə qaldırılmış tağlı eyvanlarla əhatə edilmişdir. Divanxana həyətində səkinin dərinliyi 200 sm, yüksəkliyi 55 sm civarında olduğu halda, Bazar meydanında uyğun olaraq 120 sm və 80 sm civarındadır. Bu iki nadir abidə Şirvan memarlığında, interyerdə olduğu kimi eksteryerlərdə də geniş işlədilən özəl biçimli sütun tipinin formalaşdığını göstərir. Tektonik məntiqi və bədii ifadəliliyi ilə diqqət çəkən bu sütun gəlişmiş kapitel, baza və səkkizüzlü gövdədən ibarətdir.

Divanxanadakı sütunlarda baza, gövdə və kapitelin hər biri ayrıca daş blokdan hazırlandıqdan sonra üst-üstə, yəqin ki, özəl millərlə bərkidilmişdir. Burada sütun gövdəsindən enli olan kvadrat planlı baza düz səthlərlə yuxarıya biraz qalxdıqdan sonra içəriyə doğru oyuq paxlava (romb) biçimli maili ayrıntılarla düzgün səkkiz bucaqlıya çevrilir. Bu altlığın üzərinə eyni ölçülü səkkizüzlü gövdə oturdulur. Gövdənin yuxarısı biraz genişlənərək sütun başlığının – kapitelin əsasına çevrilir. Bu əsas maili üçbucaq (yarımpaxlava) səthlərlə yuxarıya doğru genişlənərək bucaqları kəsilmiş kvadrata – düzgün olmayan səkkizbucaqlıya çevrilir. Bucaqlardakı birər stalaktit ayrıntısı

kapitelin yuxarısını kvadrat şəklə salır. Bu kvadrat əsasın üzərinə bərkidilmiş dalğavarı biçimli impostlar sivri tağlara incə keçid yaradır.

Bazar meydanı sütunlarında ümumi prinsiplər saxlansa da xeyli sadələşmə işi aparılmışdır. Bu sütunlarda baza və kapitellər sütunun gövdəsidən enli deyil. Bu səbəbdən sütun bütövlükdə bir daş blokdan yonulub düzəldilmişdir. Aşağıda kvadrat əsaslı bazanın küncləri maili üçbucaqlarla kəsilərək səkkizüzlü gövdəyə, gövdə isə yuxarıda küncləri genişləndirilərək kvadrat sonluqlu kapitelə çevrilir. Beləcə baza və kapitelin dörd üzü gövdənin dörd üzü ilə bir səthlidir. Bazar meydanında sütun kapitellərinin üz səthləri iki sıra dayaz tağcıqlarla dekorativ işlənmişdir. Divanxana və Bazar meydanında sütunlar vahid prinsiplər əsasında qurulmuşdur. Ancaq Divanxana sütunları daha həcmli olub daha anıtsal işlənmişdir.

**Tikilmə tarixi.** Meydanın tikilmə tarixi haqqında da arxeoloqlarla memarlar arasında fikir ayrılığı var. Arxeoloqlar öncə bu abidəni XII-XIII əsrlərə aid etmişdilər. Onlar sonra «abidənin XII-XIII əsrlərə aid mədəni təbəqə üzərində tikildiyini və XIV-XV əsrlərə aid olduğunu» söyləmişlər (3,s.353). Akademik Ə.Salamzadə də başlanğıcda meydan tağlarındakı sütunların Divanxana sütunlarına bənzərliyinə əsaslanaraq Qız qalası yanındakı bu abidəni XV əsrə aid etmişdi. Ancaq sonrakı araşdırmalarında o, daha geniş müqayisələr apararaq başqa nəticəyə gəlmişdir: «Təəssüf ki, arxeoloqların fikri tənqidə dözmür. Çünki onlar məzarları, qazıntılar zamanı bu qəbirlərdən aşkar edilmiş əlamətlərə görə tarixləndirmirlər, ancaq bu qəbirləri onların tikintinin özünə əsassız təyin etdikləri tarixə bağlayırlar. Halbuki onların işinin xarakterinə görə əksini gözləmək gərəkirdi» (11, s.83). Ə.Salamzadə baza və kapitellərinin formasına görə meydandakı tağ sütunlarının Divanxana sütunlarından çox kəskin fərqləndiyini və onların daha yaxın analoqunun Nardaran məscidinin (1663-cü il) sütunları olduğunu nəzərə alaraq, eləcə də Bakının bu bölümünün XVII əsrdəki genəl inkişafına istinad edərək belə bir nəticəyə gəlmişdir: «Beləliklə, abidənin XV əsrə aid ola bilməsi haqda öncə söylədiyimiz fikirdən fərqli olaraq, biz indi onun tarixinin XVII əsrə aid edilməsinə meyilliyik» (11, s.84).

Şirvanşahlar dövlətinin süqutu Bakının siyasi-iqtisadi mövqei ilə yanaşı memarlıq-şəhərsalma gəlişməsinə də ağır zərbə vurdu. XVI yüzildə Osmanlı-Səfəvi savaşlarında əldən-ələ keçən Bakı şəhərində geniş tikinti işlərinin aparılması üçün şərait olmamışdır. Yalnız 1607-ci ildə Bakı şəhəri yenidən Səfəvi dövlətinin tərkibinə daxil olduqdan sonra tikinti fəaliyyəti üçün əlverişli sabit durum yaranmışdır. Böyük Səfəvi sərkərdəsi Zülfüqar xan Qaramanlı 1607-ci ildə Şamaxı və Bakı osmanlılardan geri alınandan sonra Şirvan bəylərbəyi (Əmirül-üməra) təyin edilir. Tarixçi İskəndər Münşinin yazdığına görə, Zülfüqar xan işğaldan sonra Şamaxının qala divarlarını təmir etdirmiş, şəhər qalasını xəndəklərlə və qala ətrafı yeraltı yollarla daha da möhkəmləndirmişdir (10, s.139).

Bakı qalasının baş qapısı olan Şamaxı qapısı üzərində qalmış bir kitabədə bildirilir ki, ***«Bu alınmaz qalanı və dayanıqlı bina edilmiş divarı***

***tikməyi… dövlətin dayağı Zülfüqar xan əmr etmişdir, 1017-ci ildə»*** (10, s.74). Kitabədən göründüyü kimi Zülfüqar xan qısa müddətli hakimiyyəti dönəmində (onu 1611-ci ildə I Şah Abbas namərdcəsinə qətl etdirmişdir) Bakıda köklü yenidənqurma işləri aparmışdır. Onun vaxtında Bakının ticarət mərkəzi xeyli gəlişmiş və böyük ehtimalla Baxar meydanı ilə tamamlanmışdır. Bu meydan bütün memarlıq-məkan quruluşu ilə Səfəvilər çağının özəlliklərinin daşıyıcısıdır.

Səfəvilər dönəminin şəhərsalma təcrübəsinin ən böyük olayı şəhərlərdə çoxfunksiyalı və nizamlı mərkəzlərin formalaşmasıdır. Təbriz, Qəzvin və İsfahan kimi paytaxtların baş şəhər mərkəzində iri düzbucaqlı meydan öz çevrəsində dəyişik funksiyalı (inzibati, dini, ticarət və mədəni) mərkəzləri birləşdirirdi. Bu tip şəhər mərkəzləri Səfəvi dövləti ərazisindəki başqa önəmli şəhərlərdə də (Ərdəbil, Gəncə, Xoy və s.) kiçik miqyasda tətbiq edilmişdir (5, s.6). Təəssüf ki, İsfahan Şah meydanı istisna olmaqla, bu meydanlar dağılıb aradan getmiş, yazılı və qrafik təsvirləri, bəzilərinin isə fotoları və planları qalmışdır. Onların Bakı meydanı ilə müqayisəsi belə bir fikir irəli sürməyə imkan verir ki, Qız qalası önündəki sıratağlı meydan da Səfəvilər çağının, özəlliklə Zülfüqar xan dönəminin (1607-1611-ci illər) əsəridir. Bu meydan Bakı şəhərinin ölçüsünə uyğun kiçik sahəli olsa da, plan-məkan quruluşuna görə Səfəvilər dönəminin iri şəhər meydanlarına bənzədilmişdir.

Ərdəbilin Bazar meydanı haqqında ilk dolğun bilgi 1637-ci ildə bu şəhərdə olmuş alman Adam Olearinin rəsmi verir. Şəhər ortasında düzbucaqlı bu meydanı üç yandan dükanların sıra tağları, dördüncü yandan baş ticarət binası Qeysəriyyə qapayırdı. Qərbdəki Xiyaban isə meydanı dini mərkəzlə – Şeyx Səfi kompleksi ilə birləşdirirdi. Olearinin yazdığına görə, Ərdəbil Bazar meydanının uzunu 300, eni 150 addım olmuşdur.

I Şah Abbasın göstərişi ilə yeri dəyişmiş Gəncə şəhərinin mərkəzi meydanı da XVII əsrin başlanğıcında yaranmışdır. Düzgün olmayan dördbucaq şəkilli bu meydanın uzunluğu 320 m, şimal tərəfi 84,0 m, cənub tərəfi 54,0 m civarında olmuşdur (11,s. 126). Meydanın uzun tərəflərində birqatlı dükan tağları sıralanırdı. Meydanı şimaldan karvansaraya bənzər kvadrat planlı iri bazarı, cənubdan 1606-cı ildə tikilmiş Cümə məscidi qapayırdı. Bu iri kompleksdən bu günə Cümə məscidi və hamam qalmışdır. Gəncənin Bazar meydanı haqqında rus mühəndislərinin XVIII-XIX əsrlərdə çəkdikləri planlar, özəlliklə 1797-ci ildə çəkilmiş «Gəncə qalasının planı» (11,s. 125) və bir neçə foto müəyyən təsəvvür yaradır. Geniş sahəsi (≈22400m2) olan meydanın yanları boyunca sıra ilə dövrləmə bir cərgə ağac əkilmişdi.

Rus mütəxəssislərin 1827-ci ildə çəkdikləri «Xoy qalasının planı» cizgisi göstərir ki, Səfəvilərin şəhər meydanı gələnəyi kiçik şəhərlərdə də tətbiq edilmişdi (5, s. 6). Bakının Bazar meydanı kimi Xoy meydanı da kiçik olub məhdud funksiya daşımış, əsasən ticarət meydanı kimi fəaliyyət göstərmişdir. Bu meydan dörd tərəfdən dükanlar və ticarət tikililəri ilə dövrələndiyindən daha çox iri karvansaray həyətinə bənzəyirdi.

**Meydan məscidi.** Bakının Bazar meydanı plan-məkan quruluşuna görə, Ərdəbil və Gəncənin eyni adlı meydanlarına daha yaxın olmuşdur. Hər üç meydanın üç yanı qapalı «П» şəkilli planı olmuşdur. Onların dördüncü – açıq tərəfində monumental binalar, belə ki, Ərdəbil meydanında Qeysəriyyə, Gəncə meydanında Cümə məscidi, Bakı meydanında isə məscid binası ucalırdı. Bu da onların məkan quruluşuna yarımqapalı özəl biçim verirdi.

Bakı Bazar meydanının şərq tərəfində yerləşən məscid binası rus işğalından az sonra – 1815-ci ildə uçurularaq yerində taxtadan kiçik kilsə tikildi. Bəzi ehtimallara görə «rus kilsəsi Arta məbədi, sonra isə məscidin əski özülləri üzərində ucaldılmışdır» (7, s.71). Arta məbədi iddiası həm tarixi qaynaqlar, həm də arxeoloji araşdırmalar baxımından təsdiq edilməmişdir. Həmin taxta kilsə isə 1892-ci ildə yeni daş kilsə ilə əvəz edildi. Arxeoloji qazıntılarda kilsənin qalıqları üzə çıxsa da, rusların darmadağın etdiyi məscidin heç bir izi tapılmadı. Bu səbəbdən indi Meydan məscidinin yerini və biçimini dəqiqləşdirmək olmur. Rus topoqraflarının 1806 və 1807-ci illərdə çəkdikləri Bakı qalasının «Baş plan» cizgilərində «rınok» (bazar) adı ilə Bazar meydanı və onun önündəki məscidin sxematik planları da əks olunmuşdur. Akademik Ə.Salamzadə bu tip cizgilərə əsaslanaraq tərtib etdiyi ticarət küçəsinin planına həmin məscidi də daxil etmişdir (11, s. 84). Bu plana görə meydanla Qız qalası arasında yerləşən məscid Bakının dini memarlığında özəl tipoloji qrup təşkil edən asimmetrik quruluşlu, günbəzli məscidlərdən biri olmuşdur. Məscidin kvadrat planlı, dörd sütunlu ibadət salonuna şimal tərəfdən uzunsov düzbucaqlı vestibül birləşirmiş. Vestibülün şərq qurtaracağında dama qalxan pilləkən quraşdırılmışdı. Məscidin baş giriş qapısı vestibülün qərb divarında olub meydana yönəlirmiş. İbadət salonuna giriş qapısı isə vestibülün cənub divarının ortasında – mehrab tağçası ilə bir ox üzərində yerləşirdi.

Meydan məscidində ibadət salonunun mərkəzi bölümü sütunlu dörd tağ üzərində dayanan günbəzlə örtülmüşdü. O, plan-məkan quruluşuna görə Şirvanşahlar sarayı kompleksindəki Keyqubad məscidi (XIV əsr) və Bakı Xan Sarayı kompleksindəki Xan məscidi (XVII əsr) ilə eyni olmuşdur. Məscid Bazar meydanı ilə bir səviyyədə tikilib, üzərində Qız qalası yüksələn materik sal qayadan xeyli aşağıda yerləşirdi. Buna görə Meydan kimi onun məscidinin də XVII yüzilin başlarında tikildiyini və onların Bazar meydanı kompleksini formalaşdırdığını söyləmək olar.

**İşıq dirəyi.** Arxeoloqlar meydanının həndəsi mərkəzinə çox yaxın bir yerdə üçpilləli daş kürsünün ortasına qoyulmuş sütun aşkar etmişdilər. Daşdan yığılmış kürsünün pillələrinin aşağıdan yuxarıya doğru hündürlüyü 17,17 və 14 sm, pillələrin eni 34 və 32 sm, alt oturacağının iç diametri 2,58 m idi. Kürsü üstündəki bütöv daşdan yonulmuş sütun kvadrat baza (altlığı 54x54 sm, yüksəkliyi 20 sm) və səkkiz tinli gövdədən (iç diametri 46 sm, yüksəkliyi 110 sm) ibarət olmuşdur. Yox olub aradan getmiş bu dəyərli kiçik memarlıq formasının– sütununun zədələnmiş yuxarı hissəsi alovun təsirindən qırmızımtıl rəng almışdı. Bu yanıq izlərindən, sütunu aşkar etmiş arxeoloqların fikrincə «belə ehtimal etmək olar ki, ondan dini mərasim zamanı çıraq və ya şam

yandırmaq üçün istifadə edilmişdir» (3, s.352). Professor D.Axundov isə onu üstündəki neftlə dolu daş camda əbədi alov yanan od altarı hesab etmişdir (7, s.112). Arxeoloq F.İbrahimova görə, sütun üstündə «adi çıraq (yağ, ya da neft çırağı) olub, böyük sayda ziyarətçilər toplaşanda yandırılarmış» (1, s.73).

Pilləli kürsü üzərinə qoyulmuş və dik dayanan sütun XVII-XVIII yüzillərə aid mədəni təbəqədə aşkar olunmuşdur və meydanın döşəməsi altından tapılmış materiallar da XII-XIII əsrlərdən uzağa getmir (3, s.354). Belə bir yerdə islamdan öncəki çağın – atəşpərəstlik dönəminin abidəsinin qalması məntiqdən çox uzaqdır. Neftlə doldurulmuş daş cam içərisində «əbədi alov» əldə etmək də sadəcə mümkün deyil. Həm də meydanın ortasında ayrıca dayanan bu sütun səkkizüzlü biçiminə görə eyvanlardakı tağ sütunları ilə bir tiplidir. Ancaq çıraq altlığı olan sütunun diametri (46 sm) təyinatına görə tağ sütunlarından (diametrləri 26-30 sm) daha qalın götürülmüşdür. Tağ sütunları ilə çıraq sütununun yüksəklikləri də bir-birinə yaxındır. Genəl yüksəkliyi 1,30 m (tuğ sütunlarının yüksəkliyi 1,38 m) olan kürsülü sütun və onun üstündə yandırılan çıraq və ya məşəl də hər hansı dini mərasimlər üçün deyil, sadəcə meydanın gecələr işıqlandırılması amacı ilə quraşdırılmışdır. Miniatürlərdən bəllidir ki, orta əsr şəhərlərinin küçə və meydanlarında gecə işıqlanmasını təmin edən çıraq və məşəllər qoyulurdu. Bakının Bazar meydanının da tam ortasında bir işıq dirəyinin olması təbiidir. İşıq sütununun üstü yerdən 1,78 m yüksəlikdə olmuşdur. Çırağın əlçatan olması üçün çırağaltı sütun 48 sm yüksəklikdə pilləli kürsü üzərində qoyulmuşdur. Meydanın dünyəvi xarakterini sərgiləyən dəlillərdən biri də işıq dirəyinin cənub-qərbində divarı daşla hörülmüş dairəvi (diametri 65 sm) su quyusunun olmasıdır.

Bakının Bazar meydanı aşkar ediləndən az sonra əsaslı bərpa edildi. Yan səkilər, sıratağlı eyvanların çoxu yenidən quruldu və meydan əski şəhər quruluşundakı yerini tutdu. Ancaq bərpa işləri zamanı bir sıra dəyərli artefaktlar yox edildi. Bilinməyən səbəblərdən meydanın ortasındakı kürsülü işıq sütunu məhv olundu. Eyvan divarlarının hörgüsündəki qəbir daşları götürüldü və həmin divarlara kənardan gətirilmiş həcmli daş kitabələr quraşdırıldı. Meydanın döşəməsinə isə tarixililiyi ilə heç bir bağlılığı olmayan dekorativ biçim verildi. Bazar məscidinin qalıqlarının aşkar edilib konservasiya olunması üçün heç bir cəhd göstərilmədi. Ən ağrılısı isə meydanın çevrəsində arxeoloji qazıntıların yarımçıq qalmasıdır.

**Bakıda ən qədim divar hörgüsü:** Qız qalasının şimal tərəfində sonrakı illərdə aparılmış arxeoloji qazıntılarda da dəyişik tarixli yerləşgə və tikinti qalıqları üzə çıxarılmışdır. Onlardan tarixi baxımdan ən önəmlisi qala qülləsinə və kontrforsuna şimaldan birləşən və doğudan batıya doğru uzanan qala divarı fraqmentində qalan və şəhərin heç bir abidəsində tuş gəlinməyən özəl hörgü cərgələridir. Həmin divarın şimal səthinin lap aşağısında qalan iki hörgü cərgəsi iri daş blokların boyuna və dikinə düzümündən yaranmışdır. Qala divarının və bütünlükdə Qız qalasının daş hörgüsündən kəskin fərqlənən bu özəl hörgü də, təəssüflər olsun ki, arxeoloq və memarların diqqətindən yayınmışdır.

Erkən orta əsrlərdə (III-VII yüzillərdə) iri daş blokların divar üzlügündə boyuna və dikinə qoyulmasından yaradılan hörgü sistemi müdafiə tikililərində geniş tətbiq olunmuşdur. Bunun ən sanbğallı örnəkləri Güney Azərbaycanda Təxti Süleyman və Quzey Azərbaycanda Dərbənd qalalarıdır (IV-VII əsrlər). Qız qalasına bitişik divarda üzə çıxarılan hörgü qalığı həmin abidələrin divar hörgüsü ilə birtipli olub V-VI yüzillərdə Bakıda Xəzərsahili müdafiə sisteminə (Beşbarmaq, Gilgilçay və Dərbənd) daxil olan dayanıqlı müdafiə tikilisinin olduğuna şahidlik edir.

Dərbənd qalasının daş hörgüsündə orta ölçülər boyuna düzülən üzlük daşlarda 100x65 sm, dikinə qoyulmuş daşlarda 65x25 sm civarındadır (12, 163). Təxti Süleymanda düzbucaqlı hörgü daşlarının ölçüləri Dərbənd hörgüsünə çox yaxındır: yastısına qoyulan daşların hündürlüyü 60-65 sm, uzunu 80-130 sm, dikinə qoyulmuq daşların eni 20-30 sm arasında dəyişir (13, 55). Bu üzlük daşları yaxşı yonulub hörgüyə böyük ustalıqla daxil edilmişdir. Oxşar Bakı hörgüsünün yüksəkliyi 61 sm olan iki cərgəsindəki boyuna daşların uzunluğu 61-80 sm arasında dəyişir. Eyni yüksəkliyi (61 sm) olan dikinə daşların eni isə 13-24 sm arasındadır. Divarların qalan hissələri qalınlığı 21-34 sm arasında dəyişən adi daş cərgələri ilə hörülmüşdür. Hörgüdə üzlük daşların boyuna və dikinə düzülüşü qala divarlarının dayanıqlığını artırmaqla yanaşı onların dış səthlərinə daha cəlbedici özəl görünüş verirdi.

Qız qalasına bitişik divar Bakının şəhər qala divarlarından qalın olması və iki bürcünün biçimi ilə də seçilir. Şəhər qala divarlarındakı bütün bürclər planda yarımdairəvi olduğu halda bu divar fraqmentinin aşağısında yerləşən iki bürc divardan xeyli irəli çıxarılandan sonra ucları yuvarlaq şəklə salınmışdır. Bu özəllyinə görə həmin bürclər Təxti Süleyman qala şəhərin bürcləri ilə eynidir. Bu da həmin divarın özülünün şəhər qalasından xeyli öncə qoyulduğu fikrini doğurur. Sahilə doğru enişi olan iri sal qaya üzərində V-VI əsrlərdə tikilmiş bu qala divarı XII yüzildə ucaldılmış Qız qalasının yerini, özəlliklə də onun dayaq divarının – kontrforsunun yönünü bəlli etmişdir. Özülü V-VI əsrlərdə qoyulduğu güman edilən divar qalığının bir ucu Qız qalasının silindrik gövdəsinin şimal tərəfində qurtarırdı. Keçən əsrin 70-ci illərində konservasiya – yenidənqurma işləri aparılarkən həmin divar qərbə doğru uzadılmış və ona dairəvi bürc əlavə edilmişdir.

Şirvanda, özəlliklə Abşeronda anıtsal binaların qaya üzərində ucaldılmasının olduqca qədim və zəngin gələnəkləri olmuşdur. Qız qalasına bitişik qala divarı da, görünür dəniz sahilində önəmli strateji mövqe tutan sal qayanın üzərində tikilmiş yığcam, ancaq anıtsal quruluşlu bir qalanın bu günəcən qalan parçasıdır. Həmin qala, yəqin ki, V-VI yüzillərdə Xəzərsahili böyük müdafiə sistemi yarardılarkən ucaldılan ilk müdafiə tikililərindən olmuşdur. Qalmış divar qayanın şimal tərəfi boyunca tikildiyindən bəzi yerlərində qaya çıxıntıları yonularaq divar hörgüsünə daxil edilmişdir. Divarın qərb qurtaracığındakı dairəvi bürcdə cənuba yönələn divarın izləri qalmışdır. Qalanın o biri divarlarının yönünü və yerini, eləcə də Bakının ən qədim qalasının ölçülərini və biçimini indi bəlli etmək olmur. Böyük ehtimalla Bakı

qala şəhərinin özülü bu qaya üzərində atılmış, gəlişməsi bu qayaüstü qayadan başlamışdır.

**Adsız məscid.** Arxeoloq F.İbrahimovun rəhbərliyi ilə 1989-1998-ci illərdə aparılmış qazıntılarda Qız qalası ilə Bazar meydanı arasında dəyişik tarixli və qarışıq planlı otaq və yerləşəyələr qrupu aşkar edilmişdir. Onlardan ən gözəçarpanı Qız qalasının qapısına yaxın yerləşən beş otaqdır (1,s.74). Bu otaqlar qrupunda iç-içə yerləşən iki otaq mərkəzi yer tutur. Otaqlardan böyüyünün 25,8 m2, kiçiyinin 11,16 m2 sahəsi vardır. Böyük otağın azacıq qərbə meyilli cənub divarının ortasına yaxın yerdə sivri tağ biçimli kiçik mehrab qurulmuşdur. Lay daşdan yonulmuş mehrab iç-içə yerləşən iki dayaz sivri tağçadan ibarətdir. ***Kiçik mehrab tağçasında çox saya kufi xətti ilə boyaboy «Əl-mülk Allah» - «Mülk (hakimiyyət) Allahındır» sözləri yazılmışdır. Mehrabın kiçik ölçüsünə görə iri və biraz miqyasız görünən yazını M.Nemət paleoqrafik özəlliklərinə dayanaraq X əsrə aid etmişdir*** (1, s.75). Bu tarix təsdiqlənərsə iki otaqlı bu Adsız məscid Bakının indiyədək qalmış ən əski məscidi sayıla bilər. Qeyd edilməsi gərəkir ki, eyni yığcam mətnli daş kitabə İçərişəhərdəki Aşur məscidində (1171-ci il) də, ancaq mehrabda deyil, ticarət küçəsinə yönəlmiş fasadda quraşdırılmışdır (10, 39).

Adsız məscidin plan quruluşu çox sadə, memarlıq həlli bəsitdir. Divarları yonulmuş, ancaq cilalanmamış əhəng daşından hörülüb tağbəndlə örtülən otaqların pəncərəsi yoxdur. Onun lay divarlarında üz-üzə iki açırım – giriş qapısı və kiçik otağın qapısı – qoyulmuşdur. İnteryerdə böyük otağın – ibadət yerləşgəsinin döşəməsi səviyyəsində qurulan və iç məkana görə kiçik görünən mehrabdan biraz aralı, divarın kiçik otağa yaxın yerində tağça vardır (eni 43 sm, yüksəkliyi 42 sm). Döşəmədən biraz yüksəkdə yerləşən tağçanın yarımgünbəz biçimli üst bölümü çiyinli tağ şəklində bir daşdan yonulmuşdur. Məscidin bütün ayrıntılarında ibtidailik, qədimlik duyulur.

Məscidin qapı açırımlarının hər ikisi düzbucaqlı biçimdədir. Ancaq on əsri yola salmış bir abidənin dəfələrlə təmirə – dəyişikliyə məruz qaldığı nəzərə alınanda, qapıların, özəlliklə də giriş qapısının ilkin biçiminin neçəliyi cavabsız qalır (1, s.75). Ölçü kiçikliyi, interyerin qaranlığı, memarlıq ayrıntılarının, özəlliklə də mehrab kompozisiyasının sayalığı bu tikilinin arxaikliyini əks etdirir. Bu sadəlik – sayalılıq eləcə də, o zaman ərazisi kiçik, əhalisi az olan Bakıda məscid tikintisi gələnəyinin başlanğıc mərhələdə olması və hələ tam formalaşmaması ilə bağlıdır. Abidəni aşkar edib ilk kərə araşdırmış arxeoloq F.İbrahimovun ehtimalına görə «… bu məsciddə görkəmli Azərbaycan sufisi, filosof və şair Baba Kuhi Bakuvi xidmət etmişdir» (1, s. 75). Baba Kuhi (948-1050) Bakıda anadan olub bir müddət İranın Nişapur şəhərində, sonra Şirazda yaşayıb, orada da vəfat etmiş böyük mütəfəkkirdir. Adsız məscid onun şimal divarına bitişik üç otaqla birlikdə iri bir binanın qalıqlarına bənzəyir. Bu otaqlarla məscid otaqlarının ortaq divarının olması, özəlliklə döşəmələrinin bir səviyyədə yerləşməsi onların hamısının bir vaxtda tikildiyini və eyni bir binaya aid olduqlarını göstərir. Məscidin ibadət otağının cənub divarının qərb qurtaracağında dışarıya – qərbə yönəlmiş, biçimi və təyinatı bəlli edilməmiş bir

keçid yolu da aşkar edilmişdir. Ola bilsin ki, həmin binanın qərb tərəfində də vaxtilə yerləşgə, ya da bir qurğu (Sınıq qala məscidinin birinci qatında olan quyu kimi) olmuşdur.

**Məbəd.** Adsız məscidin cənub divarına bitişik bir bina qalıqları dəyişik plan-məkan quruluşuna görə daha çox diqqət çəkir. Qız qalasının qapısı ilə üz-üzə yerləşən bu binanın əsas bölümü düzbucaq planlı salona bənzəyir. Bu salon da, məscidin mehrablı otağı kimi şərqdən qərbə doğru uzanır. Yan divarlarda salonu örtən tağbəndin dabanları qalmışdır. Qərb tərəfi tamamilə dağıdılmış salona şərqdən altarabənzər alkov birləşir. Alkovun şimal tərəfini düzbucaqlı bir otaq tutduğu halda, şərq divarının ortasındakı bir açırım planda yarımdairəvi biçimi olan – absidəbənzər bir yerləşgəyə açılır. Yəqin ki, alkovun cənub tərəfində də bir otaq olmuş və sonradan dağıdılaraq hara çıxdığı bəlli olmayan daş pilləkənlə əvəz edilmişdir. Alkovun salona yönələn tinlərində daşda yonulmuş çiyinli dekorativ tağçalar qoyulmuş, yan divarlarında stalaktit karnizlər quraşdırılmışdır. Adsız məscidin interyerindəki çiyinli tağça sivri tağlıdır. Ona bitişik binadakı tağçalar da çiyinlidir. Ancaq onların tağları yarımdairəvi biçimlidir. Onun stalaktitləri də son dərəcə sadə biçimli olub, bu memarlıq ayrıntısının Şirvan bölgəsində indilik ən əski örnəyidir.

Böyük ehtimalla haqqında bəhs olunan binanın ox simmetriyalı planı olmuş və onun giriş qapısı uçurulmuş qərb divarında yerləşirmiş. Cəlbedici plan-məkan quruluşu və dekorativ ayrıntıları onun önəmli ictimai bina, ola bilsin ki, məbəd olduğunu deməyə imkan verir. Genəl plan quruluşu, memarlıq ayrıntılarının formaca bəsitliyi bu binanın məsciddən öncə – bizim fikrimizcə IX əsrdə tikildiyini göstərir. Görünür sonrakı dönəmlərdə öz ilkin funksiyasının itirmiş məbədin qərb tərəfində yeni bina, ola bilsin ki, Bazar məscidi tikilmişdir. O zaman məbədin yeni finksiya almış salonunun qərbində onun memarlığı ilə uyuşmayan iki dərin sivri taxça quraşdırılmışdır. Həmin binanın plan-məkan quruluşunun və tikilmə tarixinin dəqiqləşdirilməsi üçün onun çevrəsində arxeoloji qazıntılar aparılması zəruridir. Bu binadan qərb tərəfdə rusların 1892-ci ildə tikdikləri və 1936-cı ildə dağıdılmış kiçik kilsənin (çasovnya) qalıqları üzə çıxarılmışdır. Xaçvarı planı olan kilsə qalın divarları ilə qonşu tikililərdən seçilir. Qalmış fotolar kilsənin dış memarlıq özəllikləri haqqında dolğun təsəvvür yaradır.

Qız qalası önündə başqa tikinti qalıqları da aşkar edilib konservləşdirilmişdir. Ancaq onlar çox fraqmental və dağılmış olduqlarından onların memarlıq özəllikləri və təyinatları haqqında fikir söyləmək çətin məsələdir. Bu ərazidə arxeoloji qazıntılar bir təsadüf nəticəsində başlamış və davam etdirilmişdir. Həmin qazıntılarda əldə edilmiş maddi mədəniyyət örnəkləri və üzə çıxarılmış çoxsaylı bina qalıqları Bakı şəhərinin tarixi, özəlliklə memarlıq gəlişməsi ilə bağlı olduqca dəyərli araşdırmalar aparılmasına imkan vermişdir. Nə yazıqlar ki, Qız qalası çevrəsində aparılan arxeoloji araşdırmalr yarımçıq qalmışdır. Bakının tarixi özəyinin olduqca önəmli mərkəzlərindən olmuş bu ərazinin üzə çıxarılmamış mədəni qatlarında

hələ də çoxlu sirlər saxlanmaqdadır. O sirlərin aydınlaşdırılması üçün orada, özəlliklə Qız qalası ilə Çuxur karvansaray arasındakı sahədə arxeoloji qazıntı işlərinin aparılması olduqca önəmli və zəruri problemdir.

**Sonuc.** Qız qalası çevrəsində 1964-cü ildən başlayan arxeoloji araşdırmalarda dəyişik tarixi dönəmlərin bir sıra bina tipləri aşkar edilmişdir. Bu kiçik ərazidə orta əsr Bakısının ən qədim bina qalıqları üzə çıxarılmışdır. Artefaktlar göstərmişdir ki, Qız qalası önündə memarlıq-tikinti təcrübəsinin V əsrdən XIX əsrin sonlarınacan davam edən min beş yüz ildən artıq tarixi olmuşdur. Bakının daş memarlığının təməli bu ərazidə atılmış, bəzi memarlıq tiplərinin qəlişməsi buradan başlamışdır. Orta əsr Bakısının baş ticarət qovşağı Qız qalası önündə formalaşmışdır. Bu kompleksin bina və tikililərinin çoxu yüzillər boyu dağıntılara uğramışdır. Bu səbəbdən həmin ərazi 1969-cu ildən önəmli arxeoloji obyektə çevrilmişdir. Arxeoloqlar orada ən qədim divar hörgüsünü (V-VI əsrlər), bir ictimai binanın (IX əsr), Bakının ən əski məscidinin (X əsr), üç yandan sıratağlı eyvanlarla əhatə olunmuş Bazar meydanının (XVII əsr), cıraq sütununun (XVII əsr), kiçik kilsənin (XIX əsr) və s. qalıqlarını aşkar etmişlər. Qədim Bakının Bazar meydanını XIX yüzilin sonlarınacan mərkəzi günbəzli bir məscid qərb tərəfdən qapayırdı. Qız qalası önündə yerlə.ən dördbucaqlı meydan ətrafında formalaşmış Bakının əski ticarət mərkəzi öz planlaşma quruluşuna görə Azərbaycanın Səfəvilər dönəminin şəhər mərkəzləri ilə bir olmuşdur. Bu gün İçəri Şəhərin ən önəmli problemlərindən biri Qız qalası çevrəsindəki arxeoloji qazıntıların davam etdirilib tamamlanmasıdır.

### Seçilmiş qaynaqlar


1. İbrahimov F. Bakıda Baba Kuhinin məscidi tapıldı? Azərbaycan İrs, №2-3, 1999, s.72-75.

2. İbrahimov K.F. İçərişəhər. Bakı, 2006.

3. İsmizadə Ö.Ş., Ciddi H.Ə. Bakı Qız qalası yaxınlığında aşkar edilmiş abidə haqqında. Azərbaycan maddi mədəniyyəti. VII cild, 1973, s.343-357.

4. İsmizadə Ö., Ciddi H., Məmmədzadə K. Qız qalası yaxınlığında aşkar edilmiş abidə. Elm və həyat, №1, 1964, s.13-14.

5. Qiyasi C.Ə. Səfəvi paytaxtlarının baş meydanları. «İncəsənət» qəzeti, 29 dekabr, 1992, s.6.

6. Sarabski H. Köhnə Bakı. Bakı, 1982.

7. Ахундов Д.А. Архитектура древнего и раннесредневекового Азербайджана. Баку, 1986.

8. Ашурбейли С.Б. История города Баку. Баку, 1993.

9. Бретаницкий Л.С. Зодчество Азербайджана XII-XV вв. и его место в архитектуре Переднего Востока. Москва, 1966.

10. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Том I, Баку, 1991.

11. Саламзаде А.В. Новые материалы по истории Азербайджанской архитектуры. Исследования и материалы по архитектуре и искусству Азербайджана. Баку, 1966, с.71-89.

12. Хан Магомедов. Дербендская крепость и Даг-бары. Москва, 2002.

13. Henninq H., Naumann R. Taxti-Suleiman. Tehran, 1373 (farsca)

14. Mərkəzi Dövlət Hərbi Tarix Arxivi (ЦГВИА), planlar. Moskva.

*ŞƏKİLLƏR:*























Ataşpərəstlik dininə aid olan səkkizgüşəli, üçpilləli səki və səkkizgüşəli sütun.1964-cü ildə arxeoloji qazıntılar nəticəsində aşkar olunmuşdur. Bu günə kimi qorunub saxlanılmamışdır.
64-cü ildə sıratağlı abidənin ərazisindəki qazıntı sahəsi.
əşpərəstlik dininə aid olan səkkizgüşəli, üçpilləli səki və
kizgüşəli sütunun aşkar olduğu yer aydın görünür)






1964-cü İLDƏ AŞKAR OLUNMUŞ
SIRATAĞLI ABİDƏNİN
PLAN QURULUŞU

**Hidayət CƏFƏROV**

***AMEA Arxeologiya və Antropologiya İnstitutu,***

***Tarix elmləri doktoru, pofessor***

**hidayet-jafar@mail.ru**

## İSTEDADLI ALİM, TARİXÇİ– LİNQİVİST, ŞAİR, BÖYÜK VƏTƏNPƏRVƏR




***Pofessor Hidayət Cəfərov***

Anadan olmasının yüz illiyini qeyd etdiyimiz, AMEA müxbir üzvü, tarix elmləri doktoru, professor Məşədixanim Nemət Azərbaycan Epiqrafika elminin banilərindən biri olmaqla, Əjdər Ələsgərzadə ilə birlikdə Azərbaycanda Epiqrafika məktəbini yaratmışdır. İndi bu məktəbin davamçəları elmi sahədə fəaliyyətlərini uğurla davam etdirir, öz məktəblərini yaradırlar.

Mən Məşədixanım Neməti 1970- ci ildən tanıyırdım. Gülər üz, düz, gözəl qamətli, şux baxışlı, isıqlı çöhrəli, güclü auraya malik bu xanım, xatun qadın başqalarından bir cox parametrləri ilə seçilirdi. Dostlarım Əmmar və Ağaqasıma belə xanım alimlə birgə çalışmaqlarına görə qibtə edirdik. Nitqi rəvan, diksiyası yetərli, elmi müddəaları məntiqli, fikri başa düşülən, arqumentləri tutarlı idi. Onun elmi araşdırmalarının nəticəsini əks etdirən, özündən sonra bizə miras qoyduğu altı cildlik “Azərbaycan epiqrafik abidələr toplusu” təkcə Azərbaycan deyil, bütün Qafqaz ölkələri üçün stolüstü kitablardı.

Biz arxeoloqlar müəyyən mənada elmin müxtəlif sahələri ilə bu və ya digər dərəcədə təmasda oluruq. Lakin epiqrafika yeganə predmetdir ki, içi mən qarışıq, bu sahəyə bilavasitə müdaxilə edə bilmirik. Bu sahə xüsusi istedad, bilik, bacarıq tələb edir. Odur ki, mən Məşədixanim Nemətin bu sahə ilə bağlı

yaradıcılığını təhlil etməkdən çəkinirəm.

Mən onun necə istedadı alim oımaqla yanaşı, poeziya vurğunu olmasını, elmi yaradıcılıqla seir aləmini üzvü surətdə ahəngdar birləşdirməsini vurğulamağı özümə borc bilirəm.

Bu baxımdan onun 2001- ci ildə işıq üzü görmüş poeziya toplusunu misal gətirmək istərdim (Hicran dərdi). Orada Məşədixanımın qələmindən çıxmış qəzəllər, bayatılar, ithaflar və s. yer alıb. Mənim diqqətimi onun alim qələminin poeziya aləmində də sərbəst çövlan etməsi cəlb etdi. Məlum obyektiv səbəblər üzündən Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində 20 ilə yaxın müddətdə arxeoloqlar çöl-tədqiqat işlərini apara bilmirdi. Doğrudur, Bakı-Ceyhan neft kəmərinin çəkilişi ilə bağlı olaraq bu iş qərb zonasında bir qədər canlanmışdı. Lakin qalan ərazilərdə arxeoloji tədqiqatlar tam dayandırılmışdır. Xüsusilə 1990 – cı illərdə bu ağrılı prosesə seyriçi kimi deyil, əsil alim qayğısı ilə reaksiya verən Məşədixanım urək yanğısı ilə, özüdə daxil olmaqla arxeoloq-epiqrafik alimlərin çöl tədqiqatlarından kənarda qalmasını poetik notlarla ictimaiyyətə çatdırmışdı. Məşədixanim dühası erməni yağlarının Qarabaı işğal etməsi, abidələri vəhşicəsinə talan etməsini, dünya ictimaiyyətinin buna göz yummasını alim qləminin süzgəcindən keçirmişdir.

Arxeoloqların arxivi, məxəzləri müxtəlif səpgili abidələrdir. Çöl – tədqiqatları aparmadan onları üzə çıxarmaq mümkün deyil. Belə imkanlardan mərhum olmuşların əhvar-ruhiyyəsini heç kəs Məşədixanim kimi əks etdirə bilməzdi. O. Bakıda Fərhadın, Qəbələdə İlyasın, Beyləqanda Qaranın, Naxçıvanda Vəlinin, Qobustanda Cəfərqulu və Firuzənin, Şabranda Rəşidin, Şamaxıda Aləmin və Fazilin, Məşədixanımın bütün Azərbaycanda, İdeal və Hidayətin Qarabağda yarımçıq qalmış çöl-tədqiqatlarının nə vaxtsa yenidən davam etdirilməsinə inamını qətiyyətlə təlqin etdirmişdir.

***Qarabağ nisgilli alim Hidayət,***

***Allah özü etsin səni Hidayət.***

***Qarabağdan çəkiləcək duman, çən,***

***Şuşadan tez gəlsin səsin Hidayət.***

Və yaxud,

***Susursan, boran qəmlisən İdeal,***

***Qarabağ, Şuşadır sənə ideal.***

***İnşallah, az qalıb, çəkilər duman,***

***Yuxuların olacaq çin İdeal.***

Onun poeziyasında Qarabağ niskilinə olkə başçısının rəhbərliyi, yaranmaqda olan güclü ordumuzun şücaəti sayəsində son qoyulacağına

nikbinlik heyrətamizdir. O sanki iyirimi il qabağı görərək işgala son qoyulacağına, ərazi bütövlüyünün bərpa olunacaşağına, Azərbaycan bayrağının Qarabağın hər guşəsində ucalacağına dərin inamını poeziyanən dili ilə dərin inamla əks etdirmişdir.

Öz tədqiqatları ilə erməni alimlərinin heç bir elmi arqumentə söykənməyən yalançı müddəalarını elmi dəlillərlə sübut edən alim bu məsələni də poetik dildə elmi ictimaiyyətə və geniş oxucu kütləsinə şatdıra bilmişdir:

***Sübut etdi məzarlığı Zəngəzurun Urud kəndi,***

***Əcdadımız xristiyan, alban buda həm məskəndi.***

***Məzar daşlarında qalmış kitabələr və təsvirlər***

***Göstərdi, onlar türkləşdi və islamı qəbul etdi.***

Gözün aydın böyük alim, Ali Baş Komandanın rəhbərliyi, Muzəffər ordumuzun gücü sayəsində Qarabağımız azad oldu, ərazü bütövlüyü bərpa olundu. İndi arxeoloqlarımız Qabağda arxeoloji tədqiqatları uğurla davam etdirirlər. Böyük alimin arzuları çin oldu.

**Prof. Dr. Cengiz ALYILMAZ**

***Türkiye Cumhuruyeti, Bursa Uludağ Üniversitesi***

***Akademik Veri Yönetim Sistemi , Fen-Edebiyat Fakültesi,***

***Türk Dili Ve Edebiyatı, Eski Türk Dili Anabilim Dalı***

calyilmaz@uludag.edu.tr

İş telefonu:+90 022 429 4188

## PROF. DR. MEŞEDİHANIM Nİ'MET'İN 100. YAŞI DOLAYISIYLA



***Professor Cengiz Alyılmaz***

Türkiye Cumhuriyeti Devleti'nin Bursa Uludağ Üniversitesi Fen Edebiyat Fakültesi Türk Dili ve Edebiyatı Bölümü Eski Türk Dili Ana Bilim Dalı Başkanı Prof. Dr. Cengiz ALYILMAZ. Bugün sizlerle Hocam Prof. Dr. Meşedihanım Nİ'MET'in 100. yaşı dolayısıyla bir aradayız. Belki sizlerden uzaktayım ama gönlüm sizlerle birlikte.

Hocam Meşedihanım Nİ'MET'i anmak, ona vefa göstermek hakikaten faziletli ve vefalı insanların işi. Vefa en kutsal değerdir. Vefası olmayanın da kutsalı olmaz. Hocam Meşedihanım Nİ'MET, çok vefalıydı; vefaya da vefalı insanlara da büyük değer verirdi. Onun için de kızının adını ''Vefa'' koymuştu. Sizler de bu vefayı gösterdiniz; Hocam'ı anma toplantısı düzenlediniz; başta Naile Hanım ve Habibe Hanım olmak üzere sizlere de çok teşekkür ediyorum...



*fotoğraf 1. Hocam Meşedihanım Nİ'MET ve ben*

Ben, Hocamı 1989 yılında tanıdım (fotoğraf 1). O zamanlar bazı seçkin ve saygın kimseler Türkiye'ye, Erzurum'a gelip gidiyorlardı. Kendileriyle görüştüğümüzde çok güzel sohbetlerimiz olurdu. Ben onlara *"Azerbaycan'a gelmeyi ve Meşedihanım Nİ'MET ile çalışmayı istiyorum"* diyordum. Onlar benim Meşedihanım Nİ'MET'in adını biliyor ve gıyaben de olsa tanıyor olmama çok şaşırıyorlardı. Ben o yıllarda Hocam Prof. Dr. Efrasiyap GEMALMAZ'dan dolayı Rusya'da/ eksi Sovyetler Birliği coğrafyasında yapılan epigrafi/ epigrafya ile ilgili çalışmaları ilgiyle takip ediyordum. Bu sebeple Sovyetler Birliği Dönemi'nde özellikle Arap harfli yazıtlarda (Arapça ve Farsça yazıtlarda) en seçkin ve saygın bilim insanının başında Meşedihanım Nİ'MET'in geldiğini biliyordum. Onun muhteşem eserleri vardı. Kendisiyle muhakkak tanışmalıydım ve görüşmeliydim. 1989 yılında Sovyetler Birliği henüz dağılmamıştı. Hocam'la yazıştık, ona mektuplar yazdım. Sonra o bana mektuplar yazdı ve beni Azerbaycan'a davet etti. Ben Azerbaycan Bilimler Akademisi'nde Epigrafya Bölümü'nde, Hocam ve onun öğrencileri ile tanıştım, çalıştım. Yıllarca Azerbaycan'a gidip geldim. O da Türkiye'ye gidip geldi ( fotoğraf 2).



*fotoğraf 2. Hocam Meşedihanım Nİ'MET, ben ve eşim Semra Alyılmaz*

Arazide çalışıyordu ve nerede bir anıt, nerede bir yazıt varsa hep oralara gidiyordu. Türkiye'ye geldiğinde de gezmek için güzel yerler vardı, tatil yerleri, sahiller, alışveriş merkezleri… Ama o hep tarihî yerleri, mezarlıkları, müzeleri tercih ediyordu. Yazıtları, mezar taşlarını artık gözüyle değil, parmağıyla okuyacak hâle gelmişti. Bana da onu öneriyordu. *"Gözünle değil; parmağınla oku, göz insanı aldatır ama parmak aldatmaz. Ne zaman ki tereddüt yaşarsan işte o zaman dön ve taşa / yazıta bak.''* derdi.

Hocam eşsiz eserlerini ciltler hâlinde yayımladı. Epigrafyada aşılmayacak eserler ortaya koydu. Onun eserleri gerçekten onu hem zirveye taşıdı hem de epigraflar / yazıt bilimciler için yol gösterici oldu. Otuzu aşkın kitabı var; bende tamamı var ancak ben şimdi sadece birkaç tanesini elimde tutuyorum. O bana diyordu ki "Çingiz, özümüzle heç ne aparmayacağıh ay balam. Gerek ki biz bunları / bildiklerimizi milletimize gaytarah, ele gedek bu dünyadan.'' Gerçekten de öyle yapıyordu. Ömrünün son anlarına kadar müzelerin depolarında çalışıyordu. Ben hiç unutmuyorum. Şimdi biz Türkiye ve Azerbaycan "Bir millet, iki devletiz.'' diyoruz. Bu sözün sahibi Merhum Haydar ALİYEV. Hocam Meşedihanım Nİ'MET, Azerbaycan'a bağlı Nahçıvan Muhtar Cumhuriyeti'nde çalışmalar yaparken, oradaki abideleri bir araya getirip, okuyup yayımlarken, onun toplusunu hazırlarken, Merhum Cumhurbaşkanımız Haydar ALİYEV, Hocam'ın orada çalıştığını biliyor; Hocam'ı takip ve takdir ediyordu. Hocam'ı çağırıp zaman zaman da onunla sohbetler ediyordu. Bir gün Hocam'ı almak için Iğdır'a oradan da sınır kapısına gitmiştim. Çok şaşırdığım bir şey oldu. Merhum Haydar ALİYEV, Hocam'ı sınıra kadar kendi makam aracıyla getirmişti. Hocamla sohbet ede ede gelmişlerdi; çok ama çok şaşırmıştım. Ben Hocam'ı oradan alıp Erzurum'a götürdüm (fotoğraf 3).



***Fotoğraf 3***

Hocam'ın belki de en mutlu olduğu günlerden biriydi. Çünkü Haydar ALİYEV, o zaman Nahçıvan Muhtar Cumhuriyeti'nin başındaydı ve Hocam'a da yaptığı çalışmalara da ciddi anlamda değer veriyordu. Bu arada önemli bir bilgiyi sizinle paylaşmak isterim. Benim Atatürk Üniversitesi'nde görev yaptığım yıllarda bizim Nahçıvan ile ilişkilerimiz çok çok iyiydi. Şu an Azerbaycan Millî İlimler Akademisi Başkanı olan Prof. Dr. İsa HABİBBEYLİ Bey ile de o zamanlar çok yakın bir hukukumuz vardı. Biliyorsunuz İsa HABİBBEYLİ Bey, bu yıl Türk Dil Kurumu'nun Türk Dili'ne Hizmet Ödülü'nü aldı. Bundan iki sene önce de ''Valeh Hacılar Uluslararası Bilimsel ve Kültürel Araştırmaları Vakfı'nın Türk Dünyası Hizmet Ödülü'nü'' aldı. Allah İsa HABİBBEYLİ Bey'e ve uzun yıllardan beri tanıdığım siz değerli dostlarımıza ve arkadaşlarımıza sağlıklı, uzun ömürler nasip etsin. Ancak gerçekten üzüntülü olduğum anlar da var. Azerbaycan'da, Nahçıvan'da, Gürcistan'da çok erken zamanlarda tanıdığım, birlikte çalıştığım birçok dostumu, arkadaşımı, Hocam'ı da kaybettim. Onlar bugün hayatta değiller. Hocam Meşedihanım Nİ'MET, Valeh HACILAR, Azize CAFERZADE, Bahtiyar VAHABZADE, Nebi HEZRİ, Ziya BÜNYATOV, Elisa ŞÜKÜRLİ, Abbas Abdulla HACALOĞLU ve birçok değerli bilim, kültür ve sanat adamı…Bunlar bugün hayatta değiller. Hepsini rahmetle, minnetle ve şükranla anıyorum... Yaptıklarıyla bize çok büyük miras bıraktılar. Onlar gerçekten hem devlet adamı olarak hem bilim insanı olarak bizlere çok güzel miras bıraktılar. Dostluk bıraktılar, kardeşlik bıraktılar, Türk Dünyası'nın birliğine ve bütünlüğüne bizleri inandırdılar. Azerbaycan – Türkiye dostluğunun kardeşliğinin ebediyen var olması için uğraştılar. Tıpkı Nuri Paşa gibiydiler onlar... Ben Azerbaycan subaylarının da hocalığını yaptım Türkiye'de. Bugün Azerbaycan Ordusu'nda görev yapan birçok zabitin, subayın hocası oldum. Türkiye Türkçesi - Azerbaycan Türkçesi, Azerbaycan Türkçesi – Türkiye Türkçesi ile ilgili Askerî Termiloji Sözlükleri'ni hazırladım. Azerbaycan'la ilgili 15 kitabım var. ''Gobu''stan'ın Gizemi (''Kıpçaklar''a Giden Yol)" adlı muhteşem bir eser hazırladım; 650 sayfa. 22 sene Gobustan'a gidip geldim. Hocam Meşedihanım NİMET, bana diyordu ki: *"Ay Çingiz, gene gelmişsen, Gobustan'da işlemelisen! Bu ilanlar meleşen yerde, Gobustan'da ne tapmışsan ay balam sen? Belke de cinler aparır seni Gobustan'a... Besti de ay Çingiz, besti Ay balam... Bah Azerbaycan'da çoh gözel gezmeli, görmeli yerler var. Gorhuram Gobustan'da heste olasan''* .

Ben 22 yıl gidip geldim Azerbaycan'a, sadece Gobustan için. Her gidişimde, Meşedihanım Nİ'MET Anam'ı bir başka yerde çalışırken, bir şeyleri okurken buldum. En son ölümünden birkaç ay önceydi... Eşim Prof. Dr. Semra ALYILMAZ (fotoğraf 3) ile birlikte yine herkesten habersiz bir şekilde kendi arabamızla Azerbaycan'a, Bakü'ye gittik. Vefa Kardeşimiz'i aradık; Anamız'ı soruşduk. Vefa dedi ki: "Mama Halça Müzeyi'nde işliyir Ay Çingiz.'' Halça Müzesi (Halı Müzesi) henüz şimdiki yerine taşınmamıştı. *"Halça Müzeyi'nde harda, hangi şöbede işliyir Ay Vefa?''* dedim. Dedi ki: *"Oların depolarında, badvallarında mis kaplar var, o mis kapları işlemeye*

*getti.''*; inanamadım. Çünkü artık hakikaten zor zamanlarıydı. Ama yine de çalışıyordu. Ben gittim ve onu mis kapların üzerinde epigrafik unsurları belgelerken gördüm.




***fotoğraf 3***

Bugün 100. doğum günü dolayısıyla kendisini rahmetle ve şükranla andığımız Meşedihanım Nİ'MET Hocam/ Anam ve onun sayesinde tanıdığım bilim insanları, Türk dünyasının bilim adamları olduğu gibi, övünç / iftihar kaynağı ve rolmodel insanlarıydı. Bir Türk kadını nasıl olmalı, Meşedihanım Nİ'MET Hocam, bize onu gösteriyordu. Kendi alanında zaten dünyanın en iyi bilim insanlarından biriydi.

Epigrafyada ne öğrendiysem ondan öğrendim. Türkiye'de Doktora Hocam, "Doktora Babam" Kılavuzum, Prof. Dr. Efrasiyap GEMALMAZ. Ona çok ama çok şey borçluyum. Eski Türk Dili'ni, dil bilimini, Türk lehçelerini ondan öğrendim. O olmasaydı bugünlere gelemezdim. Ama bilimsel anlamda epigrafyada, yazıt biliminde bana "Analık" eden, yol gösteren, metot öğreten kişi, Prof. Dr. Meşedihanım Nİ'MET'tir. Ondan epigrafinin yöntemlerini ve tekniklerini öğrendim.

Onu rahmetle, minnetle, şükranla anıyorum. İyi ki o vardı, iyi ki o benim anam oldu, Hocam oldu ve sizlerin de dostlarınız oldu... Onun kızı Vefa, oğlu Fuat bizim her zaman kardeşlerimiz oldu. Onun damadı Balaş Ağabey, her gittiğimizde bizlere evlerinin kapılarını sonuna kadar açtı. Onlara da teşekkür ediyorum; Hocam'a çok ama çok iyi baktılar ve hürmet ettiler. Hocam aynı zamanda çok iyi bir şaire idi. Müsaadenizle sözlerimi onun bir dörtlüğüyle tamamlamak istiyorum:

***"Var idim, izim galdı,***

***Od idim, közüm galdı.***

***Esrin daş yaddaşında***

***Menim de sözüm galdı”***

Bugün aramızda olmayan Hocam’ın ve onun yol arkadaşlarının ruhları şad olsun. Onun dostları olan sizlere de evlatları olan aile mensuplarına da Allah sağlıklı, huzurlu, uzun ömürler nasip etsin. Türkiye - Azerbaycan kardeşliği ve dostluğu daim olsun…

***Sağlıcakla kalın.***

***Hepinizi sevgi ve saygıyla selamlıyorum...***

**Qasım HACIYEV**

*AMEA Qafqazşünaslıq İnstitutu Qafqaz tarixi*

*şöbəsinin müdiri, t. e.d., professor*

*gasimh@mail.ru*

*+994 50 3831149*

# MƏÇƏDİXANIM NEMƏTİN AZƏRBAYCAN TARİXİNİN ÖYRƏNİLMƏSİNDƏ YERİ VƏ ROLU



***Professor Qasım Hacıyev***

Tarix elminin ən çətin sahələrindən biri ilə - epiqrafik abidələri öyrənməklə məşğul olan və məşhurlaşan Məşədixanım Nemət bütün mənalı ömrünü bu işə həsr etmişdir. Məşədixanım Nemət bu işə ömrünün 60 ilini həsr etmişdir.



*Məşədixanım Nemət Qusarın Həzrə kəndində*

O, ərəb qrafikasının müxtəlif xətləri ilə ərəb, fars, türk dillərində daş salnamələri oxumuş - sufizm, toponimika, etnoqenez və s. dair külli miqdarda materiallarla Azərbaycanın tarixşünaslığını zənginləşdirmişdir. Məşədixanım Nemət elmi fəaliyyəti dövründə, 2500-dən artıq epiqrafik abidəni oxuyaraq onların tarixi əhəmiyyətini müəyyənləşdirmişdir. Öyrəndiyi abidələr əsasında 12-dən artıq monoqrafiya, 200 elmi məqalə, o cümlədən 6 cildlik “Azərbaycanın epiqrafik abidələrinin toplusu"nu yazmış və tərtib etmişdir. SSRİ-nin elmi mərkəzlərində nəşr olunan toplu və jurnallarda bir çox sovet alimləri ilə yanaşı Məşədixanım Nemət də yer almışdır.

Məşədixanım Nemət XIII-XIV əsrlərdə yaşamış, fəaliyyət göstərmiş, Avropanın qapısı olan Anadolunu Çin ilə birləşdirən, Araz boyu Azərbaycandan keçən qədim karvan-ticarət (İpək) yolu üzərindəki Füzuli, Zəngilan, Cəbrayıl, Zəngəzur (Səlim keçidi), Ələyaz, Dərələyəzdə yerləşən memarlıq abidələrinin memarı Əli Məcdəddinin adını memarlıq tarixinə yazmışdır. M.Nemət sənətşünaslıq tarixində məlum olmayan bədii daşyonma sənəti məktəblərini, onun əsasını qoymuş ustaları, onların davamçılarının, fəaliyyətlərinin xronoloji çərçivəsini və əsərlərinin yayıldığı sahələri müəyyənləşdirmişdir. Məşədixanım Nemətin XIII-XIV əsrlərə aid Abşerondakı (Buzovna, Şağan, Yeni Suraxanı) üç türbə üzərində ərəbcə yazılmış kitabələrə əsasən xristian Suriya nəsranilərinin Abşeronda yaşamalarını, türkləşmələrini və Azərbaycan xalqının təşəkkülündə iştirak etmələrini sübut etmişdir.

Nemət epiqrafik abidələrə əsasən bir sıra memarlıq abidələrinin təyinatını və tarixini dəqiqləşdirmişdir. Maraqlı məsələlərdən biri də Məşədixanım Nemətin Gürcü tədqiqatçıları İlisu Came məscidinin kitabəsində onların ərəb sərkərdəsi Əbu Məbran nəslindən, İlisu sultanlarının məzar daşlarında olan kitabələrə əsasən onların Əlibəy Şami (Suriya) övladları olmalarını sübut etmişdir.

Məşədixanım Azərbaycan ərazisində apardığı 60 illik tədqiqatlarını yekunlaşdıraraq "Azərbaycanın epiqrafik abidələri" toplusunu Quba-Xaçmaz Cənubi Dağıstanın ərəb-fars-türkdilli kitabələri (VIII-XX əsrlərin əvvəlləri, Şirvan, Gəncə, Ağdam, Füzuli, Şuşa, Zəngilan, Cəbrayıl, Laçın, Kəlbəcər və başqa rayonların ərəb-fars-türkdilli kitabələri (XI-XX əsrlərin əvvəlləri), Mis qablar, silahlar, bayraqlar üzərindəki ərəb-fars dilində olan kitabələr (XVII-XIX əsrlər) nəşr etdirmişdi.

Ermənistanın işğalı altında qalan ərazilərimizdəki maddi-mədəniyyət abidələri də təcavüzə məruz qalmışdır. Azərbaycan Respublikasının işğal altında olan ərazilərinin epiqrafik abidələri ayrıca bir topluda əksini tapmışdır.

Elm fədaisi Məşədixanım Nemətin elmi fəaliyyəti respublikamızdan kənarlarda da dəyərləndirilmişdir. Türkiyənin Kars şəhərində keçirilmiş "Qazı Kars şehrengizi" simpoziumunda Məşədixanım Nemət türk-islam mədəniyyətinə xidmətə görə mükafatlandırılmışdır.

Məşədxanım Nemətin Azərbaycan tarixşünaslığında xidmətləri çox böyükdür. Burada xüsusi ilə qeyd etmək lazımdır ki, Məşədixanım Nemətin tədqiq edilməsi daha çətin olan Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində apardığı tədqiqatlar əvəzsizdir. Təsəvvür edin ki, yazılı mənbələr, arxeoloji materiallar üzərində işləmək nə qədər böyük zəhmət tələb etsə də, epiqrafik abidələr, müxtəlif ölçülü yerləşdiyi yerə görə çətin şəraitə olan abidələr üzərində tətqiqat aparmaq daha çətindir. Məşədixanım Nemət vaxtıilə işğal zonasına çevrilən Qarabağda epiqrafik abidələrin öyrənilməsində çox böyük işlər görmüşdür.

Məşədixanım Nemətlə bağlı bir neçə xatirəmi diqqətə çatdırmaq istəyirəm: Təxminən 2006-ci ildə BMM-də keçirdiyimiz **"Qarabağın qədim tarixinə dair"** tədbirdə Məşədixanım Nemətin mötəbər faktlar və tutarlı tədqiqat nəticələrinə əsaslanan məruzəsini yaxşı xatırlayıram. Mötəbər təkzibedilməz arqumentlərlə zəngin olan məruzədə Qarabağ həqiqətləri söylənilir, erməni yalanları ifşa olunurdu. Elə həmin tədbirdə Məşədixanım Nemət İrəvan şəhəri yaxınlığında və İrəvanın özündə epiqrafik abidələr üzərində apardığı tədqiqatların nətciələrindən, eləcə də yaxın ərazi olan Naxçıvan bölgəsində aşkar etdiyi epiqrafik yazıların oxşarlığına dair yığcam və konkret məlumatları çox rəğbətlə qarşılandı. Məşədxanım Nemət ilə tanışlığımızın bir dövründə də onun Aərbaycan Respublikası prezidenti yanında AAK-ın Tarix üzrə komissiyasının sədri olan vaxtı etdiyimiz söhbətlər çox maraqlıdır.



*“Qarabağın qədim tarixinə dair” tədbirdə Məşədixanım Nemət*

AMEA-nın 6-cı mərtəbəsində yerləşən otaqlarımız yaxın olduğu üçün vaxt olan kimi bu mehriban insan, təcrübəli alimlə maraqlı söhbətlər edirdik. Onunla Bərdə şəhərinin tarixinə dair apardığım tədqiqatlarla bağlı söhbətimiz daha maraqlı alınırdı. Xatırladım ki, elmlər doktoru dərəcəsi almaq üçün təqdim etdiyim dissertasiyanın mahiyyəti haqqında ona konkret və lazımlı məqamları çatdırdım. Dissertasiya AAK-n Tarix üzrə komisiyasına təqdim edildikdən sonar dissertasiy ilə yaxından tanış olduqdan sonar AKK-ın Rəyasətinin iclasında əminliklə mənim elmi işimin yüksək elmi əhəmiyyəti haqqında həvəslə nəlumat vermişdi. Xüsusilə, Sovet tarixşünaslığında orta əsr şəhəri kimi təqdim edilən Bərdə şəhərinin orta əsrlərdə deyil, eradan əvvəl yaranmış qədim şəhər olduğunu sübut etdiyimi bildirmişdi. Bunu nəzərə alaraq AKK-ın sədri akademik Arif Mehdiyev xüsusi nəzarətə götürərək bu məsələnin mötəbər olduğunu təsdiq etməyi akademik Cəmil Quliyevə həvalə etmişdi. Bu yenilik öz təsdiqini tapdı və çox keçmədən mənə t.e.d. elmi dərəcəsi verildi.

***Allah Məşədixanım Nemətə rəhmət eləsin.***

***Onun gördüyü işlər daim xatırlanacaq!***

**Tarix DOSTİYEV**

***Bakı Dövlət Universiteti, tarix elmləri doktoru, arxeoloq***

***dostiyev.tarikh@mail.ru***

# MƏŞƏDİXANIM NEMƏT VƏ ŞƏMKİR EPİQRAFİKASI

# MESHADIKHANUM NEIMAT AND EPIGRAPHICS OF SHAMKIR



***Tarix elmləri doktoru Tarix Dostiyev***

**Abstract:** The article presents information about the contribution of Meshadikhanum Neymat to the development of epigraphic science in Azerbaijan, emphasizing the importance of studying epigraphic finds - inscriptions on stone, ceramics, drywall, discovered in the medieval settlement of Shamkir. The content of the inscriptions is of a construction-informational and religious nature. In recent years, a significant number of new epigraphic finds have been accumulated from the archaeological excavations of the Shamkir settlement, which are awaiting their researchers, and the scientific significance of Meshadikhanum Neimat's research on epigraphy is becoming increasingly apparent.

***Key words:*** *Meshadikhanum Neimat, Shamkır city site, Minaret of Shamkir, epigraphic monuments, "Kufic" script*

**Xülasə:** Məqalədə epiqrafçı alim Məşədixanım Nemətin Azərbaycanda epiqrafiya elminin inkişafına töhfələrindən, o cümlədən orta əsr Şəmkir şəhər yerindən aşkarlanmış epiqrafik materialların – daş, saxsı, gəc üzərində həkk olunmuş kitabələri oxuyaraq təhlil etməsindən bəhs olunur. Şəmkir şəhər yerindən tapılan kitabələr ərəb dilində olub daş, metal və gəc üzrə kufi xətti ilə, keramika üzərindəki yazılar isə kufi və nəsx xətti ilə yazılıb.

Kitabələrin məzmunu inşaat məlumatı və dini xarakterlidir. Toplanmış epiqrafik materialların bir qismi Məşədixanım Nemət tərəfindən tədqiq edilsə də, son illərdə arxeoloji qazıntılarından yeni aşkarlanan xeyli sayda kitabə öz tədqiqatçısını gözləyir və Məşədixanım Nemətin epiqrafika üzrə araşdırmalarının elmi əhəmiyyəti özünü daha kəskin göstərir.

***Açar sözlər:*** *Məşədixanım Nemət, Şəmkir şəhər yeri, Şəmkir minarəsi, epiqrafik abidələr, kufi xətti*

**Giriş:** Bu il əsərləri Azərbaycanın epiqrafikasına, daha dəqiq desək, Azərbaycanın müsəlman epiqrafikasına həsr olunan görkəmli epiqrafçı alim, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Məşədixanım Nemətin anadan olmasının 100 ili tamam olur. Məşədixanım Nemətin Azərbaycan Respublikasının müxtəlif bölgələrində, eləcə də keçən əsrin 60-cı illərində Qərbi Azərbaycanda axtarış və tədqiqatları nəticəsində zəngin, həm də nadir epiqrafik materiallar toplanmışdır. O, müsəlman epiqrafik abidələrinin tədqiqi, qorunub saxlanılması və tədqiqi istiqamətində müstəsna dərəcədə əhəmiyyətli fəaliyyət göstərmiş, Azərbaycanda epiqrafika elminin inkişafına böyük töhfələr vermişdir. Məlum olduğu kimi, daş, metal, keramika və şüşə üzərində yazılmış kitabələr qiymətli mötəbər mənbələrdir və zəngin dil materialı ilə yanaşı, həm də xalqımızın maddi və mənəvi mədəniyyəti haqqında qiymətli məlumatları özündə ehtiva edir. Məşədixanım Nemətin Azərbaycan elminə verdiyi töhfələrdən söz açarkən, şübhəsiz ki, ilk növbədə Azərbaycanın epiqrafik abidələrinin külliyyatını tərtib etməsini qeyd etmək lazımdır. Ömrünün 60 ilindən çoxunu epiqrafika elminin inkişafına həsr edən alimin bu sahədəki fədakar əməyi, bilik və təcrübəsi belə bir sanballı nəşrin işıq üzü görməsini təmin etmişdir. Müəlliflər kollektivinin icra edə biləcəyi külliyyatı Məşədixanım Nemət təkbaşına tərtib edərək nəşrə hazırlamışdır. Epiqrafik yazıların tutumuna və özəlliklərinə baxmayaraq, orta əsrlərin tarixi hadisələrinə dair məlumatla zəngin olması, tarixi məlumatın məzmun dəyişikliklərinə məruz qalmadan bu gunə catdırması (Nemətova, 1987, s. 3-4; Неймат, 2001, с. 4), vətən tarixinin ümdə problemlərinin həllində bu nəşri əvəzedilməz mənbələr toplusu kimi qiymətləndirnəyə əsas verir. Bunu da xüsusi vurğulamaq lazımdır ki, Məşədxanım Nemətin vaxtilə aşkar edib qeydə aldığı, tədqiq edərək elmi dövriyyəyə daxil etdiyi bir çox epiqrafik abidələr fiziki məhvə məruz qalmış, günümüzə gəlib çatmamışdır. Həmin epiqrafik abidələr, kitabələr, məhz Məşədxanım Nemətin səyləri nəticəsində tarix və mədəniyyətimiz ümdə problemlərinin həllində mötəbər mənbə olaraq qalır və uzun müddət elmimizə xidmət edəcək, tədqiqatçılar bu mənbələrdən bəhrələnəcək.

Məşədxanım Nemət və Şəmkir kitabələrinin oxunması. Məşədxanım Nemətin Orta əsr Şəmkir kitabələrinin tədqiqinə də töhfələri böyükdir. Hazırkı məqalədə məqsəd Məşədxanım Nemətin Şəmkir şəhər yerindən aşkar edilmiş epiqrafik tapıntıları tədqiq etməsi, tədqiqat zamanı qarşılaşdığı vandalizm

hallarına qarşı etirazları, orta əsr Şəmkir şəhərinin tarix və mədəniyyətinin öyrənilməsində onun araşdırılmaların əhəmiyyəti haqqında məlumatı diqqətə çatdırmaqdır.

Orta əsr səyyah və coğrafiyaşünasları Şəmkiri Azərbaycanın abad və nemətlərlə zəngin şəhərlərin sırasında qeyd edirlər (Vəlixanlı, 2016). Yazılı mənbə məlumatından bəlli olur ki, ərəb fəthləri dövründə Şəmkir artıq qala-şəhər kimi mövcud idi. Ərəb fəthlərini qələmə alan IX əsr tarixcisi Əhməd əl-Bəlazuri bildirir ki, 644-cü ildə Səlman ibn Rəbiə əl-Bahili qədim şəhər hesab olunan Şəmkiri fəth etdi, bu şəhər siyavurdilər onu dağıdıb viran qoyanadək gur və abad şəhər idi (əl-Bəlazuri, 2005, s. 113).

Şəmkir şəhəri IX əsrin ikinci yarısı – X əsrdə yüksəliş kecirərək mühüm sənətkarlıq və ticarət mərkəzinə cevrilmiş, Azərbaycanın Sacilər, Salarilər, Şəddadilər, daha sonra isə Azərbaycan Atabəyləri dövlətinin mühüm mərkəzlərindən biri olmuşdur. Şəmkir Əbd əl-Abbas ibn Cibril ibn Mikail əl-Varraq əş-Şəmkiri və Əbu-l-Qasim əl-Mucma’ ibn Yəhya əş-Şəmkuri kimi məşhur alimlərin anadan olduğu şəhərdir (əl-Qəşqəşəndi, 2005, s. 187). Müsəlman və Qərb sivilizasiyalarının təmas bölgəsində yerləşən Şəmkir şəhəri İslamın Qafqazda möhkəmlənməsi və yayılmasında özünəməxsus rol oynamışdır. Arran memarlıq məktəbinin şah əsərlərindən, Səlcuq mil minarələrinin gözəl örnəklərindən olan Şəmkir minarəsi İslam memarlığının incilərindən biri hesab olunur (Qiyasi, 2012, s. 531-532). Dövrüzə gəlib çatmayan, heyratamiz gözəlliyi və mükəmməlliyi ilə fərqlənən bu mohtəşəm abidənin görünüşü bizə XIX əsrin ilk qərinəsində Şəmkir şəhər yerində olmuş N.Florovskinin müfəssəl yazılı təsvirindən, rəssamlar Dubua de Monpere və Qriqori Qaqarinin cəkdiyi rəsmlərdən məlumdur (Dostiyev və b., 2013, s. 14-15).

Şəhərin ardıcıl, yüksələn inkişafı monqol işğalı ilə dayandırılmışdır. Şəmkir şəhərinin sakinləri monqolların təslim olmaq tələbini rədd etmiş, işğalçılara inadlı müqavimət göstərmişlər. Qəzəblənmiş monqollar şəhəri zəbt etdikdən sonra onu amansızlıqla dağıtmış, əhalisini qılıncdan keçirmişdir. Dəhşətli dağıntı və qırğından sonra bir daha şəhər özünə gələ bilməmiş, tənəzzül etmişdir. Hazırda Qədim Şəmkir şəhərinin xarabalıqları Şəmkirçayın sahilində, Qədimqala kəndinin şimalında, 40˚50´70,10´´-N, 46˚07´14,10´´-E koordinatlarda, dəniz səviyyəsindən 316,3 m hündürlükdə yerləşir. Şəmkir Azərbaycan, ümummüsəlman şəhərləri üçün səciyyəvi olan üç topoqrafik hissədən ibarətdir: narınqala (içqala), şəhristan (içərişəhər) və rabad (bayırşəhər). Narınqala şəhristanın şərqində, Şəmkirçayın sol sahilində, çay yatağından 8,5 m hündürlükdə yerləşməklə 1 hektara yaxın sahəyə malikdir. Şəhər xarabalıqlarının qala divarları ilə əhatə olunan sahəsi (şəhristan) 20 hektardan artıq ərazini əhatə edir, qərb-şərq istiqamətində olmaqla planda dördbucağa yaxın formadadır. Rabadın şəhər qala divarlarından cənuba və qərbə geniş ərazini, habelə Şəmkirçayın sağ sahilini tutması şübhə doğurmur (Dostiyev, 2009; Dostiyev, 2021).

Şəhər qalasının şimal-şərq bürcündən şimalda aparılan yoxlama

qazıntıları bu ərazidə orta əsrlərə aid müsəlman qəbirlərinin yerləşdiyini göstərdi. Ehtimal etmək olar ki, şəhər qəbiristanlığı şəhristanın şimal divarından şimalda yerləşirmiş.

2007-2022-ci illərdə geniş miqyaslı stasionar arxeoloji qazıntı işləri 1 hektardan artıq ərazini əhatə etməklə əsasən abidənin narınqala və şəhristan sahələrində görülüb, hazırda narınqalada davam edir.

Aparılan arxeoloji qazıntılar şəhərin etnik-mədəni mənsubiyyətini, inkişaf dinamikasını əks etdirən mədəni təbəqənin qalınlığının abidənin müxtəlif hissələrində fərqli olub 3-5,5 m arasında dəyişdiyini göstərir.

Arxeoloji qazıntıların nəticələri artıq VIII əsrin sonu–IX əsrin əvvəllərində Şəmkirin maddi mədəniyyətinin müsəlman mədəniyyəti səciyyəsi daşıdığını, şəhərdə ərəb əlifbası və ərəb dilinin yayıldığını təsdiqləyir. Epiqrafik tapıntılar şəhərdə erkən islam dövründə ərəb yazısının kufi, Səlcuqlar dönəmində isə kufi və nəsx xətlərinin geniş yayıldığını təsdiqləməyə əsas verir. 2006-2022-ci illərdə Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntılar nəticəsində aşkarlanan arxeoloji materiallar əmək alətləri və silahlardan, inşaat materiallarından, saxsı, fayans, metal və şüşə qab-qacaqdan, pəncərə şüşəsi nümunələrindən, bəzək əşyalarından, sikkələrdən və epiqrafik tapıntılardan ibarətdir.

Orta əsr Şəmkir şəhər yerindən əldə olunmuş epiqrafik tapıntılar: daş, keramika, gəc uzrə həkk olunmuş kitabələrin bir qismi Məşədxanım Nemət tərəfindən tədqiq edilmişdir. Məşhur Şəmkir kitabəsi şəhər yerində arxeoloji qazıntıların başlanılmasından xeyli əvvəl, kecən əsrin son qərinəsində aşkarlanmışdır. 1970-ci ildə orta əsr Şəmkir şəhər yerinin ərazisində qaz kəməri üçün xəndək qazılarkən 1,02m x 0,38 m ölçüdə daş üzərində ərəb dilində kufi xəttilə yazılmış kitabə tapılmışdır (Неймат, 1991; Нейматова, Ахмедов, 1971). Salamat tapılmış kitabənin yerli sakinlər tərəfindən ikiyə parçalanması xalqımızın mədəni irsinə qarşı hörmətsizlik, nadanlıq və vandalizmin təzahürünün acınacaqlı nəticəsidir. 2006-cı ildə Şəmkir şəhər yerində arxeoloji qazıntılar başladıqdan sonra Şəmkir sakinlərinin abidəyə marağı artmış, ziyalılar, məktəblilər, gənclər və qocalar abidəni ziyarət edərək üzə çıxarılan arxeoloji komplekslərlə tanış olurdular. 2010-ci ildə abidəyə ziyarətə gələn ağsaqqallardan birinin 1970-ci ildə Şəmkir kitabəsinin tapılması və Məşədxanım Nemət tərəfindən tədqiqi, xilas olunması ilə bağlı məlumatı, daha dəqiq desək, xatirələri bir neçə aspektdə cəlbedicidir, bir tərəfdən epiqrafçı alimlərin çöl tədqiqatlarında üzləşdiyi çətinliklər, ağlasığmaz hallar, digər tərəfdən maddi mədəniyyət abidələrinə biganəliyin səciyyəsi baxımından narahatedicidir. Həmin xatirəni diqqətinizə çatdırmağı məqsədəuyğun hesab edirəm.

Abidəni ziyarət edən, qazıntı sahəsinin kənarında dayanaraq iş prosesini izləyən Şəmkir ağsaqqallarından biri, təxminin yaşı 80-ə yaxın olan ağsaqqal, arxeoloqlara müraciət edərək “Rəhbəriniz kimdir” ? sualını verdi. Qazıntı sahəsini tərk edib onlara yaxınlaşdım. Ağsaqqal məşhur Şəmkir kitabəsinin tapılması və Məşədxanım Nemətin Şəmkirə gəlməsi, həmin

kitabənin araşdırılması, epiqrafik abidənin xilas olunması ilə bağlı xatirələrini danışdı: *"Sovxozun direktoru işləyən vaxt kəndin kənarında, Qala sahəsi ərazisində (yerli əhali Şəmkir şəhər yerini Qala adlandırır – T.D.) qaz kəməri üçün qazılan xəndəkdən üzərində qəribə yazı olan daş tapıldığını mənə xəbər vedilər. Əməkdaşlarla Qalaya getdik. Daşın bir üzündə qəribə yazı vardı. Düşündüm ki, əski yazı ola bilər. Mollanı çağırtdırdım. Molla təəccüb və diqqətlə həmin sirli daşa baxdıqdan sonra üzərindəkinin ərəb yazısı olmadığını və ərəb əlifbası ilə yazılmadığını bildirdi. Qəribə daşın sirrini aydınlaşdırmaq üçün onu parçalamaq qərarına gəldim. İşçilərə gürzü gətirib daşı parçalamağa göstəriş verdim. Gürzün bir zərbə ilə daş ikiyə parçalandı. İçində heç bir şey yox idi.*

*Bir müddət keçən sonra xəbər verdilər ki, iki nəfər Qalada araşdırma aparır.Əməkdaşlarla Qalaya yollandım. Bir kişi daşın yanında sakit dayanmışdı, qadın isə daşı balasını əzizləyən kimi sığallayır, ağlayaraq daşı bu günə salanları lənətləyirdi. Onlarla söhbətimiz alınmadı. Kişi təmkinli və sakit olsa da, qadın əsəbi halda lənətləri daha da şiddətləndirdi və üstəlik söyişləri əlavə etdi. Vəziyyətin gərginliyini dərk edib Qalanı tələsik tərk etdik. Sonradan mənə məlumat verdilər ki, paraladığımız sirli daşı maşına qoyub Bakıya aparıblar".*

Yuxarıda qeyd olunan hadisə bölgələrdə maddi mədəniyyət abidələrimizə bəzən nadanlıq nəticəsində ziyan yetirilməsinə tutarlı dəlildir. Belə halların təkrarlanmaması üçün mədəni irsimizin əhəmiyyəti, qorunması və təbliğinin daim diqqətdə saxlanılması vacibdir.

Məşədixanım Nemətin araşdırmasına görə 1970-cı ildə qaz kəmərinin inşaatı zamanı aşkarlanan Şəmkir kitabəsində XI əsrin sonunda şəhərdə gözətci qülləsinin inşaatına dair kufi xətti ilə məlumat həkk olunub: *"Allahın adıyla bu gozətci bürcünün, yüksək Allahın qüdrətilə bina olunmasına və onun istəyi və onun muhafizəsi və tam himayəsi altında, mömin Şeyx M... L-u bin Əfşin (ya Əqşin-M.N.) öz malı ilə (öz hesabına-M.N.) mühafizə binaları silsiləsindən dörd yüz doxsan üçüncü ildə əmr etmişdir"* (şəkil 1). Hicri 493-cü il 1099/1100-cü miladi ilinə uyğundur (Неймат, 1991, с. 38, рис. 6,6А; Nemətova, 1987, 20, şək. 29,31). Məşədixanım Nemət bu kitabənin vaxtilə Şəmkir qülləsinin (minarəsinin) üzərində olduğunu ehtimal edir: "Qullənin XIX əsrdə Q.Qaqarin və Monpere tərəfindən cəkilmiş rəsmlərində qüllə uzərindəki kitabə 1970-ci ildə şəhər yerindən tapılmış kitabəyə oxşardır və kitabədə yuxarıda qeyd olunduğu kimi qüllənin tikilmə tarixi XI əsrə aiddir" (Nemət, 2009, s 114).



*şəkil 1*

2008-ci ildə Məşədixanım Nemət Şəmkirdə keçirilən beynəlxalq konfransda iştirak etmiş iştirak etmiş və 2006-2008-ci illərdə Şəmkir şəhər yerində aparılan arxeoloji qazıntılar nəticəsində üzə çıxarılan arxeoloji komplekslər, artefaktlarla, o cümlədən epiqrafik tapıntılarla tanış olmuşdur (şəkil 2/3).





*şəkil 2* *şəkil 3*

Qeyd edə ki, 2006 - 2010-cu illərdə aşkarlanan epiqrafik tapıntılar Məşədixanım Nemət tərəfindən tədqiq edilərək oxunmuşdur. 2009-cu ildə Şəmkir şəhər yerinin şəhristan adlanan hissəsinin şimal-şərq sektorunda yerləşən VI qazıntı sahəsində, mədəni təbəqənin XI-XII əsrlərə aid inşaat qatından tapılmış, vaxtilə üzlük hörgüdə olmuş kufi xətli kitabə yerli gəctəraşların, xəttatların maraqlı əsərlərindən hesab olunur (şəkil 4).



*şəkil 4*

Əvvəlcə bişmiş kərpic üzərinə astar rolunu oynayan gəc suvaq cəkilmiş, həmin qat quruyub bərkidikdən sonra ikinci qat çəkilərək oyma üsulla gəc üzərində kufi xətlə ərəb dilində *"... Hakimiyyət Allaha məxsusdur..."* sözləri həkk olunmuşdur (Nemət, 2009, s 114). Eyni mətnli kitabələrin İçərişəhərdə Qız qalası yaxınlığında arxeoloji qazıntılar nəticəsində üzə çıxarılmış məscidin mehrabında, eləcə də Aşur məscidinin giriş qapısı üzərində olmasına əsaslanaraq Məşədixanım Nemət Şəmkir şəhərinin şəhristanından tapılan kitabənin də məscidə aid olduğunu ehtimal edir (Nemət, 2009, s 114). Qeyd edək ki, eyni məzmunlu kitabə 1987-ci ildə Şəmkir rayonunda Muncuqlutəpə abidəsində aşkarlanan XI əsrin ortasına, daha dəqiqi 1050/1051-ci ilə aid sütunaltlığının üzərində həkk olunmuşdu: "Hakimiyyət Allaha məxsusdur. Dördyüz qırx ikinci il. Müdrik Məhəmmədin oğlu İmamullahın işidir." (Nemət, 2007, s. 80).

Sözü gedən kitabə İçərişəhərdə AMEA Arxeologiya və Antropologiya İnstitununun Sərgi zalında nümayiş etdirilir. Bir neçə il bundan öncə Sərgi zalında kitabə ilə bağlı maraqlı bir epizodu nəzərinizə çatdırmaq istərdim. İnstitutun əməkdaşları ilə orta əsr keramika nümunələrini nəzərdən keçirirdik, bu zaman muzeyin ekspozisiyadakı eksponatlarını seyr edən orta yaşlı cütlük kitabənin qarşısında dayanıb onu ərəbcə oxumağa cəhd etsələr, bunu bacarmadılar. Əməkdaşlara müraciət edərək kitabənin həqiqət ərəb dilində olub olmaması sual etdikdə müsbət cavaba təəccübləndilər? Xanım təəccübünü gizlətmədən bildirdi ki, "ərəbcə bilsək də yazını oxumaq uğursuz oldu. Doğrudanmı yazı ərəb dilindədir". Şübhəyə son qoymaq üçün izaha ehtiyac vardı. "Epiqrafika çətin və xüsusi bilik, bacarıq və vərdişlər tələb edən elm sahəsidir. Elə tapıntılar vardır ki, onları oxumaq üçün mütəxəssislər günlər, aylar və hətta illərlə araşdırma aparmalı olur. Təbii ki, Şəmkir kitabəsini oxumaq üçün təkcə ərəb dilini bilmək yetərli deyil, onu oxumaq üçün Məşədixanım Nemətin bilik və təcrübəsi lazımdır" cavabımı onlar səmimi qəbul etdilər.

Şəmkir şəhər yerində, Narınqalanın icərisində, IV qazıntı sahəsində üzə çıxarılan IX-X əsrlərə aid monumental binadan xeyli miqdarda kufi xətli kitabə fraqmentləri tapılıb. Onların böyuk əksəriyyəti ağ gəc lövhə uzərində oyma usulu ilə həkk edilmiş kitabələrə məxsusdur. Həmin epiqrafik tapıntıları araşdıran Məşədixanım Nemət bildirir ki, bunlar kitabələrin fraqmentləri olduqlarından yalnız ayrı-ayrı hərfləri oxumaq olur, məzmunu müəyyənləşdirmək mümkün deyil (Nemət, 2009, s. 115).

Orta əsr Şəmkir şəhər yerindən əldə olunmuş epiqrafik tapıntıların bir qismini keramika üzərində həkk olunmuş kitabələr təşkil edir. Təəsüf ki, onların böyük əksəriyyəti kicik fraqmentlərdən ibarət olduğundan məzmunu bəlli deyildir. Şirli saxsı qab qırıqlarından birinin üzərində ərəb dilində nəsx xətti ilə "əl-bida" – "üstünlük vermək" sozu oxunmuşdur.

Maraqlıdır ki, 2008-ci ildə Şəmkir şəhər yerində arxeoloji qazıntılar nəticəsində V sahədən aşkar edilən iki qabın oturacağında qara rəngli mürəkkəblə yazılmış kitabələr vardır (şəkil 5).



*şəkil 5*

Anqobla naxışlanaraq yaşıl şirlə şirlənmiş qabın oturacağının altında (inv.289/2008) ərəb dilində *"Allah azadlıq verəndir"* sözləri yazılıb (Nemət, 2009, s. 115). Digər qabın oturacağında qara rəngli mürəkkəblə *"Məhəmməd peyğəmbərə (ə.s.) Allahın salamı olsun"* sozləri yazılmışdır (inv.288/2008). Məşədixanım Nemət hesab edir ki, bu kitabə 14 məsuma - Məhəmməd peyğəmbərə, Həzrəti Fatiməyə və 12 imama Allahın salamı olsun mətnindəndir (Nemət, 2009, s. 115). Qeyd edək ki, orta əsrlərdə 14 məsuma salam olsun mətnindən ibarət kitabə digər bədii sənətkarlıq məmulatılarında rast gəlinir. Misal üçün, Beyləqan şəhər yerindən 1961-ci ildə arxeoloji qazıntılar zamanı tapılmış möhür üzükdə Məhəmməd peyğəmbər və on iki imamın qısaldılmış adı yüksək peşəkarlıqla üzüyün qaşında – möhürdə həkk edilmişdir (Əhmədov, 1979, s. 81). A.Rəhimov XII-XIII əsrin əvvəllərinə aid edilən bu möhür üzükdən vəqf sənədlərinin və başqa müqavilələrin təsdiqi üçün istifadə edildiyinin bildirir (Рагимов 1968, s. 38-40).

**Nəticə:**Müsəlman epiqrafiyasının tarixşünaslığında layiqli yer tutan Məşədixanım Nemət yaradıcılığı Azərbaycan epiqrafika elminin inkişafında xüsusi bir mərhələ təşkil edir. Məşədixanım Nemətin Şəmkir şəhər yerindən aşkarlanan epiqrafik tapıntılarının tədqiqi, oxuduğu ərəb dilli kitabələr orta əsr Şəmkirinin mədəni-konfessional mənsubiyyəti, burada aparılan quruculuq işlərinə dair mötəbər maddi dəlillərdir. Arxeoloji qazıntılar zamanı üzə cıxarılan və tədqiq olunan kitabələrin ərəb dilində olması Şəmkir epiqrafikasının məhəlli xüsusiyyəti olmayıb, orta əsr Azərbaycan, ümumiyyətlə müsəlman ölkələrinin epiqrafikasının səciyyəvi əlamətidir. Ərəb dili Musəlman Şərqində ibadət dili olmaqla yanaşı, həm də elm və ünsiyyət dili idi.

Məşədixanım Nemətin tədqiq etdiyi kitabələr Şəmkir şəhər yerindən aşkarlanann epiqrafik tapıntıların yalnız bir hissəsini təşkil edir. Son on ildən artıq müddətdə arxeoloji qazıntılar nəticəsində şəhər yerindən tapılan metal məmulatı, şirli və şirsiz saxsı, fayans qab parçaları və s. üzərində ərəb əlifbasının müxtəlif xətləriilə həkk edilmiş xeyli kitabələr aşkarlanmışdır. Yeni epiqrafik tapıntılar tədqiqatçısını gözləyir. Ümid edirik ki, Məşədixanım Nemətin tədqiqat üsullarından bəhrələnərək onun davamçıları həmin tapıntıları oxuyaraq tədqiqatçılar üçün əlcatan mənbəyə çevirəcəklər.

## Ədəbiyyat


1. Bəlazuri Ə. Kitəb futuhi-l-buldən //Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. Bakı: "Nurlan". 2005, s.104-138.

2. Dostiyev T.M. Orta əsr Şəmkir şəhər yerinin arxeoloji tədqiqinin ilk yekunları //Azərbaycan arxeologiyası, 2009, №2, s. 12-36

3. Dostiyev T.M. Şəmkir şəhər yeri Azərbaycanın tarixi-mədəni irsində // XVIII Beynəlxalq Elmi Simpozium "Türk dünyasının keçmişi və gələcəyi". Nur-Sultan / Kazakhstan, 2021, s. 132-136.

4. Dostiyev T.M., Bəşirov R.Y., Mirzəyev R.H., Hüseynli N.N. Orta əsr Şəmkir şəhəri: arxeoloji qazıntılar və artefaktlar. Bakı: Çaşıoğlu, 2013, 516 s.

5. Nemətova M.Ə. Əsrlərin daş yaddaşı. Bakl: "İşıq" nəşr., 1987, 64 s.

6. Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri. Bakı: Elm, 1979. 198 s.

7. Nemət M.S. Şəmkir kitabələri // Azərbaycan arxeologiyası, 2009, №2, s. 113-117.

8. Nemətova M.S. 2007. Şəmkir kitabələri // Şəmkir: arxeoloji irsi, tarixi və memarlığı. I Respublika elmi-praktiki konfransı. Tezislər.Şəmkir, s.80-81

9. Əl-Qəlqəşəndi Ş. Sübh əl-ə şə fi sinaat əl-inşa // Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. Bakı: "Nurlan", 2005, s. 176-191.

10. Qiyasi C. Azərbaycan memarlığında Səlcuqlar dövrü minarələri //Antik və Orta əsr Azərbaycan şəhərləri: arxeoloji irsi, tarixi və memarlığı. Beynəlxalq elmi konfransın materialları. Bakı, 2012, s. 529-535.

11. Vəlixanlı N.M. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Bakı:"Elm və təhsil", 2016, 480 s.

12. Неймат М. Корпус эпиграфических памятников Азербайджана. Т.I. Арабо-персо-тюркоязычные надписи Баку и Апшерона (XI - начала XX века). – Баку: Элм, 1991. –248 с.

13. Неймат М. Корпус эпиграфических памятников Азербайджана. Т.I. Арабо-персо-тюркоязычные надписи Нахчыванской Автономной Республики (XII - начала XX века). Баку: XXI - Yeni Nəşrlər Evi, 2001. –216 с.

14. Нейматова М.С., Ахмедов Г.М. Новые данные о городе Шамкуре // Археологические открытие 1970 года. – Москва: Наука, 1971, с. 395.

15. Рагимов А.В. Печать из Байлакана // Труди Музея Истории Азербайджана АН Азербайджанской ССР, Т. VII, 1968, с.38-40.

**Rizvan QARABAĞLI**

***Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvü, Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnsititunun aparıcı elmi işcisi, memarlıq üzrə fəlsəfə doktoru, dosent***

r_qarabagli@mail.ru

## AZƏRBAYCAN ELMİNİN MİLLİ SƏRVƏTİ

Məşədixanım Nemətova! Bu adı Azərbaycandan başqa Orta Asiyada, İranda, Dağıstanda, Gürcüstanda və hətta Ermənistanda çox yaxşı tanıyırlar. Onun adı mənim də ailəmdə çox ehtiramla yad edilir. Əsərləri stolüstü kitablarımdı. Azərbaycan memarlıq tarixi və nəzəriyyəsi ilə məşğul olan bir tədqiqatçı kimi Nemətovanın əsərlərinə daima müraciət edirəm. Çünki onun dediyi kimi, "Kitabələr abidənin vətəndaşlıq hüququnu təsdiq edən pasportdu". Belə "passport" ları yığıb toplamaq üçün Məşədixanım ömrünün təqribən 60 ilini ona sərf etmişdi. Nəticədə 3000-nə yaxın epiqrafik abidə toplayaraq oxumuş, araşdırmış və onları elm aləminə bəlli etmişdir. Bütün bunlar əsasında o, 12-dən artıq monoqrafiya, 200 elmi məqalə və 6 cildlik "Azərbaycanın epiqrafik abidələri" toplusunu yazıb çap etdirmişdir. Bu əsərlərin demək olar ki, əksəriyyətini alim öz imzası ilə mənə hədiyyə edib. Və hər dəfə də o, kitablarını mənə hədiyyə edəndə tədqiqat zamanı çətinliklərdən-nəqliyyat vasitələrinin olmamasından və hətta bir çox yerlərə atla və ya araba ilə getməsindən danışırdı. Danışdıqca da hiss edirdim ki, bütün bunları o, sevə-sevə danışır və bu sevgi içərisində mən böyük bir Azərbaycan aliminin vətən abidələrinə, olan can yanğısını hiss edirdim.

Məşədixanımı tanıyanlar və onun əsərlərini oxuyanlar bilirlər ki, onun həyat və yaradıcılıq yolu heç də hamar və rahat olmamışdı. Yeri gəlmişkən bu barədə qısa arayış verim: -1924-cü ilin 5 yanvarında Bakının Zabrat kəndində dünyaya göz açan Məşədixanımı sanki doğulduğu o soyuq şaxtalı gün bütün ömrü boyu izləmişdi. Belə ki, onun cəmi 18 yaşı olanda Böyük Vətən müharibəsi başlayır. Ölkədə hökm sürən müharibə qorxusu, onun ardınca gələn 37-ci ilin repressiya faciəsi gənc Məşədixanımın da ailəsindən yan keçməmişdi. Bütün bu çətinliklərə baxmayaraq orta məktəbi müvəffəqiyyətlə başa vuran Məşədixanım Azərbaycan Dövlət Univeristetinin "Şərqşünaslıq" fakültəsinə daxil olur və 1948-ci ildə oranı əla qiymətlərlə bitirir. Elmə olan böyük həvəsi onu Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutuna yönəldir. Burada o, aspiranturaya daxil olur, 1954-cü ildə namizədlik və 1968-ci ildə doktorluq dissertasiyalarını müdafiə edir. 1951-ci ildən AMEA Tarix İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayan görkəmli alim, 1970-ci ildən bu günə kimi AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Epiqrafika"

şöbəsinə rəhbərlik edir. Uzun illər boyu elmi fəaliyyətdə çalışan M. Nemətova nəhayət 200-ci ildə AMEA-nın müxbir üzvü seçilir.

Yuxarıda qeyd edildiyi kimi 60 illik elmi fəaliyyəti dövründə M.Nemətova Azərbaycanın bütün ərazilərin qarış-qarış gəzərək ərəb-fars qrafikalı müxtəlif xətdatlıq növləri ilə yazılan daş kitabələri oxumuş və nəticədə Azərbaycanın tarix, memarlıq, sənətşünaslıq, filologiya, İslam fəlsəfəsi, toponimika, etnogenez və digər elm sahələrinə külli miqdarda yeni tarixi sənədlər təqdim edərək Azərbaycan tarixşünaslıq elmini zənginləşdirmişdi.

Qərbi Azərbaycan və Qarabağ mövzusu Məşədixanım tədqiqatlarında xüsusi yer tutur. O hələ 1961-ci ildə, bu bölgəyə məxsus memarlıq abidələrinin kitabələrini, məzarüstü sənduqələri, at, qoç heykəllərini, məişət və hərbi alətlər üzərindəki yazıları oxuyanda qeyd etmişdi ki, bu yerlər qədim Alban türklərinin tarixi əraziləri olub. O, bunu elmi dəlillərlə sübut etmiş və Azərbaycana qarşı torpaq iddiasında olan ermənilərə tutarlı cavab vermişdir.

Bu barədə alim, “Azərbaycanın epiqrafik abidələri” toplusunun beşinci cildində Qarabağ bölgəsinə daha geniş yer ayırmışdı. Məhz bu əsərin köməyi ilə mən XIII yüzillikdə Qarabağ memarlıq məktəbinə rəhbərlik etmiş Əli Məcidəddin yaradıcılığını daha yaxından və inamla izləyə bildim. Hansı ki, onun adı yazılmış kitabə yalnız Zəngilan rayonu Məmmədbəyli kəndindəki türbə üzərində qalmışdı. Etibarlı mənbə kimi mən bu türbəlinin kitabəsi əsas götürərək, Naxçıvandan tutmuş Beyləqana qədər mövcud olan Arazboyu abidələrin memarlıq özəlliyini araşdırmaqla və müqaisəli təhlil etməklə onların məhz Əli Məcidəddin memarlıq məktəbinə aid olduğunu isbat edə bildim. Bununla yanaşı məhz Məşədixanımın oxuduğu Şuşa, Ağdam, Füzuli, Bərdə və Tərtər rayonlarındakı çoxsaylı abidələrin kitabələrinidən, XIX əsrin axırı və XX əsrin əvvəllərində Qarabağ memarlıq məktəbinə rəhbərlik etmiş istedadlı memar Kərbəlayi Səfixan Qarabaği haqqında da dolğun məlumat əldə edə bildim. Yeri gəlmişkən xatırladım ki o, təkcə Qarabağda deyil, Bakı-Abşeron abidələrinin kitabələri ilə 105, Şəki-Zaqatala bölgəsi üzrə isə 137 nəfər, memar, usta, xəttat və həkkakların adlarını aşikar edərək elmə bəlli etmişdir.

Yuxarıda qeyd edildiyi kimi, Azərbaycana qonşu olan hər bir ölkədə Məşədixanımı çox sevir və onun əsərlərini sevə-sevə oxuyurlar. Sankt-Peterburqda nəşr olunan "Epiqrafika Vostoka" jurnalının 1967-ci il 18-ci nömrəsində yazılır: "M.S.Nemətova Azərbaycanın kitabələrini sistemli şəkildə toplayır və tədqiq edir, məqalələrində əvvəllər məlum olmayan və özünün topladığı yazıları çap etdirir”. Sonra yenə davam edərək yazır ki, “M.Nemətovanın nəşr etdirdiyi kitabələr filoloqlar, dilçilər, Azərbaycanın maddi və mənəvi mədəniyyəti, incəsənəti və bədii sənətkarlığı ilə məşğul olan tarixçilər üçün böyük maraq doğurur və etibarlı elmi mənbədir ". Bununla yanaşı 1976-cı ildə Moskvada çap olunmuş “İstoriçeskaya ensiklopediya” kitabında professor V.A.Kraçkovskaya məqaləsində məşhur rus alimləri X.D.Fren, N.M.Xanıkov, O.Tixsen, italiyalı M.Amari, ispaniyalı F.Kaderov, A.Şevçenko, Ş.Bosselar və fransalı R.Vasse ilə yanaşı M.Nemətovanın da

adını xüsusi ehtiramla yad edir. Bu alimlərin təsdiq etdiyi kimi M.Nemətovanın işi təkcə epiqrafik abidələrini aşkar etmək və oxuyub tərcümə etməkdən ibarət olmamışdı. O, həm də oxuduğu kitabələrdə qala, minarə, türbə, xanəgah, ribat, zaviyə, və s. abidələrin təyinatını da dəqiqləşdirmişdi. Bütün bunlarla yanaşı Məşədixanım XII əsrdə XIX əsrlə qədər Azərbaycanda mövcud olmuş-Qələndəriyyə, Qədiriyyə, Xəlvətiyyə, Bektaşiyyə (qolları Babailər və Çələbilər), Nəqşbəndiyyə (qolu Ələviyyə) və s. sufi cəmiyyətlərinin mərkəzlərini, onlara rəhbərlik edən şeyxlərinin adlarını və fəaliyyət arenalarını müəyyən etmişdi.

Yuxarıda göründüyü kimi, Məşədixanımın elmi fəaliyyəti bir çox əcnəbi alimlər tərəfindən yüksək qiymətləndirilib. Bu sıraya erməni alimlərini də əlavə etmək olar. Ancaq erməni alimləri Məşədixanım elmi araşdırmalarına heyran qalsalar da onunla razılaşa bilmirdilər, bu da təbiidir. Çünki Məşədixanımın epiqrafika elminə əsaslanaraq erməni tarixçilərinin yalanlar və böhtanlar üstə qurulmuş saxta "Erməni tarixi"ni bütün çılpaqlığı ilə açıb göstərir. Bu sözləri yazarkən 2001-ci ildə Tiflisdə keçirilən beynəlxalq konfransı xatırladım (şəkil 1).



***Şəkil 1***

Beş nəfər erməni aliminin iştirak etdiyi o konfransda Məşədixanım epiqrafik tədqiqatlarına əsaslanaraq ermənilərin nəinki Azərbaycana və hətta Qafqaza belə gəlmə xalq olduqlarını, eləcə də Qarabağda, Zəngəzurda və indiki Ermənistan ərazilərində olan bütün tarix və mədəniyyət abidələrinin məhz əzəli-əbədi Azərbaycana aid olduğunu sübut etməsi indi də gözlərim önündədir. Onun çıxışı ermənilərin üzərinə od kimi yağdı. O zaman Məşədixanım mənim gözümdə ahıl və zərif bir qadın kimi deyil, əsil pəhləvan cüssəli və şir ürəkli Vətən qızı kimi göründü. Konfransdan sonra ermənilərin Məşədixanıma yaxınlaşıb onun kitablarından avtoqrafla xahiş etmələri məndə qürur hissi oyatdı və mən fəxr etdim ki, Azərbaycanımın belə böyük alimi var.

Taleh elə gətirdi ki, bu nəcib insanla Naxçıvan səfərində də bir yerdə olduq (şəkil 2).



***Şəkil 2***

AMEA-nın Naxçıvan bölməsinin açılışı ilə bağlı burada çoxsaylı görüşlərimiz oldu. Lakin Ulu Öndər-Heydər Əliyevlə olan görüşümüzü heç vaxt unutmaram. Çünki bu görüşdə Naxçıvan abidələri və xüsusi ilə Möminəxatun türbəsi haqqında Məşədixanımın çıxışı Ulu öndər tərəfindən çox rəğbətlə qarşılandı və ondan ruhlanan Ulu öndər özü Haxçıvan abidələrinin tarixi və elmi əhəmiyyətindən də xeyli danışdı və yeri gəldikcə Məşədixanımın bu barədə gördüyü işləri də dəyərləndirdi. Bütün bu işləri nəzərə alan və "Azərbaycanda epiqrafik irsin tədqiqi sahəsindəki xüsusi xidmətlərinə görə" Azərbaycan Respublikasının Prezidenti 4 mart 2009-cu il tarixli sərəncamı ilə onu "Şöhrət" ordeni ilə təltif etmişdir. -Mən də öz növbəmdə, Məşədixanımı Azərbaycan elminin milli sərvəti hesab edirəm**.**

**Vəfa QULIYEVA**

*Tarix elmləri doktoru*

## MƏŞƏDİXANIM NEMƏTİN AZƏRBAYCAN TARİXŞÜNASLIĞINA VERDİYİ TÖHFƏLƏR



***Məşədixanım Nemətin qızı Vəfa Quliyeva***

Məşədixanım Nemət 1948-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasında çalışır. Aspirantdan tarix elmləri doktoru səviyyəsinə kimi öz zəhmətinin nəticəsində ucalmışdır. N.Nemət tarixin ən çətin elm sahəsi olan epiqrafika ilə məşğul olur və bütün mənalı ömrünü bu işə sərf etmişdir. Onu da qeyd etmək lazımdır ki, bu sahədə işləyən tədqiqatçının iş laboratoriyası rahat otaqlarda deyil, açıq səma altındadır (şəkil 1). Bu laboratoriyaya gedən yollar bəzən uçurumlu dağlardan keçir, saatlarda nərdivan başında, ot basmış ilanlı-cilanlı orta əsr qəbristamlıqlarında qızmar günəş altında işləyib dəridən-qabıqdan çıxmalı olursan.



***Şəkil 1***

Epiqrafist ərəb-fars dillərini, kitabələrin müxtəlif elm sahələrinə aid qarşıya qoyduğu problemələri bilməlidir ki, orta əsr qəbristanlıqlarında yüzlərlər məzar daşından elmə lazım olanını seçə bilsin (şəkil 2).



***Şəkil 2***

Belə bir mütəxəssisi heç bir təhsil müəssisəsi yetişdirmir. Bu yola vergili insandır. Məhz qeyd olunan çətinliklərə görə, bütün dünya üzrə, ərəb qrafikası ilə yazılmış kitabələri oxuyanlar barmaqla sayılır .

1976-cı ildə Moskvada çapdan çıxmış "İstoriçeskaya ensiklopediya" da prof. V.A.Kraçkovskayanın məqaləsində dünyada son 200 ildə epiqrafikayla məşğul olanların adları sadalanır. Bunlardan X.D.Fren, N.M.Xanıkov (Rusiya); M.Amari (İtaliya); O.Tixsen (Prusiyya); F.Kaderov (İspaniya); A.Şevçenko, Ş.Bosselar, R.Vasse (Fransa) və bir neçə sovet alimlərinin, o cümlədən M.Nemətin də adı qeyd olunmuşdur. Bu təsadüfi hal deyil. M.Nemətin bu elm sahəsində çox ciddi tədqiqatçı olduğunu zəngin ənənələrə malik olan rus şərqşünaslıq elmi artıq XX əsrin 70-ci illərində qəbul etmişdir. Hal-hazırda Azərbaycanda epiqrafıka sahəsində söz deyəcək yeganə alim M.Nemətdir (şəkil 3).



***Şəkil 3***

60 illik elmi fəaliyyəti dövründə Azərbaycanın bütün tarixi ərazisini indiki Ermənistan, Dağıstan, Gürcüstanı qədəm-bə-qədəm gəzərək, ərəb qrafikasının mürəkkəb oxunan, ərəbin özünün indi oxuya bilmədiyi, kufi kitabələrini araşdıra-raq oxumağa müvəffəq olmuş və onların tarixi əhəmiyyətini müəyyənləşdirmişdir.

Ərəb-fars-türk dillərində dədə-babalarımızın daşlara həkk etdikləri daş salnamələrin ağır səhifələrini vərəqlədikcə Azərbaycanın iqtisadi-siyasi, sosial-mədəni tarixi, memarlıq, sənətşünaslıq, filologiya, islam fəlsəfəsi - sufizm, toponimika, etnoqenez və s. bu kimi problemlərə dair külli miqdarda yeni, bəzən hətta yeganə və ən dəqiq sənədlərlə Azərbaycan tarixşünaslıq bazasını zənginləşdirmişdir. Minlərlə epiqrafik abidələrini tədqiq edib, ondan 5 mindən artığını toplayıb, oxuyub və onların tarixi əhəmiyyətini müəyyənləşdirmişdir. Bu elmi fəaliyyətin nəticəsi kimi 12-dən artıq monoqrafiya, 200 elmi məqalə, o cümlədən, 6 cildlik “Azərbaycanın epiqrafik abidələrinin toplusunu” nəşr etdirmişdir.

M.Nemət epiqrafikam bir fənn kimi respublikada yaratmış, epiqrafik abidələrin aşkar edilməsi, toplanması, tərcümə edilməsi və çap olunmasından əlavə çoxillik tədqiqatları nəticəsində aşkar olunmuş epiqrafik abidələri bir tarixi mənbə kimi Azərbaycan tarixinin müxtəlif konseptual problemlərinin tədqiqinə cəlb etmişdir.

M.Nemətin bu sahədə etdiyi elmi kəşflər içərisində Urud kəşfləri siyasi baxımdan ən qüdrətlisidir. Urud abidələri bizə torpaq iddiasında olan bədnam qonşularımıza tutarlı cavabdır. Zəngəzurun Urud kəndindəki 1961-ci ildə kəşf etdiyi XIV-XVII əsrlərə aid qoç heykəlli və sənduqə formalı məzar daşlarının ikisinin üzərində yazılmış “Avladi avğvan”– “alban övladlan” sözləri Zəngəzurda yaşamış alban tayfalarının türkləşməsini və islamı qəbul etməsini təsdiq edir. Abidələr üzərindəki qədim türk tayfalarına məxsus onqonların (tanrıların) təsviri - maral üzərində oturdulmuş ov quşları, Tibet yak öküzləri, şaman təsvirləri onların hələ islamı qəbul etməzdən çox-çox əvvəl türkləşməsini göstərir. Onlar islamı qəbul etdikdən sonra bir müddət qədim inamlarını saxlamış, sonra isə bu onların təsviri sənətinə keçmişdir.

Urud kəşflərinə qədər tarixi ədəbiyyatda belə bir fikir mövcud idi ki, xristian olan alban tayfaları xilafətin Qafqazı istilası zamanı islamı qəbul etməsinlər deyə qriqoryan xaçını qəbul edib erməniləşdilər, gürcü xaçını qəbul edib gürcüləşdilər. Urud abidələri indiyə qədər tarixi ədəbiyyatda mövcud olan türk elementinin Qafqaza gəlmə olduğu konsepsiyasını alt-üst etdi və sübut etdi ki türklər Qafqazın köklü aborigenləri olmuşlar. Ermənilər cavab olaraq orta əsr qəbristanlığını şumlayıb, abidələri dağıtdılar.(“Azərbaycanın epiqrafik abidələrinin toplusu” üçüncü cild).

Bu elmi kəşf ümummilli lider Heydər Əliyev tərəfindən də maraqla qarşdanmışdır. O, 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi ilə əlaqədar Dövlət Komissiyasının iclasında M.Nemətin çıxışını diqqətlə dinləyərək, Azərbaycan tarix elmi qarşısında mühüm və ümdə vəzifə qoymuşdur: “Biz ermənilərin bütün bu iddialarının əsassız, uydurma olduğunu

beynəlxalq aləmdə sübut etməliyik. Bunun üçün əsaslı sənədlər, fundamental elmi, populyar əsərlər yaranmalıdır. Biz Azərbaycanın ərazi bütövlüyünü nəinki yaşadığımız indiki illərdə, gələcək nəsillər üçün də qoruyub saxlamaqdan ötrü çox güclü bir konsepsiya yaratmalıyıq. Bundan sonra da elə əsərlər yaratmalıyıq ki, o əsərlər indi Ermənistan Respublikası yerləşən həmin torpaqların Azərbaycana məxsus olmasını daim, ardıcıl surətdə sübut etsin". (Respublika qəz., 11 fevral 1999, №29(493)).

Epiqrafik abidələrin zəngin və dəqiq mənbə olduğunu ümümmilli lider Heydər Əliyev 70-80-ci illərdə AKP-nın birinci katibi vəzifəsində işləyərkən vurğulamışdı. Mədəni irsin qorunması, bərpası və istifadə edilməsinə dair qəbul etdiyi qərarda (1981-ci il qərarı) epiqrafik abidələrin toplanması və pasportlaşdırılması işini xüsusi bəndlə vurğulamışdı. M.Nemətin altı cilddə nəşr etdirdiyi "Azərbaycanın epiqrafik abidələrinin toplusu" qoyulan vəzifəni yerinə yetirib.

Qeyd etməliyəm ki, bizə qarşı torpaq iddiası ilə çıxış edən tək erməni deyil. Gürcü tədqiqatçıları tlisu sultanlarının Gürcü İlisen mauravlannın davamçıları, avarlar isə onları avar olduqlarını sübut etməyə çalışırlar. M.Nemət İlisu Came məscidinin kitabəsində onların ərəb sərkərdəsi Əbu Məbran nəslindən, İlisu sultanlarının məzar daşlarında olan kitabələrə əsasən onların Əlibəy Şami (Suriya) övladları olmalarını sübut etmişdir.

Ərəb sərkərdəsi Əbu Müslüm xilafətin Qafqazı İstila¬sından sonra Suriyadan qohumlarını Qafqaza köçürüb hərəsini bir əyalətə hakim təyin etmişdi. Sonra isə Azərbaycan ərazisinə köçürülmüş ərəblər assimilyasiyaya uğrayıb türkləşdilər. Azərbaycanda Ərəb-Bəsrə və s. ərəblərlə əlaqədar kənd adlan indiyə kimi mövcuddur Beləliklə, İlisunu-İlisen, Qaxı-Kaxetiya adlandırılanlara da tutarlı cavablar verilmişdi. ("Azərbaycanın epiqrafik abidələrinin toplusu" ikinci cild).

M.Nemət Azərbaycanın tarixi ərazisi olmuş, Şirvanşahlar dövlətinin tərkib hissəsi, 1920-ci ildə Rusiya Federasiyasına birləşdirilən Cənubi Dağıstanın Dərbənd daxil olmaqla epiqrafik abidələrini tədqiq etmişdir. ("Azərbaycanın epiqrafik abidələrinin toplusu" dördüncü cild) Bu abidələr Azərbaycanın Samur çayına qədər tarixi ərazisini müəyyənləşdirir (şəkil 4).



*şəkil 4*

Digər mühüm kəşflərdən biri Zəngəzur, Laçın, Kəlbəcər, Gürcüstanda Armazisxevidə, Qobustan tərəfdəki Qarabağ və digər qəbristanlıqlarda aşkar etdiyi XIV-XIX əsrlərə aid at və qoç heykəlli və başdaşı formalı məzar daşlarında türk tayfalarına məxsus tamqaların, şamanların təsvirləri əsasında Cənubi Qafqazda türk tayfalarının yayılma arealını və beləliklə, Azərbaycanın tarixi ərazisini müəyyənləşdirmişdir (şəkil 5).



***şəkil 5***

M.Nemətin elmdə etdiyi kəşflərdən biridə Erməni tarixşünaslığında orta əsr mənbələrini təhrif edərkən Abşeronda ermənilərin yaşaması haqqında yanlış fikirlər irəli sürülür. Mənbələrdəki “xristian” sözü “erməni” sözü ilə əvəz olunur və Abşerona da öz iddialarını bildirirlər. M.Nemət, XIII-XIV əsrlərə aid Abşerondakı (Buzovna, Şağan, Yeni Suraxana) üç xristian abidəsi üzərində ərəbcə yazılmış kitabələrə əsasən xristian Suriya nəsranilərinin Abşeronda yaşamalarını, türkləşmələrini və Azərbaycan xalqının təşəkkülündə iştirak etmələrini sübut etmişdir.(“Azərbaycanın epiqrafık abidələrinin toplusu” birinci cild).

M.Nemət Azərbaycan ərazisində apardığı 60 illik tədqiqatlarını yekunlaşdıraraq «Azərbaycanın epiqrafık abidələri» toplusunu VI cilddə nəşr etdirmişdir. I-ci cild Bakı-Abşeronun ərəb-fars-türk dilli kitabələri (XI-XX əsrin əvvəli). Bakı, 1991. 416 səh. (dövlət tərəfindən nəşr edilib), II-ci cild Şəki-Zaqatala bölgəsinin ərəb-fars-türk dilli kitabələri (XIV-XX əsrin əvvəli). Bakı, 2001. (Heydər Əliyevin göstərişi ilə Fatma xanım Abdullazadə tərəfindən nəşr olunub), III-cü cild Naxçıvan Muxtar Respublikasının ərazisin¬dəki ərəb-fars-türk dilli kitabələr (XII-XX əsrin əvvəli). Bakı, 2001. 212 səh.( Fleydər Əliyevin göstərişi ilə Fatma xanım Abdullazadə tərəfindən nəşr olunub), IV-cü cild. Quba-Xaçmaz Cənubi Dağıstanın ərəb-fars- türk dilli kitabələri (VIII-XX əsrin əvvəlləri). Bakı, “Nurlan”, 2008. ( öz vəsaitinə), V-ci

cild. Şirvan, Gəncə, Ağdam, Fizuli, Şuşa, Zəngilan, Cəbrayıl, Laçın, Kəlbəcər və başqa rayonlann ərəb-fars-türk dilli kitabələri (XI-XX əsrin əvvəlləri) Bakı, 2011. 322 səh.(öz vəsaitinə), VI-cı cild. Mis qablar, silahlar, bayraqlar üzərindəki ərəb-fars dilində olan kitabələr (XVII-XIX əsrlər). Bakı, 2011. 232 səh.( öz vəsaitinə).

Toplunun beşinci cildi bütün işğal altında olan ərazilərin Ağdam, Fizuli, Cəbrayıl, Zəngilan, Qubatlı, Laçının epiqrafik abidələridir. Ermənilər Azərbaycanın 20% torpaqlarını işğal edərkən orada yerləşən bütün maddi-mədəniyyət abidələrinə də təcavüz ediblər. 20 ildən artıqdır ki bizim ayağımız o torpaqlardan çəkilib və abidələrin çoxu da yəqin ki dağıdılıb. Bunu düşünəndə M.Nemətin xalqına verdiyi töhfənin dəyərini müəyyənləşdirmək çətindir. Toplunun V-ci cildi bu torpaqlara bizə vətəndaşlıq hüququ verən pasportumuzdur desək yanılmarıq. Toplunun VI cildi mis qablar üzərindəki yazılardır. Bilirsiniz ki, Azərbaycan xalqının zəngin mədəniyyətinin nümunələri olan bu nadir sənətkarlıq əsərləri bir çox Avropa və Rusiya muzeylərində başqa millətlərə məxsus olan maddi-mədəniyyət nümunələri kimi sərgilənir. M.Nemətin tədqiqatı sübut edir ki, bu zəngin xəzinənin yaradıcısı Azərbaycan xalqıdır.

***Mənalı ömür sürmüş alimin bu gün***

***"Var idim izim qaldı, od idim közüm qaldı,***

***əsrin daş yaddaşında mənim də sözüm qaldı"***

-deməyə mənəvi haqqı var.

**Könül İMAMVERDİYEVA**

k.imamverdiyeva@gmail.com

**Tarix üzrə fəlsəfə doktoru, Dövlət Bayrağı Muzeyinin direktoru**

# TARİXİN DAŞ YADDAŞINDA İZ QOYAN GÖRKƏMLİ ALİM



***M. Nemətin yetirməsi Könül İmamverdiyeva***

Azərbaycan elminin görkəmli nümayəndələrindən biri olan, böyük alim, ziyalı qadın Məşədixanım Nemətin həyatı və zəngin elmi fəaliyyəti hər zaman dərin hörmətlə yad edilir. Görkəmli alimin Azərbaycan elminə verdiyi dəyərli töhfələr danılmazdır. Ömrünü tarix elminin çox çətin sahəsi olan epiqrafik abidələrin tədqiq edilməsinə həsr etmişdir. Tarix elmləri doktoru, AMEA-nın müxbir üzvü, "şöhrət" ordenli Məşədixanım Nemət tərəfindən epiqrafik abidələrin fundamental tədqiqi Azərbaycanın orta əsrlər dövrünün öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. Məşədixanım Nemət 2500-dən artıq epiqrafik abidə toplanması kimi çətin işin öhdəsindən uğurla gələrək, Abşeron, Şirvan, Muğan, Qarabağ, Naxçıvan, Gəncəbasar, Dərbənd, Qərbi Azərbaycan və Gürcüstanın abidələrini tədqiq etmişdir. O, yüksək peşəkarlığı və elmi inadkarlığı sayəsində qədim Azərbaycan torpağı olan Zəngəzur abidələri (Urud abidələrini) tədqiq edərək bu ərazinin tarixi Azərbaycan ərazisi olduğunu erməni tarixçilərinə dəqiq faktlarla sübut etmişdir. Görkəmli alimin tədqiqatları sayəsində Azərbaycan ərazisində sufi mərkəzlərinin fəaliyyətini müəyyən etmək mümkün olmuşdur. Məşədixanım Nemətin elmi tədqiqatları

nəticəsində Azərbaycanda sufi təriqətlərinin geniş yayıldığı və sufi ideyalarının islam dünyası ilə sıx əlaqədə olduğu müəyyən edilmişdir. Məşədixanım Nemətin rəhbərliyi altında AMEA Arxeologiya və Antropologiya İnstitutunda fəaliyyətim dövründən onu sözün əsl mənasında qayğıkeş, cəsarətli və müdrik insan, dəyərli ziyalı kimi xatırlayıram. Mən ondan həyatda səbrli olmağı, dözümlülüyü, gördüyün işi sevməyi öyrənmişəm. Məşədixanım Nemətin şərəfli ömür yolu və elmə verdiyi töhfələri,gördüyü nəhəng işlər, yazdığı fundamental əsərlər onu əbədiyaşar, ölməz edir.

**Nərgiz ƏLİYEVA**

***Milli Azərbaycan Tarixi Muzeyinin Azərbaycan***

***tarixinin elmi tədqiqi və təqdimi şöbəsinin müdiri,***

***tarix üzrə elmlər doktoru***

nargiz.aliyeva.52@mail.ru

# ORTA ƏSR AZƏRBAYCAN ABİDƏLƏRİNİN TƏDQİQİNDƏ EPİQRAFLARIN ROLU



***Tarix üzrə elmlər doktoru Nərgiz Əliyeva***

**Giriş:** XVIII-XIX əsrin əvvəllərində ərəbşünaslıq şərqşünaslığın bir qolu kimi ərəbdilli xalqların tarix və mədəniyyətini öyrənən bir elm kimi hələ dar çərçivədə qalmaqda idi. Azərbaycan ərəbdilli xalqlardan olmasa da orta əsrlərdə Xilafət tərkibində ərəbdilli xalqları bir müsəvidə birləşdirmiş Xilafətin mədəni həyatında böyük rola malik idi. Ziyalılarımız elmi əsərlərini bu dildə yazır, epiqrafik abidələrimiz də sözsüz ki, bu dildə yazılırdı. Orta əsr Azərbaycanın maddi-mədəniyyət abidələri üzərindəki yazılar, o cümlədən, müsəlman memarlığına aid materiallar ilk öncə xarici şərqşünas alimlər təfəfindən öyrənilməyə başlamışdır.

**Xarici şərqşünas epiqrafçıların fəaliyyəti:** Azərbaycan abidələrinin öyrənilməsində ilk fateh kimi Mirzə Kazım bəylə birlikdə akademik Xristian Frenin böyük fəaliyyətini qeyd etmək lazımdır. Peterburq Elmlər Akademiyasının əsasını qoyan və ilk direktoru akademik Xristian.Fren (1782-

1851) əsasən şərqşünaslıq və numizmatika elmində böyük xidmətləri olan alimdir. Onun əsas elmi əsərləri içərisində orta əsr şərq numizmatikası və mənbəşünaslıqla bərabər epiqrafikaya həsr olunmuş əsərləri böyük əhəmiyyət kəsb edir. Epiqrafçı alim Malta adasındakı XII əsrdə kufi xətti ilə yazılmış qəbir abidəsinin kitabəsi ilə bərabər Dərbənd və Naxçıvan abidələri üzərindəki yazıları tərcümə və nəşr etdirmişdir.

XIX əsrə qədər gəlib çatmış abidələrin kitabələri üzərində tədqiqat işlərini digər rus şərqşünasları Nikolay Xanıkov(1822-1878) , əslən alman olan Bernqart Dorn (1805-1881) , İlya.Berezin (1818-1896) , İvan Bartolomey (1813-1870), Leonid Lavrov(1909-1982) vasitəsilə davam etdirilmişdir. N.Xanıkov Naxçıvan və Bərdə abidələri, B.Dorn Şirvan, İ.Beryozin isə Dərbənd və Bakı abidələri haqqında məlumat vermişlər. Bu alimlərin fəaliyyəti Azərbaycan epiqrafikası üçün böyük əhəmiyyət daşıyır. Həmin abidələrin vaxtilə bu şərqşünaslar tərəfindən öyrənilməsi Azərbaycan tarix elmi üçün böyük əhəmiyyət kəsb edir.Çünki, bu abidələr vaxtı ilə mövcud olmuş, lakin sonradan itib getmişdir.

Daş üzərinə imza atmış bəzi şəxsiyyətlərin kimliyinin üzə çıxarılmasında B.Dornun böyük rolu olmuşdur. Xüsusilə, B.Dornu Şirvanşahlar dövrünü əhatə edən kitabələr maraqlandırırdı. Dorn Şeyx Şərif, Şərif Əli, Əsgər Əli və Əbdül Əli kimi şəxsiyyətlərin adlarının oxunmasına da iştirak etmişdir. Bu şəxslər Bakı şəhərinin hörmətli tanınmış müsılman ruhanilərindən olmuşdur. Şah Abbasın fərmanında onların adları qeyd olunur. Onlardan birinin adı isə həm də Bakıdakı Bibi -Heybət məscidinin yeni tikintisi vaxtı onun darvazasındakı kitabədə həkk olunmuşdur. Qafqaza səyahət edən B.Dorn səyahətindən sonra nəşr etdiyi tədqiqat əsərində öz əksini tapır. Onun 1861-ci il Qafqaz səfəri haqqındakı hesabatında və Atlasında Aqbil türbəsi kitabələri haqqında da məlumat verilir. Aqbil türbələrindən birinin kitabəsi SSRİ EA -nın Maddi-mədəniyyət tarixi İnstitutu Leninqrad şöbəsinin arxivində saxlanılır .

Rus şərqşünası İ.Berezin sə Azərbaycanın görkəmli görkəmli şəxsiyyətlərinin adlarının təyin edilməsinə xidmət etmişdir. Adı XVII əsrə aid daş kitabə vasitəsilə təyin olunan görkəmli şəxslərdən biri Şərif ibn Çeys Abiddir. Bakıda yaşamış və Şıx kəndi məscidi yaxınlığında basdırılmış seyid Fəzlullahın oğlu "seyidlərin dayağı" ləqəbini qazanmış Seyid İmamqulunun qəbrindəki yazı da İ.Beryozin tərəfindən oxunaraq təyinatı verilmişdir .

Şah Abbasın fərmanında qeyd olunan Şeyx Şərif, Şərif Əli, Əsgər Əli və Əbdül Əli Bakı şəhərinin hörmətli tanınmış müsılman ruhanilərindən olmuşlar. Onlardan birinin adı Bakıdakı Bibi -Heybət məscidinin yeni tikintisi vaxtı onun darvazasındakı kitabədə həkk olunmuşdur.Qafqaza səyahət edən B.Dorn səyahətindən sonra nəşr etdiyi tədqiqat əsərində bu haqda məlumat vermişdir . Həmin türbələrin kitabələrini Azərb.SSR EA-nın baş elmi işçisi Ə.Ələsğərzadə də tədqiq etmişdir .

Azərbaycan abidələri üzərində kitabələrin öyrəniməsinə özü epiqraf olmasa da, böyük xidmətlər göstərmiş şərqşqnas numizmat İ.A.Bartolomeyi

(1813-1870) qeyd etmək lazımdır. Hərbi xidmət üçün 1850-ci ildə Qafqaza göndərilmiş Bartolomey hərbi tapşırıqla əlaqədar Qafqazın çətin keçilən yerlərində olmaqla ərəb kufi qrafikalı kitabələrin üzünün köçürülməsi, şəklinin çəkilməsi və estampının çıxarılması ilə ərəb epiqrafikasının öyrənilməsinə xidmət etmişdir. xidmət etmişdir .Onlardan biri Pir-Saat çayının sol sahilində yerləşən Pir Hüseyn xanəgahının kitabələri idi. Onun materiallarında Xanıkov dəfələrlə istifadə etmişdir. Bartolomey xanəgahla bağlı həmin vaxtlar görkəmli şərqşünas B.Dornla da yazışmalar aparır.Üç ildən sonra Pirsaat xanəgahına səyahət edən Dornun kitabələr üzərində bir neçə şərvanşahın adını təyin ona xanəgahın şirvanşahlar tərəfindən sevilən bir məkan olması qənaətinə gətirdi .

1941-ci ildə İkinci Dünya Müharibəsinə könüllü gedən L.Lavrov müharibədən qayıtdıqdan sonra elmi –tədqiqat işini davam etdirmişdir. Alimin emi fəaliyyətinin əsas istiqamətlərindən biri epiqrafik abidələrin (daş, keramika məmulatı, parça, metal və ağac üzərində, evlərin divarlarında, qala, məscid, türbə, qəbir abidələri) aşkar edilməsi və Şimali Qafqaz xalqları tarixi üzrə mənbə kimi tədqiq edilməsidir. 1967-ci ildə X-XIX əsr Şimali Qafqazın epiqrafik abidələri tarixi etnoqrafik mənbə kimi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etdikdən sonra Lavrov Şimali Qafqazın ərəb, fars və türk dillərində epiqrafik abidələrinin tərtibi və nəşrinə başlayır .

Dərbənli epiqrafik abidələr əsasında öyrənən Əmmar Şıxsəidov bölgənin islamlaş¬ma¬sını əks etdirən silsilə əsərləri ilə şərqşünaslıq elminə öz töhfəsini vermişdir. Müəllif Dərbənd tarixinə həsr etdiyi əsərlərində islamın hansı ictimai-iqtisadi və siyasi şəraitdə yayılması, onun mərhələləri, daşıyıcıları, yeni dinin sosial mahiy¬yə¬ti tədqiqat süzgəcindən keçirilərək oxuculara çatdırır.

Müəyyən vaxtlarda Tiflis şəhərində Tiflisin mərkəzində təsadüf nəticəsində aparılan qazıntılarda ərəb dilində yazılan kitabələr də üzə çıxır. Bunların ən qədimi hicri I əsrə-miladi VII əsrə-müsəlmanların ilk yürüşləri dövrünə aiddir və Tiflisin mərkəzində Seyidabad ərazisində tapılmışdır . Digər əhəmiyyətli kitabə h.III, miladi IX əəsrə,853-cü ilə aid Diqem düzənliyindəki Maçxan kilsəsinin divarında Tiflis əmirinin məmuru Huməd ibn Kitrin adının yazıldığı kitabədir . 2012-ci ildə Tiflisin Puşkin küçəsində qala divarlarının yanında gedən yol-təmir tikinti işləri zamanı yer altında qala divarlarının bir hissəsi ilə yanaşı üzə çıxan bir kitabə isə hicri II əsr(miladi VIII əsr) kitabəsidir. Kitabə kufi əlifbası ilə yazılıb.Nöqtəsiz və hərəkəsizdır. Qismən xətər görmüşdür .

**Milli epiqrafçılar haqqında:** Milli tarixşünaslıqda orta əsrlər Azərbaycanının sosial-ictimai həyatında rol oynamış görkəmli şəxslər haqqında məlumatların əldə edilməsində dini təsisatlar və qəbir abidələrinin böyük rolu vardır. Orta əsrlər Azərbaycan mədəniyyətinin öyrənilməsi sahəsinə aparılan tədqiqatlarda arxeolaqlarla bərabər epiqrafçı alimlərin böyük rolu olmuşdur. Azərbaycanlı epiqrafçılar hələ XX əsrin 20-ci illərindən başlayaraq Azərbaycan ərazisində epiqrafik abidələrinin öyrənilməsinə başlamışlar. Tədqiqatçı İ.Əzimbəyov 20-ci illərdə Naxçıvan ərazisində yerləşən bir neçə

abidəyə baxış keçirmiş, onlardan bir neçəsinin kitabəsi ilə tanış olmuş və oxumuşdur .

Yevgeniy Paxomov da yaradıcılığının ilk illərində yazdığı "Zaqafqaziyasda (Cənubi Qafqazda –N.Ə.) abidələr üzərində kitabələrin nəşr olunmasının vaciblilyi" adlı məqaləsində Qafqaz və o cümlədən Cənubi Qafqazın epiqrafik sənədlərin sayının çoxluğuna, növünün müxtəlifliyinə, dilinə və əhatə etdiyi dövrüə görə fərqləndirərək xəzinə adlandırdığı bölgə abidələri üzərindəki kitabələrin qeydə alınaraq toplanması məsələsinin vacibliyini bir problem kimi qaldırmışdı. O qeyd edirdi ki, böyük sürətlə inkişaf edən sosialist quruculuğu üzərində abidələr olan ərazilərdə özünün təsərüüfatının yüksəltmək üçün həmin abidələri sökülərək dağıdılması qaçılmazdırr. Onlardan yalnız elmi əhəmiyyəti olan nadir nümunələr saxlana bilər. Bu problem haqqında Dövlət orqanlarına müraciət edilmiş, hətta ikinci dərəcəli abidələrin qeydiyyatı aparılmışdı. Epiqrafik abidələri müxtəlif qruplara bölən müəllif göstərirdi ki, Cənubi Qafqazın ərəbdilli kitabələri açınacaqlı vəziyyətdədir. Paxomov məqaləsində göstərirdi ki, Sovet dövrünə qədər ərəbdilli kitabələrin oxunması ilə yerli Qafqaz mühitində az məşğul olurdular ,bəzi gəlmə rus tədqiqatçıları N.Xanıkov, İ.Berezin,B.Dorn və X.Fren məşğul olmuşdur ki, onların da aşkar edərək təyinatını verdikləri abidərin sayı 20-30-dan çox deyil . Müəllif elmi əsərində ərəb kitabələrinin ərazi cəhətdən daha çox Şərqi Azərbaycanda və Naxçıvanda yayıdığı haqqında məlumat verir.

Dini müəssisələr, o cümlədən türbə və xanəgahlar haqqındakı məlumatların, tikilmə tarixlərininin dəqiqləşdirilməsi bu müəssisələrin kim tərəfindən və kimin üçün tilikməsi məsələlərinin araşdırılmasında tarixi qaynaqlarla bərabər epiqraqfik əsərlər də əhəmiyyətlidir.

Milli tarixşünaslıqda orta əsr mənbələrinin məlumatlarının dəqiqləşdirilməsi məsəlsində Milli tarixşünaslıqda epiqraf alim Ə.Ələsğərzadənin rolunu xüsusi qeyd etmək lazımdır. Ə.Ələsğərzadə X.Fren, N.Xanıkov və bir sıra səyyahların Orta Şərqin ən gözəl incilərindən biri sayılan Atabəy və Möminə xatun türbələri haqqındakı məlumatlarını dəqiqləşdirərək türbənin Şəmsəddin Eldəgizin oğlu Məhəmməd Cahan Pəhləvan tərəfindən arvadı Möminə xatunun şərəfinə tikdirdiyini, mənbəşünas tarixçi alim R.Məmmədov isə qaynaqlar vasitəsilə Möminə xatunun kimliyini üzə çıxarmış, onun Məhəmməd Cahan Pəhləvanın arvadı olduğunu tarixi qaynaqların təsdiq etdiyini göstərmişdir .Bu isə epiqrafçı və mənbəşünas alimlərin Azərbaycan tarixinin tədqiqində bir-birlərini tamamladıqlarını göstərir.

Epiqrafik abidələr üzərində müntəzəm olaraq çalışan Ələsgərzadə tərəfindən bir sıra kitabələr oxunmuşdur. Onların arasında Məhəmməd məscidinin kufi xətlə yazılmış kitabəsi xüsusi yer tutur .Kitabə haqqında məlumat 1947-ci ildə Mockva, Leninqrad və Bakıda çap olunmuşdir. XII əsrdə şəhər qalasının tikilməsi haqqnda məlumatın əks olunduğu haqqında məlumat verən daş kitabə Azərbaycan tarixinin az örənilmiş sahəsinə aydınlıq gətirilməsi üçün əhəmiyyət daşyır. Yenə də XX əsrin 40-cı illərində

Ə.Ələsğərzadənin gərgin əməyi sayəsində daha bir neçə epiqrafik abidənin kitabəsi oxunaraq “Xəbırlər” də nəşr edilmişdirn. Müəllifin memarlıq abidələri üzərindəki yazıların oxunaraq tədqiq edilməsi nəticəsində abidələrin yaşlarını, kim tərəfindən tikilməsi və hansı ustalar tərəfindən həyata keçriklməsi haqqında verdiyi məlumat yazılı mənbələrin dəqiqləşdirilməsində böyük rolu vardır. Epiqrafik abidələr üzərində Əjdər Ələsgərzadənin başladığı araşdırmalar ( şəkil 1) , Məşədixanım Nemət, Hacıfəxrəddin Səfərli , Həbibə Əliyeva davam etdirmişdir.





***Əjdər Ələsgərzadə*** ***Məşədixanım Nemət***





***Hacıfəxrəddin Səfərli*** ***Həbibə Əliyeva***

Epiqrafçılar arasında Məşədixanım Nemətin beş cildlik əsərini xüsusi qeyd etmək lazımdır. Əsərin birinci cildi Bakı və Abşeronun X-XX əsrin əvvəlləri ərəb, fars və Azərbaycan dillərində 400-dən yuxarı epiqrafik abidəni əhatə edir. Onların çoxu müəllifin özünün qeyd etdiyi kimi onun tərəfindən ilk dəfə olaraq oxunmuşdur. Əvvəllər nəşr edilmiş bəzi mətnlərin tərcüməsinə isə yenidən baxılmış və bəzi dəyişikliklər edilmişdir.

Məşədixanım Nemətin 1980-1990-ci illərdəki tədqiqatları nəticəsində aşkar olunmuş epiqrafik abidələr bir tarixi mənbə kimi Azərbaycan tarixinin müxtəlif konseptual problemlərinin tədqiqində çox mühüm rol oynayır. Azərbaycanın tarixi ərazisi problemi, Azərbaycan xalqının təşəkkülü, toponimlərin Azərbaycan ərazisində yer adlarının yaranma tarixi, müsəlman ruhanilərinin Azərbaycanın sosial-siyasi, mədəni həyatında rolu və mövqeyi

problemi, Azərbaycanda sufizm, bədii daşyonma sənəti məktəbləri və s. problemlərin tədqiqində Məşədixanım Nemətin 60 illik elmi fəaliyyəti əvəzolunmaz mənbədir .

Bu fədakar alim Azərbaycan bölgələrində tapılmış maddi mədəniyyət abidələri üzərindəki epiqrafik yazıların tərcüməsi verilməklə tədqiqatını ömrünün sonuna qədər davam etdirmişdir . Müstəqillik illərində Məşədi Nemətin davamçısı Fəxtrəddin Səfərli orta əsrlərdən yadigar qalmış Naxçıvan abidərinin öyrənilməsnə öz töhfəsini vemişdir. Onun "Naxçıvan şəhərinin epiqrafik abidəkləri" əsərində göstərilən Naxçıvan şəhərində zəmanəmizədək gəlib çatmış memarlıq abidələrinin üzərində qalan kitabələrdən, həmçinin şəhərdə fəaliyyət muzeylərdə nümayiş etdirilən və təsadüfən aşkar edilən müsəlman epiqrafikası abidələrindən bəhs olunur.

**Nəticə:** Beləliklə, Azərbaycan tarixşünaslığnın aktual problemlərdən olan orta əsr şəhər məsdəniyyətinin öyrənilməsində epiqrafçıların fəaliyyəti də əhəmiyyət daşıyır. Azərbaycanın memarlıq abidələri və ayrı-ayrı tarixi şəxslərinin fəaliyyət göstərdikləri dövr haqqında məlumatların əldə olunmasında epiqrafçıların böyük rolu vardır. Epiqrafçıların araşdırmaları orta əsrlər Azərbaycan tarixinin tədqiqində mənbəşünas alimlərin verdikləri məlumatları bir növ tamamlayır və mənbələrin verdiyi məlumatın mötəbərliyinin üzə çıxarılmasına kömək edir.

## Ədəbiyyat siyahısı

1. Ələsğərzadə Ə. Yusif bin Kusəyr və Möminə xatun türbələrinin kitabələri. A.Bakıxanov adına Tarix İnstitutunun Əsərləri, I c., Bakı,1947.

2. Ələsğərzadə Ə.Azərbaycan memarlıq abidələrinin kitabələri.(X-XVII əsrlər).Azərb.SSR EA Tarix İnstitutunun elmi arxivi, inv.№ 1961.

3. Məmmədov R.A. Yaxın Şərq və Qərbi Avropa səyyahları Naxçıvan şəhərinin orta əsrlər tarixi haqqında // Az.SSR EA Xəbərləri, 1962, № 4.

4. Səfərli H. Orta əsrlərdə Naxçıvanın sosial –siyasi həyatında dini mərkəzlərin rolu.Bakı, "Elm", 2003.

5. Əliyeva H. Qurani Kərim və ərəb atalar sözü sənət nümunələri üzərində//Şəqşünaslığın aktual problemləri mövzusunda Respublika konfransının materialları. Bakı, 2003, s.211-214; Əliyeva H . Ağsunun epiqrafik abidələri (şəhər qəbiristanlığının XVIII əsrə aid ərəb və fars dilli kitabələri əsasında) // "Ağsu şəhəri orta əsrlərdə" kitab-albomu, III buraxlış, Bakı:CBS, 2010, səh. 250-279; Əliyeva H. 2018-ci ildə Şəmkir bölgəsinə təşkil olunmuş elmi səfərin nəticələri haqqında//Milli Azərbaycan Tarixi Muzeyi-2018 (məqalələr toplusu), Bakı: Elm, səh. 231-240; Əliyeva H. Şirvan memarlıq məktəbinin yadigarı Şaxəndan türbəsindəki məzar daşları "//Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti " Elm, Mədəniyyət və İncəsənətin Qarşılıqlı Əlaqəsi və Müasir Cəmiyyətin İnkişafında Rolu" III Respublika elmi-nəzəri konfransın materialları . Bakı, 2019. səh. 45-55; Əliyeva H, F.Xəlili. Basqal epiqarfikası,

Basqal Dövlət Tarixi –Mədəniyyət Qoruğu/ I Kitab-Albom. - Bakı : Elm və təhsil, 2019; Əliyeva H. Epiqrafika-ŞUŞA: tarixi –mədəni irsin tədqiqi. (hazirlayan: F.Xəllili), Bakı:” Elm və təhsil”, 2022 ; ŞUŞA: tarixi-mədəni irsin tədqiqi, Bakı: Elm və Təhsil, səh. 135-168

6. Məşədxanım Nemət. Daşlaşan sirlərin sirdaşı.B., Elm, 2009.

7. Məşədxanım Nemət. Quba, Xaçmaz və Qusar rayonlarındakı bəzi epiqrafik abidələr haqqında.Azərb.SSR EA Tarix İnstitutunun əsərləri, XIII c.

8. Səfərli F. Naxçıvan şəhərinin epiqrafik abidəkləri. Naxçıvan, Əcəmi Nəşriyyat Poliqrafiya Birliyi, 2019.

**Rus dilində:**

1. George Narimanaşvili, Heritage of arabik language in Sous Caucasus:Arabik İnskriptions from Trialeti//History reseaurch, July-Sep., 2016, Vol.6, №3.s.154: R.Mustafa-2019, s.295. 1. Азимбеков И. Мусульманские надписи Тифлиса, Эривани и Нах. ССР. Известия «Азкомстарис»а, вып. 4 (тетрадь 2), Баку, 1929, с.295-311.

2. Алескерзаде А.А. Надписи старинных архитектурных памятников Нахичеванского края. Изв. АН Азерб. ССР, 1949, № 5, с.151-168.

3. Алескер-заде А.А.Надписи архитектурных памятников эпохи Низами, ААЭН.-Москва-Ленинград,1947; Алескер-заде А.А. Надписи архитектурных памятников Азербайджана эпохи Низами /ААЭН, М.,-Баку, 1947.

4. Ашурбейли С.Очерки истории средневекого Баку, Б., 1964, с. 136.

5. Березин И. Арабские надписи Дербента. «Записки Санкт-Петербургского археологического и нумизматического общества».СПб., 1850, т. II, вып. I.; Березин И.Путешествие по Востоку. Т.П, Казан, 1852, с.67

6. Дорн Б.Отчет об ученом путешествии по Казказу и южному берегу Каспийского моря, СП б, 1861.

7. Дорн Б.Атлас к путешествию Б.Дорна по Кавказу и Южному побережью Каскийского моря, СПб,1861.

8. Крачковская В.А. Изразцы мавзолея Пир-Хусейна.Тбилиси, Изд-во Акад.наук Груз.ССР, 1946.

9. Лавров Л.И. Эпиграфические памятники Северного Кавказа. Надписи X—XVII вв., М., 1966; Лавров Л.И. Эпиграфические памятники Северного Кавказа. Надписи XVIII—XX вв., М., 1968; Лавров Л.И. Эпиграфические памятники Северного Кавказа. Надписи X—XX вв., Новые находки , М., 1980.

10. Маммаев М.М. Академик Христнан Данилович Френ (1822-1878) о Кубачинцах..Вестник Института ИАЭ,2009, № 1.

11. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. т. I., Баку, «Элм», 1991; Корпус эпиграфических

памятников Азербайджана. т. II., Баку, «Элм», 2001; Корпус эпиграфических памятников Азербайджана. т. II., Баку, «Элм», 2001; Корпус эпиграфических памятников Азербайджана. т. III., Баку, «Элм», 2001; Корпус эпиграфических памятников Азербайджана. т. IV, Баку, «Нурлан» , 2008; Корпус эпиграфических памятников Азербайджана. т. V, Баку, «Элм ва тахсил» , 2011.

12. Очерки истории Грузии( в 8-ми томах)Т.П. Грузия в IV-X веках/.Тбилиси-1988, с. 341.

13. Пахомов Е.А. О необходимости издания сборников надписей Закавказья // Изве- стия ... — Азербайджанский филиал АН СССР. Баку. АКД. — Автореферат ,1938.

14. Ханыков Н.В. Археологические открытия (известия о 12 мусульманских надписях в Закавказье), газ. «Кавказ»,1850, № 52-53; Ханыков Н.В. О некоторых арабских надписях в Дербенте и в Баку, ТВО, часть второя, 1856. НАИИ НАНА, ф. 1741

15. Шихсаидов А.Р. Ислам и исламская культура в Дагестане.Москва, «Восточная литература» РАН, 2001; Шихсаидов А.Р., Тагирова Н.А., Гаджиева Д.Х.Арабская рукописная книга в Дагестане. Махачкала, 2001.

**Firdovsiyyə ƏHMƏDOVA**

***AZƏRBAYCAN RESPUBLIKASININ PREZIDENTI YANINDA***

***DÖVLƏT İDARƏÇILIK AKADEMIYASININ***

***TARIX KAFEDRASININ MÜDIRI,***

***ƏMƏKDAR MÜƏLLIM***

fahmedova@rambler.ru

## DAŞDAN TARİX YAZAN TARİXDƏ YER ALDI



*T.ü.f.d. Firdovsiyyə Əhmədova*

Ayrı-ayrı fərdlərin fikri ictimai fikrin müəyyənləşməsinə nəinki təsirsiz qalmır, aparıcı şərtə belə çevrilir. Şəxsiyyətlər haqqında cəmiyyətdə oturuşmuş fikirlər də fərdlərin münasibətindən qaynaqlanır. Mən də bir fərd olaraq bir şəxsiyyət haqqında mülahizələrimi yazıram. Mənim münasibətimi paylaşan insanların çox olduğuna da şübhə etmirəm. Daşları danışdıran alim dedikdə ilk anda göz önünə cüssəli kişi görünüşü gəlir. Çöllərdə, məzarlıqlarda, açıq havada, günəş, yağış altında yorulmadan çalışan kişi. Mənim yazımın qəhrəmanı isə zərif, incə xanımdır.

Məşədixanım Nemətlə əyani tanışlığım 20 yaşını geridə buraxmışdır. Orta əsr tarixçisi, epiqrafika mütəxəssisi olmadığım halda Məşədixanımla ünsiyyətim ilk əvvəldən uğurlu alınıbdır. Müstəqil mövqeyi olan və mövqeyini bildirməkdən çəkinməyən cəsarətli bir qadın kimi təqdir edirdim. Elmə, biliyə qiymət verən, intizamlı, zəhmətkeş alim kimi dəyərləndirirdim. Haqqının tapdanmasına dözə bilməyən, tələbkar, mübariz vətəndaş kimi qiymətləndirirdim. Muzeydə işlədiyi müddətdə Məşədixanım Nemət kollektivin etimadını qazanmış, ali hörmət sahibi olmuşdur. Azərbaycanın, Qafqazın epiqrafik abidələrinə həsr etdiyi bölgələr üzrə kitablarının nəşri bir bayram ovqatı yaradırdı onda. Həmin kitablardan 3-nü mənə bağışlayıb.

Hədiyyə etdiyi kitabların üzərinə yazdığı ürək sözləri mənim üçün əvəzsiz xatirədir. Məşədixanım müəllimə (ona belə müraciət edirdim, 2 dəfə xanım deməmək üçün) mənim dissertasiya işimin müdafiəsində iştirakı ilə, dediyi xoş sözləri ilə bioqrafiyamda iz qoyan görkəmli şəxsiyyətlərdəndir. Çıxışlarıma (çox zaman radioda dinlədiyi) münasibət bildirməyi unutmurdu. Onun mənə bələd olan fəaliyyət xəttində bir nizam, bir sistem müşahidə etdim.

Məşədixanım Nemətin illər boyu apardığı tədqiqat işləri Azərbaycana qarşı erməni iddialarını ifşa etmək üçün əsaslı dəlil-sübutdur. Erməni tarixçilərinə gerçək tarixi söyləməyin nümunəsini verən Məşədixanım Nemət prezident Heydər Əliyevin hüzurunda bu xidmətlərini qürurla dilə gətirmişdi. Həmin dövrdə onun bu cəsarətli çıxışı bütün respublikada təqdir edilmişdi. Zabrat qəsəbə bələdiyyəsinin alimin şərəfinə düzənlədiyi ziyafətdə biz bu münasibətin şahidi olduq. El ağsaqqalının, uşağın, böyüyün, cüssəli mənsəb sahiblərinin bu zərif xanımı ayaqüstə alqışladıqlarını məmnuniyyətlə seyr etdik.

Çox ağır, məşəqqətli bir iş şəraitini özünə ömürlük peşə seçmiş bir qadın artıq təqdimatsız rəy formalaşdırmağa qadirdir:

***«İsti, qızmar günəş altı, uçurumlu dağ yolları,***

***Qalağanlı və tikanlı, ilan-çilan yurd yerləri.***

***Uca nərdivan başında bürclər, qala hasarında***

***Olmuş iş məskənim mənim, unutmayın bu halları».***

Məşədixanım Nemət məhz belə bir keşməkeşli yolu seçdi, öhdəsindən layiqincə gəldi, ömür imtahanından üzüağ çıxdı. Özünün yazdığı kimi, daşlarla ünsiyyət qurmuş tək-tək adamlardan oldu. Amma yox, çağdaş Azərbaycan tarixinin epiqrafika üzrə İlk alim qadını oldu. Vətən torpaqlarını qarış-qarış gəzmiş, yorulmaz, usanmaz alim qadını kimi yeganə oldu. Əməyinin qiymətini bilir, ona görə də haqsızlığa qarşı üsyan edirdi:

«***Bilməm ki, mən haqqı bizdən alan nədir?....***

***Buna qiymət verən yoxsa, daha bizə qalan nədir?»***

Məşədixanım Nemətin Hicran təxəllüsü ilə çap etdirdiyi şerlər kitabının xeyli hissəsi haqsızlığa üsyandır. Əgər «Seçib, daşdan tarix yazan, biganəlikdən sarsılır» deyirsə bu yalnız şəxsi etiraz deyil, ictimai xarakterlidir. «Türk baba»sının, «İslam yurdu»nun təəssübünü dəlil-sübutla, əsrlərin daş yaddaşını çözə-çözə çəkən alimin səbirli hayqırtısıdır. Ekspedisiyaların dayanmasını qınayan şerin hər bəndində tanınmış arxeoloqlarımızın hər birinə fərdi xitab edilir. Azərbaycan arxeologiyasının tədqiqat xəritəsini alimi ilə birgə vəsf edən Məşədixanım özünə məxsus mübarizə yolu seçmiş, tənqid hədəfini şer atəşinə tutmuşdur. Arxiv, nəşriyyat müdirlərini tənbeh edən yazıları da alimin vətəndaş mövqeyinin təsdiqidir, yurd sevgisinin təsbitidir.

Elə həmkarı akademik Ziya Bünyadovun xatirəsinə yazdığı mərsiyə də ictimai məzmundadır. «Şəhriyara nəzirə», «Arazla söhbət» və d. bu mövzuda yazdığı şerlər Cənub həsrətinin dil açmasıdırsa, «Göy-göl», «Qarabağ», «Şeyda Qərənfil» yurdumuzun gözəlliklərini və dərdlərini anlatmaq səyidir. Bir çox şerlərində Məşədixanım əməyə minnətdarlığını bildirir, kitabları həyatının mənası sayır.

Məşədixanımın Vətəni bütövdür, tamdır, Azərbaycanın parçalanmayan, qopmayan, bu günkü sərhədlərə sığmayan tarixi yurd elləridir. Azərbaycan daşının olduğu hər qarış onun üçün Vətəndir.

***«Əlimizdə pasportumuz, üzərində yazı olan Vətən daşı,***

***Azərbaycan torpağına kim sahibdir, kimdir onun vətəndaşı?...»***

sualının cavabını da özü verir:

***«Ən tutarlı sənəddir bil, babamızın, azərinin məzar daşı».***

Məşədixanımın məhəbbət ünvanlı poeziyası sərt peşə sahibinin incə duyğularından, həssas qəlbindən, sevgi dünyasından doğan şer Çələngidir. Məşədixanım çox səxavətli aşiqdir. Eşq ünvanı da çox şaxəlidir: Etibara, düz ilqara, işgüzara, əmək sevən yaxşı dosta, xoşrəftara aşiq olan Məşədixanım haqqında təqdimatı bir neçə kəlmə ilə ifadə etmək mümkündürsə:

***- İki əsrin canlı, sonrakı əsrlər üçün tarixdə yaşayacaq Azərbaycan alimi!***

***- Sağlığında klassikləşən epiqrafika mütəxəssisi!***

***- Zəhmətdən qorxmayan, özünə inamlı, özünə güvənli mübariz qadın!***

***- Azərbaycanı, Cənubi Qafqazı demək olar ki, qarış-qarış gəzmiş tədqiqatçı.***

***- Yağışda, küləkdə, istidə, soyuqda çölləri, məzarlıqları dolaşan qadın, peşəsindən usanmayan, işinin vurğunu olan, dəmir iradəli, zərif cüssəli xanım!***

***-Savada, zəkaya önəm verən, əməyinin dəyərini bilən elm xadimi!***

***Ömrü də, istedadı da Yaradan verir.***

***Verirsə Nemətdir, vermirsə Hikmət.***

***Məşədixanım Nemət birincilərdən oldu.***

Adında daşıdığı Nemət təsadüfi isim deyil. Tale yolunun dəyəridir.

**Maral POLADOVA**

*AMEA Nizami adına Ədəbiyyat İnstitutunun*

*Elmi nəşrlər və proqnozlaşdırma şöbəsinin baş mütəxəssisi*

## AMEA-NIN MÜXBIR ÜZVÜ, TANINMIŞ EPİQRAFİST ALİM MƏŞƏDİXANIM NEMƏTİN XATİRƏSİNƏ

### I. Daşları dindirən alim



***Maral Poladova***

Tarix elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü, "Şöhrət" ordeni ilə təltif olunmuş tanınmış epiqrafist alim Məşədixanım Nemət nəinki respublikamızda, hətta onun hüdudlarından çox-çox uzaqlarda da "Daşları dindirən alim" kimi tanınmışdı. 92 illik ömrünün 60 ildən çoxunu tarixi Azərbaycan ərazilərini qarış-qarış gəzərək ulu babalarımızın qoyub getdikləri izləri - daş kitabələr üzərində yazıları oxumağa həsr edən və 2500-dək abidə üzərində tədqiqat aparan Məşədixanım Nemətdən özündən sonrakı nəsillərə 6 cildlik "Azərbaycanın epiqrafik abidələr toplusu" kimi dəyərli bir xəzinə yadigar qalıb. Bu barədə söhbət düşəndə özü deyərdi ki, heç bir orta əsr tarixçisi bizim tariximizi yazıb qoymasa da, xalq özü başına gələn əhvalatları daşlara həkk etməklə, dövrünün ictimai-iqtisadi məsələlərinə, mədəniyyət tarixinə dair çox dəyərli və zəngin salnamələr miras qoyub.

Məşədixanım Nemətlə ilk tanışlığımız ötən əsrin 80-ci illərində, mənim çalışdığım "Elm və həyat" jurnalının redaksiyasında başlamışdı. Jurnala təqdim etdiyi məqalələri mən işləyib çapa hazırladığıma görə, tez-tez onunla əlaqə saxlamalı olurduq. Jurnalda "İzimizi itirməyək..." rubrikası altında çap olunan həmin məqalələr maraqla qarşılanırdı...

Redaksiyaya hər gəlişində şöbəmizdə yaranan canlanma onu hamıya doğmalaşdırmışdı. O qədər səmimi və mədəni insan idi ki, bizdən yaşca xeyli böyük olmasına baxmayaraq, hər kəsə "siz" - deyə müraciət edirdi. Bəzən

məqalələri elə "sapı özündən olan baltaların" - üzdəniraq həmkarlarının qısqanclıq zəminində yaranan iradları ilə qarşılansa da, bu səbirli, zəhmətkeş və öz işinin ustası olan alim xanım çox cəsarətli, faktlara söykənən cavabları ilə onları layiqincə susdura bilirdi.

Vaxtilə Azərbaycan torpağı olan Urud abidələrindəki kitabələri təhrif edərək, qəbiristanlığı darmadağın edən və Zəngəzurun heç vaxt Azərbaycan (Albaniya) torpağı olmadığını sübuta yetirməyə çalışan, "Böyük Ermənistan" xülyası ilə yaşayan dırnaqarası erməni tarixçilərini də məhz Məşədixanım Nemət susdura bilmişdi.

1999-cu ildə Naxçıvan Muxtar Respublikasının 75 illiyi ilə əlaqədar Dövlət Komissiyasının iclasında Məşədixanım Nemətin Urud abidələri haqqında çıxışı Ulu öndər Heydər Əliyevin də böyük marağına səbəb olmuşdu. Həmin çıxışdan sonra Heydər Əliyev demişdi: "Biz ermənilərin bütün bu iddialarının əsassız, uydurma olduğunu beynəlxalq aləmə sübut etməliyik. Bunun üçün əsaslı sənədlər, fundamental elmi-populyar nəşrlər yaranmalıdır. Biz Azərbaycanın ərazi bütövlüyünü nəinki yaşadığımız indiki illərdə, gələcək nəsillər üçün də qoruyub saxlamaqdan ötrü çox güclü bir konsepsiya yaratmalıyıq. Bundan sonra da elə əsərlər yaradılmalıdır ki, o əsərlər indi Ermənistan Respublikası yerləşən həmin torpaqların Azərbaycana məxsus olduğunu daim, ardıcıl surətdə sübut etsin".

Urud abidələri alban tayfalarının türkləşməsini, islamı qəbul etməsini sübuta yetirməklə bərabər, həm də o vaxta qədər tarixi ədəbiyyatda mövcud olan türk elementinin Qafqaza gəlmə konsepsiyasını alt-üst etdi. Sübut etdi ki, türklər Qafqazın köklü aborigenləri olublar. Məşədixanım Nemətlə nə qədər yaxın olsaq da, onun həyatı haqqında tam məlumatı yalnız onun 75 illik yubileyi ərəfəsində müsahibə alanda öyrənə bildim. Yazı hazırlamaq istəyimi biləndə, çox səmimiyyətlə razılıq verdi. Vaxtının azlığına görə sullarımı ona yazılı şəkildə təqdim etmişdim. Şəhərdə doğulub-böyüyən bir qızın elmin ən çətin sahəsini seçməyi, bu qədər ağır fiziki çətinliklərdən mərdliklə çıxması və uğur qazanması hər insana nəsib ola bilməzdi. Bunların öhdəsindən gəlmək üçün polad iradə və seçdiyi peşəyə dəlicəsinə bir sevgi olmalıdır insanda. Məşədixanımda bu keyfiyyətlər elə çulğalaşmışdı ki, bunu yalnız Ulu Tanrının möcüzəsi hesab etmək olardı...

Taleyinə yazılan uğurları özü də Tanrının ona bəxş etdiyi qeyri-adi töhfə hesab edirdi. Bəlkə də uşaqlıq illərinin acı olayları, ağılasığmaz faciələri onu belə mətinləşdirmişdi...

1924-cü ildə Bakının II Zabrat kəndində çoxuşaqlı ailədə dünyaya gələn bu qıza nənəsi Məşədi Səadətin adını qoysalar da, onu Məşədixanım deyə çağırardılar. Ona görə də 11 yaşında doğum haqqında şəhadətnamə alarkən, öz istəyilə adını Məşədixanım yazdırmışdı. O, hələ uşaqikən ailəsinin başına gələn müsibətlər həyatını paramparça etmişdi. Anadan yetim qalan bu qız çox keçmir ki, atasını da itirir. Kolxozlaşma başlayanda atasının var-dövlətini, torpaq sahələrini əlindən alırlar. Amma onu "kulak" kimi həbs etməyə imkan tapmırlar. Çünki hər şeyini itirmiş ailə başçısı bu dərdə dözə

bilmir, ürəyi partlayıb ölür.

Ata-anadan yetim qalan bacı-qardaşlar bir müddət ailəli olan böyük qardaşın himayəsində yaşamağa məcbur olurlar. Ailənin çətin dolanışığı 15 yaşlı Məşədixanımı işləyib pul qazanmaq, ailəyə kömək göstərməyə vadar edir. O, yaxın qohumlardan birinin köməkliyilə arteldə işə düzəlir (şəkil 1). Gündüz saat 2-də məktəbdən, gecə saat 12-də isə işdən evə qayıdır. Qazandığı 175 rubl pulla evə köməklik edir. Vəziyyətləri bir qədər yaxşılaşır. Amma 1941-ci ildə başlayan İkinci Dünya müharibəsinin gətirdiyi fəlakətlər onların ailəsindən də yan keçmir. Müharibəyə gedən qardaşın ailəsinin yükü də bu gənc qızın çiyinlərinə düşür. Sınaqlar bununla da qurtarmır. Bir gün işdən evə yorğun qayıdan Məşədixanım qardaşı arvadının (o, həm də xalası qızı idi) əmranə tələbi qarşısında çaşbaş qalır: "Ya mənim qardaşıma ərə getməyə razılıq ver, ya da səni evdən qovacam!" Məğrur, gənc və ağıllı qız isə özündən yaşca çox böyük olan xalaoğluna ərə getməkdənsə, evdən çıxıb getməyi üstün hesab edir...



*şəkil 1*

Məşədixanım danışırdı ki, 1918-ci ildə ermənilər Bakıda soyqırım törədərkən, Zabrat camaatı qaçıb canını qurtaranda, onun xəstə babası Nemət kişi evdən çıxa bilməyib və mənfur ermənilər xəstə qocanı doğrayıb öz həyətində basdırıblar. Bu hadisəni heç vaxt unuda bilməyən Məşədixanım ona görə də pasport alanda şəhid babası Nemətin adını özünə soyad götürüb.

Bütün uşaqlıq və gənclik illərini olmazın məşəqqətlərlə üzbəüz qalan Məşədixanım təhsilini heç vaxt unutmamışdı. Elə ona görə də 1943-cü ildə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinə daxil olmağı bacarmış və həyatının axarını yaxşılığa doğru dəyişməyə nail olmuşdu... Filologiya fakültəsində əla qiymətlərlə oxuyan Məşədixanım fars dilinə böyük həvəs göstərdiyinə görə, Şərqşünaslıq fakültəsinin o vaxtkı dekanı Mübariz

Əlizadənin köməkliyilə Fars şöbəsinə keçirilmiş və təhsilini davam etdirməklə bərabər, həm də fakültədə makinaçı vəzifəsinə də işə düzəlmişdi... (şəkil 2).



***Şəkil 2***

1948-ci ildə həmin fakültəni Fərqlənmə diplomu ilə bitirən bu istedadlı qız bir müddət də Azərbaycan Dövlət Radiosunun fars şöbəsində makinaçı işləyir (şəkil 3) .



***Şəkil 3***

Ömrü boyu çətinliklər məngənəsində sıxılaraq, polad kimi möhkəmlənən Məşədixanım Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunun aspiranturasına daxil olanda da, tarix elminin ən çətin sahəsini - epiqrafikanı seçir.

Epiqrafikanın qadın üçün çətin sahə olduğunu deyərək, onu bu yoldan çəkindirmək istəyən müəllimlərinə isə belə cavab verir: - Mən yaxşı bilirəm ki, rahat laboratoriyalarda, isti otaqlarda oturub "elmi işlə" məşğul olanlar tapılacaq, amma bu sahəyə getmək istəyən tapılmayacaq. Elə bundan sonra o,

lap nağıllardakı kimi, ayağına dəmirdən çarıq geyinib, əlinə də dəmir əsa alıb Azərbaycanın tarixi ərazilərini qarış-qarış gəzərək, ulu babalarımızdan miras qalan tarixi izlərimizi axtarmağa başlayır. Onun tədqiq etdiyi obyektlər ilanlı-çayanlı köhnə qəbiristanlıqlar, uçub tökülmüş məscid minarələri, pirlər və türbələrdəki yazılı abidələr idi. O, gah nərdivan başında, gah diziüstə dayanaraq saatlarla işləməkdən yorulmazmış. Ondan soruşanda ki, sən bu köhnə, uçulmuş qəbiristanlıqda saatlarla yox, günlərlə, qızmar günəş altında işləməkdən qorxmursan? Deyirmiş ki, mən oraya qəbiristanlıq kimi baxmıram, işləyə-işləyə orada yatan insanların ruhları ilə söhbətləşirəm. Və qeyri-adi qüvvələr mənə bu işdə kömək edir... Seçdiyi çətin peşənin vurğunu olan Məşədixanım ailə qurandan sonra da, nəinki bu yoldan çəkinib, əksinə, həyat yoldaşına deyib ki, mən övladımdan və səndən keçərəm, amma işimdən yox! Onu başa düşən və hər an ona qayğı göstərməyə çalışan həyat yoldaşı yay aylarında öz iş yerindən uzunmüddətli məzuniyyət götürərək, ailəsilə birlikdə çöl tədqiqatlarında olar, Məşədixanımın rahat işləməsi üçün ona şərait yaradarmış. İşlədikləri kəndlərdə yerli əhali də onlara hörmətlə yanaşarmış. Hətta axşam qaş qaralana kimi işləyəndə, onları evlərinə qonaq dəvət edənlər də çox olurmuş.

1968-ci ildə Məşədixanım Nemət "Epiqrafik abidələr və onların Azərbaycanın ictimai-iqtisadi tarixinin öyrənilməsində əhəmiyyəti (XIV-XIX əsrlər)" mövzusunda doktorluq dissertasiyası müdafiə edəndən sonra, həmkarları ona "doktor da oldun, daha bundan sonra nə ilə məşğul olacaqsan?", - deyəndə o cavab verir ki, "hələ görüləsi işlər çoxdur".

Abşerondakı XIII-XIV əsr abidələrinə əsasən suriyalı nəsranilərin Abşeronda yaşamağını, onların türkləşməsini və islamı qəbul etməsini də məhz M.Nemət faktlarla sübuta yetirmişdir. Onun gərgin əməyi sayəsində 14 yüzilliyi (VI-XX əsrin əvvəlləri) əhatə edən orta əsr Azərbaycan memarlığı, bədii daşyonma sənəti, xəttatlıq sənətkarlarının mövcud 105 nəfərlik xronoloji cədvəlinə təkcə Bakı-Abşeron və Şəki-Zaqatala bölgələri üzrə 200 nəfərin adı əlavə olunmuşdur.

M.Nemət işlədiyi kənd yerlərində, bəzən qadın xeylağının belə çətin işlə məşğul olduğunun səbəbini soruşanlara, "kəndçi qızıyam, uşaq vaxtlarımda qızmar günəş altında taxıl da biçmişəm, vəl də sürmüşəm, 4-5 km-lik məsafədən hər gün qoşa vedrə ilə içməli su da daşımışam, qoyun-quzu da otarmışam, elə ona görə də belə dözümlüyəm", - deyirmiş. Məşədixanım Nemət Naxçıvanın Xanəgah kəndi ərazisindəki Şeyx Xorasan abidələri kompleksində işlərini qurtarıb qayıdanda, yolda maşındakı qızlardan birisi ona "buralarda da bir pir var, yəqin görmüsünüz", - deyə soruşanda, o, "yox görməmişəm", - deyir və maşını saxlatdırır. "Mənimlə oraya kim gedər", - deyə maşındakılardan soruşur. Mədinə adlı bir qız ona qoşulur, leysan yağış yağmasına baxmayaraq, üzüyuxarı qalxmağa başlayırlar. Pirin yerini soruşmaq üçün qarşılarına çıxan evin darvazasını döyürlər. Onların gəlişinin səbəbini bilən ev sahibəsi Dilarə ərinin narazılığına baxmayaraq, yolu göstərmək üçün onlara qoşulur. Həmin yolun üstündəki türbə və məscidi görən Məşədixanım

çox sevinir və qızlarla birlikdə içəri girərək, orada üzüüstə çevrilmiş daşı köməkləşib bayıra çıxarırlar. Yağış ara verdiyinə görə, o, rahatlıqla daşın üstünü təmizləyir və oradakı yazını köçürə bilir. Sonralar M.Nemət həmin daşdan köçürdüyü yazıya əsasən, müəyyənləşdirir ki, bu abidənin tikilmə tarixi o vaxta qədər olan ədəbiyyatda düzgün verilməmişdir. 1991-ci ildə Moskvada keçirilən konfransların birində Davıdoviç soyadlı tanınmış şərqşünas alim Məşədixanım Nemətin yenicə çapdan çıxmış **"Azərbaycanın epiqrafik abidələrinin toplusu"** kitabının I cildini başının üstünə qaldıraraq, **"baxın, bu qadın sağlığında özünə heykəl qoyub",** deyir. Məşədixanım Nemətə sual verəndə ki, *"60 ildən artıq gəzdiyiniz əraziləri göz önündə canlandıranda ən çox nələri xatırlayırsınız?"* Onun cavabı belə olmuşdu: - *Ötən günləri xatırlayanda, ilk əvvəl yadıma Azərbaycanın güllü-çiçəkli, tər meyvəli ağaclardan don geymiş meşələri, sıldırım qayaları, uçurumlu dağ aşırımları, ürəyə şəfa gətirən buz bulaqları düşür. Kəhər atların belində sıldırım dağ yollarında qartal kimi ötüb keçən alnıbağlı qızların əlindən o qədər qatıq-lavaş alıb yemişəm ki. Təbiət gözəlliklərinə doyunca tamaşa etmişəm. Vətənimin ərazisində xalqımın daşlara həkk etdiyi yazıları minbir əziyyətlə oxuya bildiyimə görə, Ulu Tanrıya minnətdar olmuşam. Bəzən heç ərəblərin belə oxuya bilmədiyi sirli görünən yazıları oxuyarkən, ilahi bir qüvvənin mənə kömək etdiyinə inanmışam...".*

Məşədixanım Nemət həm də Bakıda avtomobil idarə etməyi bacaran ilk qadınlardan biri olub. O, tanınmış alim, səmimi dost, xeyirxah insan, məğrur, qürurlu bir qadın olduğu kimi, həm də gözəl və mehriban ana idi. Özü kimi zəhmətkeş və savadlı iki övlad böyütmüşdü. Oğlu Fuad Quliyev iqtisad elmləri namizədi, qızı Vəfa Quliyeva isə tarix elmləri doktorudur. Bir dəfə AzTV-də qonaq olan Məşədixanım Nemətə jurnalistin verdiyi *"özünüzü xoşbəxt insan hesab edirsinizmi"* sualına, o, *"əgər övladlarım xoşbəxtdirsə, mən də xoşbəxtəm",* - deyə cavab vermişdi.

Məşədixanım Nemət həm də epiqrafikanı uzun illər Bakı Dövlət Universitetinin Tarix fakültəsində fənn kimi tədris etmişdi. Məşədixanım Nemətlə uzun müddət davam edən münasibətlərimiz zamanı yaddaqalan hadisələr çox olsa da, onlardan birini - 2012-ci ilin soyuq bir fevral günündə AMEA Rəyasət Heyətinin 1-ci mərtəbəsindəki zalda onun "Azərbaycanın epiqrafik abidələri toplusu"nun V və VI cildlərinin təqdimatına həsr olunmuş o möhtəşəm yığıncağı tez-tez xatırlayıram. Tədbirdə iştirak edən hər kəsin çöhrəsində gördüyüm işığı və çıxışlardakı səmimiliyi heç bir tədbirlərdə görməmişdim, desəm, səhv etmərəm. Məşədixanımın həsrətlə gözlədiyi bu təqdimatın sevincini sanki tədbirdə iştirak edən insanların hamısı yaşayırdı.

Onların səmimi çıxışlarında, səhnədə əyləşən sinəsi **"Şöhrət"** ordenli böyük alimin 88 illik ömrünün şərəfli səhifələri vərəqlənirdi... Onun simasında isə özünəməxsus qadın gözəlliyi ilə yanaşı, həm də bütün sınaqlardan üzüağ çıxan bir qəhrəmanın əzəməti həkk olunmuşdu. O gün başqa gün idi! Bəlkə də bu, Məşədixanım Nemətin iştirak etdiyi sonuncu böyük tədbir olduğuna görə, mənim yaddaşımda pozulmaz izlər qoyub?!

Tədbirin sonunda qonaqlara "Toplu"nun V və VI cildləri ilə bərabər, həm də bütün cəhətləri ilə Möhtəşəmlik simvolu olan böyük alimin ömür kitabı - **"Daşlaşan sirlərin sirdaşı"** kitabı da hədiyyə edildi...

2016-cı ildə isə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşkilatçılığı ilə M.Nemətin həyat və yaradıcılığına həsr olunan konfransın onun özü olmadan (səhhətində problemlər vardı) keçirilməsi əvvəlcə yığıncaq iştirakçılarını məyus etsə də, sonra onun haqqında çəkilmiş sənədli kinolentlərə baxarkən, sanki hər kəs onu yanında hiss etməyə başladı.

Akademik Teymur Bünyadov, AMEA-nın müxbir üzvü, memarlıq doktoru Cəfər Qiyasi, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru Fəridə Məmmədova, tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədova və bir çox başqa alimlərlə yanaşı, onun sabiq tələbələrinin - millət vəkillərinin, mətbuat nümayəndələrinin böyük alim haqqında söylədikləri xatirələr onun həqiqətən xalqın Mənəvi sərvəti olduğunu, dünya durduqca yaddaşlarda yaşayacağını bir daha təsdiq etdi.

2001-ci ildə Azərbaycan Dövlət Televiziyasının Məşədixanım Nemət haqqında çəkdiyi **"Daşları dindirən alim"** filmi də tamaşaçıların böyük marağına səbəb olmuşdu. Məşədixanım Nemət haqqında bir neçə dəfə, onun yubileyləri ərəfəsində yazı hazırlamışdım. Sonuncu yazımı isə 2016-cı ilin dekabr ayında, onunla vida mərasimindən sonra yazmışdım. O vaxtdan keçən 5 il ərzində məzarını ziyarət etsəm də, qızı Vəfa xanımla əlaqə saxlasam da, onun yoxluğuna hələ də inana bilmirəm. Mənə elə gəlir ki, Məşədixanım Nemət kimi insanlar heç vaxt ölmür, sadəcə dünyalarını dəyişirlər. Əməkdar incəsənət xadimi Ə.Əfqan yazır ki, müqəddəs sözlərdən biri qeyrətdirsə, Məşədixanım Nemət milli qeyrət abidəsidir. P.S. Məşədixanım Nemət həm də şair təbiətli bir insan idi. Hərdən onu təsirləndirən, ilhama gətirən hadisələri Məşədixanım Hicran imzası ilə misralara çevirməklə xalqına olan sevgisini tərənnüm etməyi özünə borc bilirdi. Yazımın sonunda onun **"Hicran dərdi"** şeirlər kitabında yer almış "Şəhriyara nəzirə" şeirindən bir neçə bəndi oxucuların diqqətinə çatdırmağı özümə borc bildim.

***Hayes-türkes deyən kafir,***

***Görməmişdir belə şakir***

***Bilməzmiş, türk nəyə qadir.***

***Baş qoyacaq torpağına qədəm qoyan,***

***Qalxmış artıq Azərbaycan!***

***Ac köpəklər hey hürdükcə,***

***Fitnəsin dünya gördükcə,***

***Həmkarı silah verdikcə***

*Sel-su axan bizimdir qan,*

*Qalxmış artıq Azərbaycan!*

*Müqəddəs bir torpaq olan*

*Haqqı, səadəti anan*

*Zəngəzur, Mehri, Qarabağ*

*Təbriz, Şuşa, can Dilican,*

*Qalxmış artıq Azərbaycan!*

*Didərgindir ocağından,*

*Dədə-baba torpağından,*

*Xan, Bülbülün oylağından.*

*Müntəzirdir Göyçə, Qafan,*

*Qalxmış artıq Azərbaycan!*

## II. ŞƏRƏFLƏ YAŞANAN ÖMÜR

Sağlığında dəyərli əməlləri ilə ad-san qazanan insanlar dünyalarını dəyişdikdən sonra da daim minnətdarlıqla yad edilirlər. Uzun illər "Elm və həyat" jurnalında və daha sonra AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda çalışdığım zaman kəsiyində, nə yaxşı ki, yaxşı əməlləri ilə yaddaşımda iz qoyan insanlarla yaxından tanış olduğuma görə özümü şanslı hesab etməyə haqqım çatır.

Tez-tez xatırladığım belə insanlardan biri də tarix elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü, "Şöhrət" ordenli, təkcə Azərbaycanda deyil, onun hüdudlarından uzaqlarda da yaxşı tanınan epiqrafist alim Məşədixanım Nemət idi.

1924-cü il yanvar ayının 5-də Bakının Zabrat kəndində, çoxuşaqlı ailədə dünyaya göz açan Məşədixanım elə lap uşaq vaxtından çiyinlərinə düşən ağır yükü təkbaşına çəkməyə məcbur olmuşdu. 12 yaşından anasını, az sonra isə atasını itirən bu yeniyetmə qızcığaz heç kəsə yük olmamaq üçün, 15 yaşı olanda evlərinin yaxınlığındakı kənd klubunda işləməyə başlamışdı. Gündüz saat 2-də məktəbdən, gecə 12-də işdən evə qayıdan Məşədixanım bu çətinliklərə baxmayaraq, təhsil almağı özünün həyat amalına çevirmişdi.

1943-cü ildə ADU-nun (indiki Bakı Dövlət Universiteti) Filologiya fakültəsinə daxil olan M.Nemətova dərslərini əla oxuduğuna və fars dilinə böyük maraq göstərdiyinə görə, o zaman Şərqşünaslıq fakültəsinin dekanı olan görkəmli Azərbaycan şərqşünası, tərcüməçi, filologiya elmləri doktoru Mübariz Əlizadənin köməkliyi ilə Fars şöbəsində təhsilini davam etdirmiş və 1948-ci ildə universiteti Fərqlənmə diplomu ilə bitirmişdi.

O, bir müddət Azərbaycan Dövlət Radiosunun Fars şöbəsində makinaçı işləsə də, sonra AEA-nın Tarix İnstitutunun aspiranturasına daxil olur və ixtisas olaraq ən çətin sahəni – epiqrafikanı seçir (şəkil 4). Qadın xeylağı üçün bu sahənin böyük çətinliklər yaradacağını deyən həmkarlarına isə cavabı belə olur: *"Rahat laboratoriyalarda, isti otaqlarda oturub "elmi işlərlə" məşğul olanlar tapılacaq, amma çöllərdə işləməyə gedənlər olmayacaq. Mən həyatın hər üzünü görmüşəm..."*.



***Şəkil 4.***

Elə o vaxtdan başlayaraq, lap nağıllardakı kimi ayağına dəmir çarıq geyinib və əlinə də dəmir əsa alıb, Azərbaycanın tarixi ərazilərini gəzməyə – çöl tədqiqatları aparmağa başlayıb. Onun tədqiqat obyektləri isə özünün dediyi kimi, ilanlı-çayanlı köhnə qəbiristanlıqlar, uçub tökülmüş məscid minarələri, pirlər və türbələrdəki yazılı abidələr olur.

92 illik ömrünün 60 ildən çoxunu ulu babalarımızın daşlara həkk edib bizlərə yadigar qoyduğu pozulmaz izləri – kitabələrdəki yazıları oxuyub-öyrənməyə sərf edən bu zəhmətkeş alim 2500-dən çox abidəni tədqiq edərək, altıcildlik "Azərbaycanın epiqrafik abidələri" toplusunu hazırlayıb çap etdirmiş və Azərbaycan xalqına yadigar qoymuşdur.

Abşerondakı XIII-XIV əsr abidələrinə əsasən, suriyalı nəsranilərin Abşeronda yaşamağını, onların türkləşməsini və islamı qəbul etməsini də məhz M.Nemət faktlarla sübuta yetirmişdir. 1991-ci ildə Moskvada keçirilən konfransda Davıdoviç soyadlı tanınmış şərqşünas alim M.Nemətin yenicə çapdan çıxmış "Azərbaycanın epiqrafik abidələri" toplusunu başı üzərinə qaldıraraq, "baxın, bu qadın sağlığında özünə heykəl qoyub", – deyərək onu alqışlamışdı. Seçdiyi sənətin vurğunu olan M.Nemət bir müddət BDU-da epiqrafikadan dərs desə də, gənclərin bu sahəyə maraq göstərmədiyini təəssüflə qeyd edirdi.

Yaxşı yadımdadır, 2012-ci ilin soyuq fevral günündə, AMEA-da

keçirilən möhtəşəm tədbirdə – onun “Azərbaycanın epiqrafik abidələri” toplusunun V və VI cildlərinin təqdimatı zamanı Məşədixanım Nemət özünü dünyanın ən xoşbəxt insanı sayırdı, desəm, səhv etmərəm. Çünki onu tanıdığım uzun illər ərzində bu altıcildliyin hazırlanması barədə nə qədər nigarançılıq keçirdiyinin canlı şahidi olmuşdum. Sinəsinə xüsusi yaraşıq verən “Şöhrət” ordeni 88 yaşlı alimin ömür yoluna işıq salan mayaka bənzəyirdi.

Həmin gün tədbir iştirakçılarına “Toplu”nun V və VI cildləri ilə bərabər, böyük alimin ömürnaməsi sayıla biləcək “Daşlaşan sirlərin sirdaşı” kitabı da hədiyyə edildi. Həmin tədbirdə çıxış edən alim həmkarları, dostları, sabiq tələbələri olmuş bu millət vəkilləri, jurnalistlər və ailə üzvləri – oğlu – iqtisad elmləri doktoru Fuad Quliyev və qızı – tarix elmləri doktoru Vəfa Quliyeva səbəbkar haqqında ən maraqlı xatirələri yada saldılar (şəkil 5).



***şəkil 5***

Azərbaycan Dövlət Televiziyasının 2001-ci ildə çəkdiyi “Daşları dindirən alim” filmində də bu əvəzolunmaz alim ömrünün yaddaqalan məqamları dolğun şəkildə əks olunmuşdur...

1999-cu ildə Naxçıvan Muxtar Respublikasının 75 illiyi ilə əlaqədar Dövlət Komissiyasının iclasında Məşədixanım Nemətin Urud abidələri haqqındakı çıxışı hamıdan çox Ulu öndər Heydər Əliyevin diqqətini çəkmişdi. Çünki vaxtilə Azərbaycan torpağı olan Urud abidələrindəki kitabələri təhrif edərək, qəbiristanlığı darmadağın edən və Zəngəzurun heç vaxt Azərbaycan (Albaniya) torpağı olmadığını sübut etməyə çalışan, “Böyük Ermənistan” xülyası ilə yaşayan dırnaqarası erməni tarixçilərini M.Nemət konkret dəlillər əsasında susdura bilmişdi. Urud abidələri alban tayfalarının türkləşməsini, islamı qəbul etməsini sübuta yetirməklə bərabər, həm də o vaxta qədər tarix ədəbiyyatında mövcud olan türk elementinin Qafqaza gəlmə konsepsiyasını alt-üst edərək, türklərin Qafqazın köklü aborigenləri olduqlarını sübuta yetirmişdi. Bu çıxışı dinlədikdən sonra uzaqgörən dövlət xadimi, Ulu öndər Heydər Əliyev demişdir: “Biz ermənilərin bütün bu iddialarının əsassız, uydurma olduğunu beynəlxalq aləmə sübut etməliyik. Bunun üçün əsaslı sənədlər, fundamental

elmi-populyar nəşrlər yaranmalıdır. Biz Azərbaycanın ərazi bütövlüyünü nəinki yaşadığımız indiki illərdə, gələcək nəsillər üçün də qoruyub saxlamalıyıq. Bundan sonra da elə əsərlər yaradılmalıdır ki, o əsərlər indi Ermənistan Respublikası yerləşən həmin torpaqların Azərbaycana məxsus olduğunu daim, ardıcıl surətdə sübut etsin... ".Məşədixanım Nemət çətin sahənin tədqiqatçısı olmaqla yanaşı, həm də çətinliklərlə üz-üzə qalan dürüst insanların ən yaxın xeyirxahı idi. Onu yaxından tanıyanlardan biri kimi, şahidi olduğum belə hadisələrdən birini xatırlatmaq istərdim...

Məlum 90-cı il hadisələrindən sonra hər yanda olduğu kimi, mənim uzun illər çalışdığım "Elm və həyat" jurnalı və onun kiçik kollektivi (cəmi 5 nəfər qalmışdıq) maddi çətinliklər səbəbindən çıxılmaz vəziyyətə düşəndə, M. Nemətin göstərdiyi xeyirxahlığı unutmaq mümkün deyil (şəkil 6). Vəziyyətdən hərtərəfli xəbərdar olan bu məğrur xanım yeri gələndə, xeyirxahlıq naminə, xahiş etməyi də özünə rəva görürdü. Bir gün sevincək redaksiyaya gəlib bizə dedi ki, narahat olmayın, Arifə demişəm (tarix elmləri doktoru, AMEA-nın müxbir üzvü Arif Abbasov o zaman Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru idi – M.P.) sizin hamınızı institutda yarımştat işə götürəcək. Siz də imkan daxilində institutun nəşrlərinin çapa hazırlanmasında onlara köməklik göstərməyə çalışarsınız. Səhərisi günü Məşədixanım Nemət özü də bizimlə bərabər direktorun qəbulunda oldu və biz, 5 nəfər əməkdaş ərizə yazıb işə qəbul edildik. Bu hadisədən sonra biz jurnaldan ayrılmadıq və Azərbaycanda yeganə elmi-populyar jurnal sayılan "Elm və həyat" çox az tirajla olsa da, nəşrini davam etdirdi...



***şəkil 6***

P.S. Yeri gəlmişkən, onu da qeyd edim ki, Məşədixanım Nemətdə hiss etdiyim torpaq, Vətən sevgisi də çox fərqli idi. İşğal altında olan ərazilərimiz haqqında daim ürəkağrısı ilə danışardı. Heyif ki, bu nigarançılığın sonunu – "**Zəfər**" (08. 11. 2020) Bayramımızı görmək ona qismət olmadı. Amma belə bir günün gələcəyinə çox ümidlə baxırdı. Deyirdi ki, o mənfur millət öz xalqını məhvə aparır, bu iddianın sonu onlar üçün yaxşı olmayacaq! Ruhu şad olsun!!!

## III. SON GÖRÜŞ

1924-cü il yanvarın 5-də Bakının Zabrat kəndində doğulmuşdu MƏŞƏDİXANIM. Əvvəli əzab-əziyyətli, enişli-yoxuşlu, sonu zəhmətdən yoğrulmuş şərəfli bir ömür yaşamışdı bu əvəzolunmaz alim, gözəl insan və ən əsası əsl cəngavər, dəyanətli Azərbaycan qadını. Onu yaxından tanıdığımız uzun illərin son 15 ili ərzində adı ilə bağlı tədbirlərin hamısında həm bir mətbuat işçisi, həm də yaxın dost kimi iştirak etmişik. Bütün tədbirlərdə onun elmi fəaliyyəti haqqında deyilən fikirlərdən qürur duymuşuq, ona olan məhəbbətimiz qat-qat artıb, yeri düşdükcə onun həyatından misallar gətirməkdən yorulmamışıq. Yəqin ki, bundan sonra da belə olacaqdır…

Cəmi iki ay bundan əvvəl Azərbaycan Respublikası Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin çox da böyük olmayan zalında keçirilən tədbir (birinci dəfə idi ki, səhhətinə görə Məşədixanım tədbirdə iştirak etmirdi) AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, "Şöhrət" ordenli Məşədixanım Nemətin həyat və elmi yaradıcılığına həsr olunmuş elmi-praktiki konfransa toplaşanlar əvvəlcə bir qədər məyus görünsələr də, çıxışlardan və böyük alimə həsr olunmuş sənədli filmə tamaşa etdikdən sonra (ssenari müəllifi Dilarə Quliyeva) – onun məğrur simasını gördükdən, duzlu-məzəli söhbətlərini eşitdikdən sonra zalda böyük canlanma yarandı. Həmin görüşdə çıxış edənlərin yazılarından ibarət olan kitabın – məqalələr toplusunun hədiyyə kimi verilməsi isə yaddaqalan hadisə oldu…



Bu gün işə gələrkən eşitdiyimiz ağır xəbər – Məşədixanım itkisi onu tanıyanların qəlbini kövrəltdi. Əlbəttə, o, Tanrının ona bəxş etdiyi ömür payını şərəflə, ləyaqətlə başa vurub. Amma bu yoxluq təkcə onun ailəsi, doğmaları üçün deyil, onu yaxından tanıyanların hər biri üçün böyük itkidir. Azərbaycanın ilk epiqrafist elmlər doktoru Məşədixanım Nemət sözün əsl mənasında öz xalqının əvəzolunmaz nemətlərindən biri idi.

Şair təbiətli Məşədixanım "Hicran" təxəllüsü ilə şeirlər də yazardı. Məşədixanım öz kitablarını hər kəsə uyğun avtoqraflarla bağışlayardı. Bizə bağışladığı sonuncu kitabında – "Daşlaşan sirlərin sirdaşı"nda belə yazmışdı:

**Elmi yaşadır həyat,**

**Elmsiz olmaz həyat.**

**Siz olmasaydınız gər,**

**Yaşamazdı "Elm və həyat".**

Sağlığında şan-şöhrəti, süni münasibətləri xoşlamayan, bütün mənalı ömrünü yalnız elmi araşdırmalara və ailəsinə həsr edən Məşədixanım son mənzilə ailəsinin arzusu ilə elə doğulduğu Zabrat kəndində – sevgili Vətəninin ən kiçik bir guşəsində torpağa tapşırıldı. Ruhu şad, yeri behişt olsun!

Məşədixanımın ruhunu şad etmək üçün ona həsr olunmuş kitabdan götürülmüş aşağıdakı sətirləri oxucuların diqqətinə təqdim edirik.

**Ülkər HÜSEYNOVA,**

**Maral POLADOVA,**

**Mehparə AXUNDOVA**

***"Elm və həyat" jurnalının əməkdaşları***



***Məşədixanım Nemət "Elm və həyat"***

***jurnalının əməkdaşları ilə***

Akademik Teymur Bünyadovun **"Yazılı abidələrin dili-dilmancı"** məqaləsindən: Elm Çində də olsa, arxasınca gedin (Məhəmməd Peyğəmbər)*"Ulu peyğəmbərimizin bu müdrik kəlamı elmə verilən ən yüksək qiymətdir. Məşədixanım bu şərəfə layiq elm adamı olması ilə yaşayır, yaradır. Əminəm ki, bu xanım elmin dalınca nəinki Çinə, lap dünyanın o başına da gedər, gedib də. Vətəni Azərbaycanla yanaşı Rusiyada, Orta Asiyada, İranda, Türkiyədə, Avropa ölkələrində, haralarda olmayıb, kimlərlə görüşməyib. Kimlərlə elmi söhbətlər aparmayıb".*

Əməkdar incəsənət xadimi Ə.Əfqanın **"Qeyrət abidəsi"** məqaləsindən: *"Məşədixanım Nemətə Allah-Təala qadını əzizləyən, sevdirən, müqəddəsləşdirən hər cür gözəllik versə də, zamanın sərt üzü onu hazırın naziri yox, daşdan çörək çıxaran edib. Məşədixanım Nemət sanki evə, rahat şəhər həyatına etiraz edərək, hətta hər kişinin girişmədiyi bir işə can atmışdır. Bütövlükdə, Məşədixanım Nemət əvəzsiz insandır. Müqəddəs sözlərdən biri qeyrətdirsə, Məşədixanım Nemət milli qeyrət abidəsidir..."*

Memarlıq üzrə fəlsəfə doktoru Rizvan Qarabağlının **"Azərbaycanın milli sərvəti"** məqaləsindən: *"2001-ci ildə Tiflisdə 5 nəfər erməni aliminin iştirak etdiyi beynəlxalq konfransda Məşədixanımın öz epiqrafik tədqiqatlarına əsaslanaraq, ermənilərin nəinki Azərbaycana, hətta Qafqaza belə, gəlmə xalq olduqlarını, eləcə də Qarabağda, Zəngəzurda və indiki Ermənistan ərazilərində olan bütün tarix və mədəniyyət abidələrinin məhz əzəli-əbədi*

*Azərbaycana aid edildiyini sübut etməsi indi də gözlərimin önündədir. Onun çıxışı ermənilərin üzərinə od kimi yağdı. O zaman Məşədixanım mənim gözümdə ahıl və zəif qadın kimi deyil, əsl qəhrəman cüssəli, şir ürəkli vətən qızı kimi göründü, məndə qürur hissi yaratdı və mən fəxr etdim ki, Azərbaycanın belə böyük alimi var".*

Ülkər Hüseynovanın **"Vətəni öyrənən və qoruyan alim"** məqaləsindən: *"Əgər Məşədixanımın fəhmi, uzaqgörənliyi olmasaydı, qədim türk məskənlərimizin izləri birdəfəlik yer üzündən silinəcəkdi... O, erməni terrorundan qorxmayaraq, papazyanlara, akopyanlara, xaçikyanlara faktlarla tutarlı cavablar vermişdir... Məşədixanım həyat yoldaşını vaxtsız itirsə də, cəmiyyət üçün layiqli iki övlad böyütmüşdür".*

Mehparə Axundovanın **"Qərinələrə boylanan alim"** məqaləsindən: *"Məşədixanım Nemətova canlı ensiklopediyadır. Tariximizin qədim dövrünü daş kitabələrdəki yazıların köməyilə oxuyan bu zəhmətkeş alim 12 monoqrafiyanın, 4 kitabçanın, 200-dən çox məqalənin müəllifidir. Onun tədqiqatlarının nəticəsi olaraq, VI-XX əsrləri əhatə edən dövrdə yaşayıb-yaradan xəttatların siyahısına daha 200 nəfərin adı əlavə olunub".*

Məşədixanım Nemətin qızı, tarix elmləri doktoru Vəfa Quliyevanın dediklərindən: "Hələ 1991-ci ildə M.Nemətin "Azərbaycanın epiqrafik abidələri toplusu"nun 1-ci cildi çapdan çıxan zaman, Moskvada keçirilən konfransların birində şərqşünas alim Davidoviç həmin kitabı başının üstünə qaldıraraq demişdi: ***"Baxın, bu qadın sağlığında özünə abidə qoymuşdur"***...

Maral Poladovanın **"Şərəfli ömür sahibi"** məqaləsindən: *"1924-cü ildə Bakının Zabrat kəndində Sədulla kişinin ailəsində dünyaya göz açmış bu qıza nənəsi Məşədi Səadətin adı verilsə də, elə sadəcə olaraq Məşədixanım çağrıldığına görə, 11 yaşı olanda doğum şəhadətnaməsinə adını Məşədixanım yazıblar. Doğum gününü isə pasport alanda məcburiyyət qarşısında qalaraq özü yazdırıb: 5 yanvar.*



Məşədixanımın dediyinə görə, *“1918-ci ildə ermənilər Bakıda soyqırım törədəndə Zabrat əhalisi kəndi tərk edərkən, xəstə babası evdən tərpənə bilməyib. Azğın ermənilər onu doğrayıb öz həyatində basdırıblarmış. Sonralar bu əhvalatdan çox təsirləndiyinə görə şəhid babası Nemətin adını özünə soyad götürüb…”.*

Məşədixanım Nemətin öz sözlərini burada vermək yerinə düşərdi: “*Mən Vətənin güllü-çiçəkli, tər meyvəli ağaclardan yaşıl don geymiş sıldırımlı, uçurumlu dağ yollarından çox keçmişəm. Şah dağın ətəyində bəslənmiş qız bənövşədən, mahnılarda səslənən İsa bulağından, Laçının narzanlarından yanan ürəyə şəfa gətirən buz kimi bulaqlardan çoxlu su içmişəm. Kürün gurultulu səsini çox dinləmişəm. Öz keçmiş möhtəşəmliyini itirmiş əzəmətli Şəmkirin incimiş ruhunu narahat etməsin deyə, onun xarabaları yaxınlığından lal-dinməz ötən Şəmkirçaya baxmış, Tərnəyüt, Şahbulaq qalaları yanından sakit axan Tərtərin Kəlbəcər dağlarına saldığı gurultuya çox qulaq asmışam. Kəpəzin qoynunda lətafətli Göygölün gözəlliyinə, nəcibliyinə heyran-heyran çox tamaşa etmişəm...”.*

Məşədixanım Nemət 60 illik elmi fəaliyyəti dövründə Azərbaycanın bütün tarixi ərazisini qarış-qarış gəzərək, ərəb qrafikasının müxtəlif xətləri ilə ərəb, fars, türk dillərində daşlara həkk olunmuş daş salnamələrin səhifələrini vərəqləmiş, ölkənin iqtisadi-siyasi, sosial-mədəni tarixi, memarlıq, sənətşünaslıq, filologiya, islam fəlsəfəsi – sufizm, toponimika, etnogenez və s. problemlərə dair külli miqdarda yeni və ən dəqiq sənədlərlə Azərbaycanın tarixşünaslıq bazasını zənginləşdirmişdir. 2500-dən artıq epiqrafik abidəni toplayıb, oxuyub onların tarixi əhəmiyyətini müəyyənləşdirmişdir. Bu elmi fəaliyyətin nəticəsi kimi 12-dən artıq monoqrafiyanın, 200 elmi məqalənin, o cümlədən 6 cildlik ***“Azərbaycanın epiqrafik abidələri toplusu”***nun müəllifi olmuşdur.

**Ганира ПИРГУЛИЕВА**

***Бакинский Государственный Университет***

***исторический факультет,***

***Док. философии по истории, доцент***

## РОЛЬ НЕКОТОРЫХ МЕТОДОВ ИЗУЧЕНИЯ ЭПИГРАФИЧЕСКИХ ПАМЯТНИКОВ, РАЗРАБОТАННЫЕ М.НЕМАТ

Эпиграфика как наука сформировалась с периода Европейского Возрождения. Методы и методология изучения эпиграфических памятников были разработаны различными учеными с 18 века. Формирование и сложение этой науки самостоятельно от других отраслей гуманитарных наук относится в основном 19-20 столетию. В историографии эпиграфической науки известны многие имена известных ученых зарубежных стран, в том числе и азербайджанских ученых, жившие в вышеуказанные столетия. Однако эти ученые не имели собственные методы изучения памятников письменности на жестких материалах, особенно в период халифата. Так, изучая и используя публикации великого ученого востоковеда-эпиграфиста и историка Мешади ханум Немат четко выявляется особый подход к материалу. Этот метод включает в себе не только краткие письменные надписи и их буквальный перевод. В ее метод входит комплексный подход к источникам, точнее все исторические данные; источники, карты, археологические и архивные материалы, этнографические опросы, вплоть до картин художников. Таким образом, методы разработанные М.Немат имеет огромное историческое значение для дальнейших исследователей в этой области. Уточнение и пропаганда основ этого метода является важной проблемой в изучении истории восточных стран периода средневековья.

Внимательно изучая труды различных историков- эпиграфистов, в том числе великого азербайджанского ученого профессора, доктора исторических наук Мешеди ханум Немат можно определить основные методы изучения эпиграфических материалов. В корне эти методы особо не отличаются от комплекса методов и методологий всех других исторических наук. Однако для этой науки больше требовалась практические подходы для уточнения главных вопросов, касающиеся письменных данных на жестких материалах, т.е. конкретно предметов эпиграфики.

Особо следует отметить, что как бы консервативные не были или же на первый взгляд не показались бы эти простые методы, они были достаточно точные и плодотворные. Конечно в современном этапе в

связи с развитием информационной технологии, различных компьютерных программ методы работы над материалами эпиграфики намного упростились. Однако, тема нашего исследования касается конкретного ученого и прошлого столетия, поэтому мы сочли нужным не затрагивать новейшие данные в этом направлении.

Итак, в основе методов изучении эпиграфических материалов, конкретно найденные на территории Азербайджана в прошлом столетии покойной М.Немат лежит нижеследующие этапы:

1. До поиска каких - то эпиграфических материалов, выяснить место нахождение памятника по архивным данным (если таковы имеется). Этот пункт больше относится к тем архивным данным, которые включают в себе отчеты военных-топогрофов, рисунки художников-путушественников, работы краеведов, опубликованные газетные, журнальные материалы, отдельные календари, опубликованные, конкретно для нашей страны во времена Российской экспанции для улучшения захватнической политики. Отдельные строительные документы с указанием планов и чертежей, сохраняюшийся в различных странах в архивах различных направлениях. В этих документах сохраняются не только новые постройки, например в 18- или 20 веках, но и существующие до этих столетий; так как в некоторых документах сохраняются бюджетные расчеты для реставрации каких -то старых мечетей, минаретов и т.д.В таких случаях в начале документа писали общую картину с памятника, и разумеется данные о надписьях.

2.Проведение этнографических опросов среди местного населения. В специальный вопросник, составленный в каждом случае составлялась автором. Основные данные полученные от населения, видимо отдельно проверялась.

3.Проведение опроса среди религиозных деятелей и работников кладбищ. Эти люди порой продолжали специальность от старших поколений. И поэтому больше чем местное население знали о памятниках не только исламских мемориальных сооружений. Но и об отдельных личностях, известные среди народа свой благотворительностью или по образу жизни, в результате чего после смерти оставляли какие -то эпитафии на надгробных камнях.

4.Ознокомление с отчетами археологических раскопках из местоположения подобных памятников. Во всех отчетах археологов по отдельным районам или памятникам имеется вначале общий обзор места, где проведут раскопочные работы. В этих обзорах особое место всегда отводилось к таким точным данным, как камни с надписьями из каких то памятников, или же просто из первоначальных разведочных работах. Археологи обьязательно описывают в своих отчетах первоначальный вид подобных ценных артефактов, если таковые имеются.

5.Крапотливая работа с нарративными данными. Многие рукописи не переведены по сей день. Но зная некоторых восточных

языков, живя в странах халифата, ученый знает в каких книгах может быть данные о каком -либо памятнике периода ислама. Тогда приходится обращаться к ученым арабистам, востоковедам, чтобы найти минимальную информацию.

6.Часто надписи до наших дней доходят в стертом состоянии под влиянием людей или природы. Чтобы восстановить этих письменных данных приходится обращаться к основам исторической науки. Если не имеется какие - либо данные, тогда приходится найти аналогичные эпиграфические памятники и с помощью основ палеографии восстановить недостаюшие части.Для этого нужно в полевых условиях снаят эстамп всех существующих частей надписей со всеми точными размерами надписей. Эстамп, видимо снали несколько экземпляров. Масштаб должен быть 1 к 1, какой бы там памятник не был. Следующим важным этапом в данных моментах является фотофиксация надписей. Главным в таких работах является фиксация со всех сторон как первоначальной форме, так и после очищения.

7.Ученые отдельно разработали методику работы с материалами, на которых были оставлены надписи. И на основе работы резьбы по камню выявила несколько крупных школ на территории исторических земель нашей страны.Так зная эти школы, человек может выяснить к какой школе художественной резьбы по камню относиться какой то эпиграфический памятник. Благодаря этому методу сегодня мы можем без особых условий выяснить стиль работы мастеров на таких материалах. Если имеется привозный материал, то выявить влияние какой- то другой школы на определенный памятник.

8.Отдельно следует указать форму работу ученых с некоторыми отдельными словосочетаниями на надписьях погребального характера. Но прежде чем их указать, отдельно ученые-эпиграфисты должны указыват в своих трудах некоторые течения суфизма и тасаввуфа, распространненые например, в Азербайджане период средневековья. Тут следует указыват основы этих течений, обряды и обычаи, а лишь после этого выявить главные идеи на эпиграфических материалах.Так благодаря этого типа методики сегодня без особого труда мы умеем выявить продолжителей различных религиозных течений. Так, например, в истории ислама нашего народа выявлены точные данные о суфизма.

9.Отдельно разробатаны методы с медицинскими и образовательными центрами.Так благодаря этому методу сегодня мы точно знаем что пиры не являются просто местом простого поклонения, а также местами, где отдельные личности лечили больных. Так, существующее мнение о том , что пиры являются местом преклонения перед камнями или идолопоклонничество, теряет своего смысла. Среди этих болезней особое место по методу ученого, занимает душевнобольные.И разумеется особой лечение основывалась к основам ислама, а не идолам

10. Статейный период.

Итак, основные результаты данного исследования заключаются в уточнении методов для изучении эпиграфических материалов.

Обсуждения по поводу выявленных методов М.Немат велись в аудиториях Бакинского Государственного Университета и в некоторых археологических раскопках, проведенные в Азербайджане с участием автора данной статьи.

**Выводы:** На основе изученных трудов по эпиграфических материалов М.Немат становится вполне ясным главный факт о том, что к надписьям следует относится не так как обычный материальный артефакт. А наоборот по методу разработанной этой выдающиеся ученого любая надпись со всеми элементами прописи, отдельные символы имеют особое историческое значение. Значит используя этих четко выделеных методов можно выявить точные данные по различным проблемам истории.

**Bədircahan MƏMMƏDOVA**

***AMEA Arxeologiya və Antropologiya İnstitutunun***

***"Dəmir dövrü arxeologiyası" şöbəsinin elmi işçisi***

*bcahan1957@gmail.com*

**Aygün MƏMMƏDOVA**

***Milli Azərbaycan Tarixi Muzeyinin***

***"Fondların uçotu və elmi təsnifatı" şöbəsinin***

***böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru***

*aygun_kons@mail.ru*

# QAX RAYONUNUN İLİSU KƏNDİNDƏKİ EPİQRAFİK ABİDƏLƏR

**(AMEA-nın müxbir üzvü, t.e.d. Məşədixanım Nemətin tədqiqatları əsasında)**

***Açar sözlər: epiqrafika, Qax, İlisu, qəbirlər, məscid, sultan***

2024-cü il Azərbaycanın epiqraf-alimi, t.e.d. Məşədixanım Nemətin (1924-2016) yubileyi ilə əlamətdardır. Alimin çoxillik tədqiqatları sayəsində Azərbaycanın bir sıra abidələrindəki epiqrafik yazılar müəyyən edilmiş, müxtəlif tarixi mərhələlərə aid ictimai, sosial-iqtisadi və mədəni məsələlər həllini tapmışdır. Məhz bu tədqiqatlar sayəsində Azərbaycanın görkəmli şəxsiyyətləti, onların təbliğ etdiyi dini inanc və d. məsələlərlə yanaşı həm də Azərbaycan toponimikasının problemləri açıqlanmışdır.

Azərbaycanın mədəniyyət tarixini təmsil edən şimal-qərb rayonlarında çoxsaylı abidələr vardır. XX əsrin birinci rübündən bir sıra azərbaycanlı (İ.Əzimbəyov, R.Əfəndiyev, Ə.Ələsgərzadə, Ə.Ələkbərov, A.Qasımov, N.Rzayev, Ş.Fətullayev, Ş.Rzayev və d.) alimlərlə yanaşı xarici (Y.Paxomov, L.Bretanitski, L.Mamikonov və b.) tədqiqatçıların araşdırmaları sayəsində bir sıra epiqrafik qənaətlər əldə edilmişdir.

Tarixi-mədəni irsimizi təmsil edən belə abidələri tədqiqat edən t.e.d. Məşədixanım Nemət onları düzəldən Azərbaycanın orta əsr daşyonma ustalarının əməyini xüsusi vurğulamış, belə abidələrin əsasən yerli dağ və çay daşlarından istehsal edildiyini az sayda da olsa mərmərdən də hazırlanan qəbir abidələrinin mövcud olmasını da yazmışdır.

Alim bildirirdi ki, fərqli bədii tərtibata (həndəsi və nəbati naxışlar, müxtəlif naxışlar) malik belə mükəmməl əsərlərin yazılarının məzmununda

İslam dininin təsiri aydın sezilirdi.

Müxtəlif xətt, ornament dili, naxışlara malik dövrün xəttatları, daşyonma ustalarının ərsəyə gətirdikləri Azərbaycanın təsviri sənət nümunələri olan şimal-qərb rayonlarındakı belə qəbir abidələrindəki yazıların tədqiqi sayəsində regionun həyatında mühüm rola malik görkəmli şəxslərin titulları, ləqəbləri, epitetləri və vəzifəsi ilə yanaşı Türkiyə, İran, Rusiya, Cənubi Qafqaz xalqları ilə tarixi əlaqələr müəyyən edilmişdir. Bədii yonma ustalarının bu əsərlərinin qruplaşdırılması onların fəaliyyət dövrünün xronologiyasının göstəricisidir.

Məqalədə alimin "Azərbaycanın epiqrafik abidələri külliyatı (XIV – XX əsrin əvvəllərində Şəki-Zaqatala bölgəsinin ərəb-fars-türkdilli kitabələri. Bakı: XXI – YNE, 2001, 368 s.)" adlı əsərinə istinadən Qax rayonunun İlisu kəndindəki XVIII-XIX əsrə aid məscidləri inşa edənlər, qəbir abidələri xəttatlıq yazıları ilə mükəmməlləşdirən şəxslər barədə məlumat verilmişdir. Belə abidələr sırasında İlisu kəndini tanıdan sultanların qəbir abidələri də vardır.

**1.Epiqrafik abidələri hazırlayan ustalar və xəttatlar (XVIII əsr).** T.e.d. Məşədixanım Nemətin tədqiqatlarına əsasən, şimal-qərb rayonlarında qəbir abidələrində əsasən ərəb qrafikasının nəsx və süls xəttləri tətbiq edilmiş, XVIII əsrin ən mükəmməl xəttatları və daşyonma ustalarının adları həkk edilmişdir.

İlisu kəndindəki XVIII əsrin I yarısına aid abidələr üzərindəki memar, xəttat və bədii yonma üzrə ustaların adlarının (Muhəmməd Əliağa, Muhərrəm, Baba, Muhəmməd, Muhəmməd Vəli, Molla Həsən, dərviş Saxuri, Muhəmməd Qunaluy, Əbd əl-Vali, Ubəydəllah, Əyyub ibn Hacı əl-Qumuqi, Əbdəllah, İsa, Aşur, Əhməd) müəyyən edilməsi bu şəxslərin İlisu məscidlərinin inşasında iştirak etdiyini təsdiq edir (s. 249 - 251).

Epiqrafik təyinat nəticəsində XIX əsrin yaşayış evlərinin Zəkəriyyə ibn Səid, Əmin bin Mehdi, Qadir ibn Muhəmməd (s. 251-252) tərəfindən inşa edildiyi məlum olmuşdur.

Belə ustalardan biri də Əli idi. O, İlisu sultanları Əlisultan paşa (1732-1733) və övladları – Xəlilsultan paşa (1737-1738), Muhəmmədsultan (1757-1758), Əhmədxan (1761 -1762) və qohumu Əlisultan bəy ibn Əmirxana (1775-1776) aid qəbirləri hazırlamışdır. Müxtəlif və mürəkkəb quruluşlu belə qəbirlər İlisu kəndinin Tovlatala məhəlləsindədir. İnsan boyu hündürlüyündə olan belə qəbirlərə baxdıqca həm ustanın professionallığı, həm də Vətəni uğrunda həlak olan gənc hökmdarlara heyran qalırsan.

Yüksək peşəkarlıqla hazırlanmış belə qəbirlərin başdaşlarında ərəb qrafikalı yazılar sırasında usta öz adını yalnız bir yerdə qeyd edib: "Daşları yazdı və bəzədi Əli. O, Sizlərin yeganə təsəllisidir". Yalnız İlisu kəndində deyil, Qax rayonunun digər kəndlərindəki qəbir abidələrinin də bu şəxsin hazırladığı müəyyən edilmişdir.

Epiqrafik tədqiqata əsasən, usta Əlinin 1732–1798-ci illərdə, yəni 67 il fəaliyyət göstərdiyi və ardıcıllarının onun sənətini davam etdirdiyi qənaəti əldə

edilmişdir (s. 58).

İlisu kəndindəki məscid kitabəsinin tədqiqi nəticəsində hicri 1147-ci (1734) ilə aid olması və usta Şahmərz ibn Molla Səfəllah adı müəyyən edilmişdir. Kitabədəki yazıya əsasən usta əslən Cənubi Dağıstanın Saxur kəndindən idi (həmin dövrdə Saxur İlisu sultanlığı ərazisinə daxil idi). Kitabədəki "molla" epiteti nəsx və süls xətləri ilə, nəbati, həndəsi naxışların tətbiqi ilə yerinə yetirilmişdir (s. 58). Bu epitet Şahmərzin savadlı şəxs olduğunu büruzə verir.

İlisu məscidindəki ərəb qrafikalı digər yazılara əsasən, dövrün istedadlı alimi və kalliqraflarından biri də şeyx Məhəmməd idi. O, İlisu məscidi üzərinə inşa tarixini (hicri 1161= m.1748) və öz epitetini (şeyx) həkk etmişdir. Ustanın iş üslubu və ifadə texnikası onun bacarıqlı rəssam olduğunu büruzə verir.

Abidə üzərindəki "şeyx" epiteti isə onun yüksək elmi təbəqəyə aid olduğunu və bir sənətkar olaraq daş üzərində yonma və kalliqrafiya işini də bildiyini təsdiq edir (s. 58).

**2.İlisu kənd məscidinin epiqrafik abidələri.**

T.e.d. Məşədixanım Nemət İlisu kənd məscidinin epiqrafik kitabələrinin ölçülərini, xətt növlərini, izahını ətraflı tədqiq etmişdir.

Hicri 1027-ci ilə (m1617/1618) aid belə kitabələrdən birində (0,86 x 0,32 m) süls xəttilə: "Allahım! Ya qazi əl-hacət" (s. 82-83), "Allahın adı ilə. Allahdan qeyri qüvvət və qüdrət sahibi yoxdur" (s. 83), "Rəhman və rəhim olan Allahın adı ilə" sözləri həkk edilmişdir (s. 84).

İlisu kəndindəki hicri 1100-cü (m.1688-1689) ilə aid məscid kitabəsində İlisu sultanı Əli Sultanın, hicri 1112-ci (m.1701) ilin kitabəsində isə oğlu Zeynəddinin, hicri 1147-ci (m.1734) ilin kitabəsində isə digər oğlu Xəlil Sultanın adları vardır (s. 236-237).

İlisu kənd məscidinin hicri 1161-ci (1748) ilə aid digər kitabəsində şeyx Məhəmmədin, hicri 1206-cı (1791-1792) ilə aid digər kitabədə isə molla Kərimin adı həkk edilmişdir (s. 238).

3.**Qaradolaq məhəlləsinin ev və məscid kitabələri.**

İlisu kəndinin məşhur məhəllərindən olan Qaradolaqdakı yaşayış evlərində dövrümüzədək gəlib çatan epiqrafik kitabələr vardır. Buradakı epiqrafik tədqiqatlar sayəsində sirafişçi Həmzə bin Xəlilin (h.1278= m.1861/1862) adı və məhəllə məscidinin kitabəsinin hicri 1257-ci (m.1841) ilə aid olduğu müəyyən edilmişdir (s. 239-240).

İlisu kəndindəki yaşayış evlərinin hasarlarında və digər obyektlərindəki ərəb qrafikalı daş kitabələri tədqiq edən M.Nemət hicri 1247 = m.1831/1832-ci ilə aid evin molla, ev sahibi İsmayıl bin Əbd ər-Rahimə aid olmasını müəyyən etmişdir (s. 240).

**4.İlisu kənd qəbristanlığının epiqrafik abidələri.**

İlisu kənd məscidi yaxınlığındakı qəbristanlığındakı hicri 1067

(m.1656/1657), 1077 (m.1666/1667) illərə aid süls, nəsx və "Obalar" adlanan qəbristanlıqdakı (hicri 1112=m.1700/1701-ci) kitabələrin tədqiqi nəticəsində mərhumların adı, titulu ilə yanaşı qəbirin hazırlanmasında əməyi olanların (usta, dərviş, molla) da adları həkk edilmişdir.

Digər qəbir kitabələrinin tədqiqi nəticəsində Səid ibn Şeyx Qazanbəy (h.1290 = m.1873/1874), Əbd əs-Səməd bəy (h.1299 = m.1881), general mayor Ağalar xan, Əsgər (h.1303=m.1885/1886), həmçinin İlisu sultanı Əlisultanın nəsil nümayəndələri–Əbd əs-Səməd (hicri1299=m. 1881), əmir Bəşir bəy (h.1301=m.1884), general mayor Həsən Xanın (11.III.1886) qəbirləri müəyyən edilmişdir.

Epiqrafik tədqiqatlar sayəsində din xadimlərindən – "Nəqşbəndiyyə" təriqətinin nümayəndəsi Rəsul Əfəndi ibn Molla Mahmud (hicri 1322 =m. 1904), şeyx Əbd əl-Qadir ibn Hacı Murad (hicri 1338 = m.1919/1920), şeyx Mamay Əfəndi ibn Harun (hicri 1341 = m.1923) qəbirləri müəyyən edilmişdir.

Tovlatala qəbristanlığındakı kitabələrin tədqiqi nəticəsində İlisu hökmdarı Muhəmməd sultanın qəbri müəyyən edilmişdir (hicri 1171 =m. 1757/1758).

Beləliklə, Qax rayonunun İlisu kəndindəki məscid, qəbir abidələrinin epiqrafik tədqiqi nəticəsində onların XVIII – XX əsrin I rübünə aid olduğu, onlar üzərinə adları həkk edilmiş şəxslərin məşğuliyyəti, titulları müəyyən edilmişdir.

Azərbaycan tarixində özünəməxsus mövqeyi ilə tanınan İlisu kəndi müasir dövrümüzdə zəngin turizm obyektləri ilə də tanınır. Turistik ekskursiyalar zamanı məqaləmizdə bəhs etdiyimiz epiqrafik abidələr barədə də məlumat vermək tariximizin təbliğatına səbəb verir.



***Şəkil 1. Məscid kitabəsinin estampı.***

Ustaların rəisi Əyyub Hacı əl-Qumuqi. (0,26 x 0,13 m).



***Şəkil 2. Məscid kitabəsinin estampı.***

Nəsx xətti ilə: "Bu məscidi [inşa ediblər] Mehdi Ağa Əhməd Ağa oğlu və Polad Ağa Molla Kərim Ağa oğlu hicri 1206-cı [m.1791/1792] ildə," (0,31 x 0,33 m).



***Şəkil 3. İlisu nekropolundakı qəbir kitabəsinin estampı.***

Hacı Abbas oğlu Əbdəllah bəy (hicri 1298 = m.1880/1881).

**Asif HÜSEYNOV**

*Zabrat qəsəbəsi, X. Vəliyev adına*

*75 saylı orta məktəbin tarix müəllimi*

*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

vasibhuseynov19@gmail.com

## ZABRAT QƏSƏBƏSİNİN FƏXRİ:
## MƏŞƏDİXANIM NEMƏT



Azərbaycanın görkəmli alimlərindən sayılan Məşədixanım Sədulla qızı Nemət Bakının Qədim kəndlərindən olan Zabrat kəndində 1924- cü ildə anadan olmuşdur. Sovet dövrünün qanlı-qadalı illərində atası Sədulla kişi var-dövlətlərinin müsadirə olunmasından az sonra vəvat etmişdir. Az sonra anasını da itirən Məşədixanım qardaşının himayəsində böyümüşdür.

İbtidai təhsilini Zabrat kəndindəki məktəblərdə alan Məşədixanım uşaqlıqdan təhsilə, oxuyub öyrənməyə həvəs göstərmişdir.194- ci ildə orta təhsilini, 1947- ci ildə ali təhsilini bitirib. 1954-cü ildə namizədlik, 1968-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir.

2001-ci ildə AMEAnın müxbir üzvü seçilmişdir. Məşədixanım ilk azərbaycanlı epiqrafçı alim, tarix üzrə elimlər doktoru idi. 1968-ci ildə o, "Epiqrafik abidələr və onların XVI-XIX əsr Azərbaycanının sosial iqtisadi və siyasi tarixinin öyrənilməsində əhəmiyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1969-1977-ci illərdə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində epiqrafika fənnindən dərs demişdir. Məşədixanım hələ tələbəlik

illərində elmə, tarixi abidələrdəki ərəb və fars yazılarına böyük həvəs göstərmiş, bu həvəs, bu arzu da onu aspiranturaya gətirib çıxarmışdır.

1948-1953-cü illərdə o, Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun aspirantı olmuşdur. Görkəmli epiqrafist Ə.Ələsgərzadənin rəhbərliyi ilə Şirvanın epiqrafik abidələrini tədqiq etməyə başlamışdır. 1954-cü ildə "Şirvanın XIV-XVI əsrlər tarixinin öyrənilməsinə dair (epiqrafik abidələr əsasında)" adlı namizədlik dissertasiyasını müdafiə edib. Məşədixanım Nemət bir sıra doktorluq və namizədlik dissertasiyalarında opponent olmuşdur. O, həmçinin Memarlıq Abidələrinin Bərpası İdarəsinin elmi məsləhətçisi olmuşdur.

Respublikanın bir sıra tarix diyarşünaslıq muzeylərində sərgilərin qurulmasında iştirak etmişdir. Tarixi abidələrin qorunması, istifadə olunması qaydaları, epiqrafik abidələrin tarixi mənbə kimi əhəmiyyəti və s. bu kimi məsələlərə dair televiziya və radio kanallarında çıxışlar etmişdir. 60 illik elmi fəaliyyəti dövründə Azərbaycanın bütün tarixi ərazisini gəzərək ərəb qrafikasının müxtəlif xətləri ilə ərəb, fars, türk dillərində ölkənin iqtisadi-siyasi, sosial-mədəni tarixi, memarlıq, sənətşünaslıq, filologiya, islam fəlsəfəsi - sufizm, toponimika, etnoqenez və s. problemlərə dair yeni və ən dəqiq sənədlərlə Azərbaycanın tarixşünaslıq bazasını zənginləşdirmişdir. 2500-dən artıq epiqrafik abidəni toplayıb, oxuyub onların tarixi əhəmiyyətini müəyyənləşdirmişdir.

Bu elmi fəaliyyətin nəticəsi kimi 12-dən artıq monoqrafiyanın, 200 elmi məqalənin, o cümlədən 6 cildlik ***"Azərbaycanın epiqrafik abidələrinin toplusu"***nun müəllifidir.Məşədixanım Nemət epiqrafiyanı bir fənn kimi də Azərbaycanda yaratmışdır. Onun işi təkcə epiqrafik abidələrin aşkar edilməsi, toplanması, tərcümə edilməsi və çap olunmasından ibarət deyil. Alimin çoxillik tədqiqatları nəticəsində aşkar olunmuş epiqrafik abidələr tarixi mənbə kimi də ölkə tarixinin müxtəlif problemlərinin tədqiqində mühüm rol oynayır Məşədixanım Nemətovanın əldə etdiyi xanəgah, ribat, müqəddəs məzar, zaviyə və s. abidələr üzərindəki kitabələr XII-XIX əsrlərdə Azərbaycanda mövcud olmuş sufi cəmiyyətlərinin - Qələndəriyyə, Qədiriyyə, Bektaşiyyə qolları, Ələviyyə, sənətkarlarla bağlı Əxi cəmiyyətinin mərkəzlərini, şeyxlərinin adlarını, onların fəaliyyətlərinin xronoloji çərçivəsini və fəaliyyət dairəsini müəyyənləşdirmişdir. Kitabələrin çoxu inzibati bölgü, dövlət quruluşu, bürokratik dövlət aparatı, feodal sinfi zümrələrinə dair maraqlı məlumatlar verir. Kitabələrdə gedən bir sıra titul, ləqəb və rütbələrə əsasən Şirvanşahlar dövlətinin quruluşunu, idarə üsulunu müəyyənləşdirmək mümkün olmuşdur.

Məşədixanım Nemət epiqrafik abidələrə əsasən bir sıra memarlıq abidələrinin təyinatını və tarixini dəqiqləşdirmişdir. Bunlardan, ilk növbədə, Şəmkir Qülləsiniqeyd etmək lazımdır. Abidə zəmanəmizə gəlib çatmayıb, yalnız təsviri qalmışdır. Memarlar abidənin tarixini XII əsrə aid edirdi və deyirdilər ki, bu, minarədir. 20- ci əsrin 70-ci illərində ərazidə qaz kəməri çəkilərkən 3 metr dərinlikdən kufi xətli yazılı bir daş aşkar olunmuşdur. Yazı Məşədixanım tərəfindən oxunmuş və müəyyən olunmuşdur ki, bu, Şəmkir

bürcünün kitabəsidir. Kitabədə abidənin dəqiq inşa tarixi h.493=m.1099/1100 və təyinati - gözətçi bürcü göstərilmişdir. Yazı hazırda Milli Azərbaycan Tarixi Nuzeyində nümayiş olunur. Ailimin ən uğurlu kitablarından biri də 1992-ci ildə 24 000 tirajla çap olunub satılan və ikinci dəfə daha nəfis şəkildə çap olunmuş "Azərbaycan pirləri" kitabıdır. Birinci nəşrdə Azərbaycanda mövcud olan 48 müqəddəs ocaq, ikinci nəşrdə isə 69 ziyarətgah pir haqqında ətraflı məlumat verilib.

Məşədixanım Nemət xalqın yaddaşında əbədi yaşayan ziyalılardandır. Onun Adı Zabrat qəsəbəsinin ən böyük küçələrindən birinə verilib. Lakin gələcək nəsilin alimin elmi yaradıcılığı ilə tanış olması üçün Zabrat qəsəbəsinə məxsusu X. Vəliyev adına 75 saylı orta məktəbdə ***"Məşədixanım Nemət kabineti"*** yaratmaq məqsədyönlü olardı. Ümüdvarıq ki, bu kabinetin yaranması gələcəkdə həyata keçiriləcək və şagirdlər üçün Məşədixanım Nemətin çoxsaylı əsərləri onların stolüstü kitabına çevriləcəkdir.

**Aliyə CAVANŞİR**

***Tədqiqatçı***

# VƏTƏNİN TARİXİNDƏ ƏBƏDİ İZİ QALDI...



*Tədqiqatçı : Aliyə Cavanşir*

***Var idim İZİM qaldı,***

***Od idim KÖZÜM qaldı.***

***Əsrin DAŞ YADDAŞINDA***

***Mənim də SÖZÜM qaldı...***

***(Məşədixanım Nemət)***



Tanınmış tarixçi-alimimiz Firdovsiyyə Əhmədova deyəndə ki, Məşədixanım Nemətin 100 illiyidir, istər-istəməz 25 il əvvələ qayıtdım, gözlərim önündə xoş xatirələr canlandı. Yüksək mövqeyinə baxmayaraq, seçdiyi peşəsi, sadəliyi, mehribanlığı, bir az da zarafatcıllığı ilə qəlbimdə özünə əbədiyyət qazanan "Şöhrət" ordenli AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor, görkəmli epiqrafçı alim Məşədixanım Sədulla qızı Nemətlə bağlı xoş təəssüratlar onun haqqında yazı yazmaq istəyi yaratdı məndə. Lakin əvvəl tərəddüd etdim. Zərif çiyinlərində yüz illər boyunca haqsızlıqlar içində boğulan xalqının ağır yükünü daşıyan alimlərimizdən biri haqda yazmaq çox məsuliyyət tələb edir axı...

Azərbaycanımızın Amazonkası adlandırılan, ***"Əsrin daş yaddaşında mənim də sözüm qaldı..."*** deyən Məşədixanım Nemət öz dəyərini çox gözəl bilirdi... Bilirdi ki, qızmar yay günəşi altında ilanmələyən çöllərdə, qışın sərt soyuğunun insanın iliyinə işləyən çağlarında Vətənini qarış-qarış dolaşıb min bir əziyyətlə araya-ərsəyə gətirdiyi, hələliksə öz layiqli dəyərini almayan tapınt ıları nə zamansa xalqının, Dövlətinin əlində ən "kəskin silaha" çevrilib düşmənin və onun havadarlarının sinəsinə tuşlanacaq və əsrlər boyu zülm, zillət çəkən xalqı nəhayət ki, rahat nəfəs alacaq...

Və o gün gəldi... Bir az gec oldu, təəssüf... Bu günün gələcəyini səbirsizliklə gözləyən yurd həsrətli valideynlərim kimi, cəfakeş alimimiz də bu şərəfli, tarixi günlərin cismən şahidi ola bilmədi. Ruhlarınınsa azad Qarabağımızı bizdən də artıq sevincək ziyarət etdiklərinə əminəm...

Məşədixanım Nemətə Qarabağ xanlığının banisi Pənahəli Xan Cavanşir nəslinin kiçik bir nümayəndəsi kimi də mənim ayrıca təşəkkür borcum var. Və bu, məni daha da ürəkləndirdi yazı yazmağa. Bugünkü Böyük Qələbəmizin qazanılmasında məhz onun fundamental axtarışlarının, tapıntılarının rolu əvəzsizdir. Qarabağın, Zəngəzurun və zaman-zaman "qonşu¬lara" pay-püş edilən digər ərazilərin Azərbaycana məxsus olduğunu, azərbaycanlıların isə ta əzəldən bu ərazilərin qədim-qayım sakinləri olduğunu sübut edən məhz bu cür dəlillər Dövlətimizin başçısına bütün dünyaya nəinki Qarabağın, indiki Ermənistanın belə Azərbaycanın qədim tarixi əraziləri olduğunu cəsarətlə söyləməsinə təkan verdi...

Bu təkzibolunmaz faktlar qarşısında erməni və onun havadarlarının susmaqdan başqa çarəsi qalmadı...

Yaxşı xatirimdədir... 1997-ci ildə tale mənə respublikamızın ən populyar elmi nəşri olan "Elm və həyat''jurnalı redaksiyasında işləməyi nəsib etdi. Əvvəl yazıçı Cəmil Əlibəyovun direktoru olduğu "Elm və həyat" nəşriyyatında, sonradan isə "Elm və həyat" jurnalında. Ağır illər idi, xalqımız üçün də, elmimiz, təhsilimiz üçün də. Milli Elmlər Akademiyasının elmi nəşrləri siyahısında olmasına baxmayaraq, maddi məhrumiyyətlər içində olan jurnalın cəfakeş kiçik kollektivi - Ülkər Hüseynova, Maral Poladova, Mehparə Axundova, Binnət Süleyman öz hesablarına bu jurnalı tərtib edir, ədəbiyyatşünas alimimiz Şirindil Alışanovun rəhbəri olduğu "Elm" Redaksiya-Nəşriyyat və Poliqrafiya mərkəzində nəşr etdirirdilər. Bu cəfakeşliyin

nəticəsidir ki, jurnal bu gün də fəaliyyətini davam etdirir.

Bu elm ocağının mənim həyatımda, bir vətəndaş kimi formalaşmağımda böyük rolu oldu. Deməl olar ki, Azərbaycanın necə deyərlər, "qaymaqları" - tanınmış şairlər, yazıçılar, alimlər, bir sözlə, böyük bir ziyalı ordusu bu kollektivə gəlir, Xalq şairi Nəriman Həsənzadənin təbirincə desək, bu ocağın istisinə yığışırdılar.

Mən məcburi köçkünlük səbəbindən təhsilimi axıradək davam etdirib yüksək təhsil ala bilməsəm də, burada böyük bir akademiya təhsili aldım. Həyatımda böyük rolu olan şəxsiyyətlərə yazılarımda dəfələrlə minnətdarlığımı bildirmişəm...

...Bir gün əməkdaşlarla birgə kompüter otağına zərif, çöhrəsindən nur yağan, gözləri gülən bir xanım daxil oldu. O dəqiqə tanıdım. Dedim ki, mən sizi tanıyıram. Ona xoş olsa da, dinmədi. Bilirsiz sizi hardan tanıyıram? - soruşdum. Gülümsədi, - hardan?

Dedim Zəngəzurda aşkar etdiyiniz Urud abidələri haqqında 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin qarşısında çıxış edəndə televiziyada görmüşəm sizi... Atamla birgə sonadək izləmişəm verilişi.

Əlavə etdim ki, o zaman üçün böyük siyasi əhəmiyyəti olan Naxçıvan Muxtar Respublikasının yaranmasının 75 illiyi ilə bağlı Heydər Əliyevin üzünü tarixçilərə tutub həyəcanla dediyi: *"...Biz ermənilərin bütün bu iddialarının əsassız, uydurma olduğunu beynəlxalq aləmdə sübut etməliyik. Bunun üçün əsaslı sənədlər, fundamental elmi, populyar nəşrlər yaranmalıdır. Biz Azərbaycanın ərazi bütövlüyünü nəinki yaşadığımız indiki illərdə, gələcək nəsillər üçün də qoruyub saxlamaqdan ötrü çox güclü bir konsepsiya yaratmalıyıq. Bundan sonra da elə əsərlər yaranmalıdır ki, o əsərlər indi Ermənistan Respublikası yerləşən həmin torpaqların Azərbaycana məxsus olmasını daim, ardıcıl surətdə sübut etsin..."* - sözlərindən sonra siz tribunaya qalxıb Zəngəzurdakı Urud abidələri haqqında çıxış edərkən Heydər Əliyevin əlini çənəsinə dayayıb Sizə necə maraqla və fəxrlə baxdığının canlı şahidiyəm... Bu sözlərim alimimizə çox xoş oldu. Xeyli danışdı o barədə. Ürəyi dolu idi...

Səmimi münasibətimiz yarandı. Sonra bizdə 85 illiyi ilə bağlı qızı - görkəmli tarixçimiz Vəfa Quliyevanın tərtibçiliyi ilə "Daşlaşan sirlərin sirdaşı" adlı kitabı capa hazırlandı. Onda daha da doğma münasibət yarandı. Kitab çap olunanda məni də unutmadı. Öz xətti ilə kitaba təşəkkür avtoqrafı yazıb göndərdi...

Ulu babalarım Cavanşirlərlə bağlı yazılarım qəzetlərdə, jurnalda dərc olunanda Vəfa xanım telefonla məni təbrik etdi, bildirdi ki, yazını oxuyub kövrəldim. Anam da, mən də təbrik edirik səni, uğurlar olsun.

Urud abidələrinin aşkar edilməsinin Dövlətçilik tariximizə necə böyük töhfə verdiyinin illər sonra şahidi olduq.

Zəngəzurda aşkarlanmış qoç şəkilli, sənduqə formalı məzar daşları üzərində 1961-1963-cü illərdə apardığı tədqiqatların nəticəsi olan bu tapıntılar Məşədixanım Nemətin epiqrafika elmində demək olar ki, 50 illik

araşdırmalarının zirvəsi hesab edilir. Onun bu tapıntısı Cənubi Qafqazda yeni tarixi konsepsiyanın əsasını qoydu.

Tarixi dədə-baba torpaqlarımız olan İrəvan xanlığının ərazisinin ermənilərə məxsuz olmasını sayıqlayan erməni alimi Papazyana cavab məktubunda alimimiz əsaslı olaraq soruşur: *"...əgər Urud qəbiristanlığı erməni abidəsi idisə, o qəbiristanlığı nəyə görə dağıtdınız, viranə qoydunuz?! Əgər siz o məzar daşlarının ermənilərə aid olduğunu sübut edə bilsəydiniz, bu gün də onu şüşənin içinə salıb bütün dünyanı gəzdirərdiniz ki, bu, bizim tariximizdir. Sübut edə bilmədiyiniz üçün dağıtdınız!".*

Bu məntiqli cavabın özü bir dəlil, bir əsaslı sübut deyilmi?!

Məhz bu cür fundamental dəlillərin nəticəsidir ki, Azərbaycan Ordusu 44 günlük savaşla Dövlətimizin ərazi bütövlüyünü bərpa etdi, Dünya hərb tarixinə öz adını qızıl hərflərlə yazdı.

Bu gün Zəngəzurun, Qarabağın, Təbrizin və digər tarixi torpaqlarımızın göyləri üzərindən gülümsər bir çöhrə məmnunluqla bizə baxır:

***"Müqəddəs bir torpaq olan,***

***Haqqı, səadəti anan***

***Zəngəzur, Mehri, Qarabağ,***

***Təbriz, Şuşa, can Dilican,***

***Qalxmış artıq Azərbaycan!***

***Didərgindir ocağından,***

***Dədə-baba torpağından,***

***Xan, Bülbülün oylağından.***

***Müntəzirdir Göyçə, Qafan,***

***Qalxmış artıq Azərbaycan!***

deyib sevincimizə şərik olduğunu bildirir... Bizi daha böyük qələbələrə səsləyir!..

**Ruhunuz şad olsun! Böyük Xanım! Məşədixanım!**

**Qalxmış artıq Azərbaycan!**

**Yeganə MƏMMƏDOVA**

***Jurnalist***

# TARİXİN DAŞ YADDAŞINI DANIŞDIRAN ALİM



***Məşədixanım Nemət***

Kim bilir neçədir dünyanın yaşı?... Yazılar tarixçinin bələdçisidir. Onlar tədqiqatçını tarixin izi ilə gerçəkliyə, dəqiq, bəzən də nadir və orijinal tarixi mənbələrə doğru aparır. Bu yol çətin, insan ayağı dəyməyən yerlərdən keçir. Xalq şairi Səməd Vurğunun sözləri ilə desək: Kim bilir neçədir dünyanın yaşı, Tarixin nə qədər yazısı vardır... Üstündə yazı, yaxud təsvir olan hər bir daş vaxtilə yer üzündə yaşamış canlı bir insanın nişanəsi, daşlaşmış ürəyidir. Bəlkə də bu daşların üzərindəki təsvirlər tarixin zaman vasitəsilə bizə göndərdiyi əmanətlər, mesajlardır... Hər saxsı parçası, hər məzar daşı Nəsildən nəsilə bir yadigardır. Yaxın Şərqin ən qədim ölkələrindən biri olan Azərbaycanın ərazisi mədəni abidələrlə zəngindir. Min illər əvvəl zaman bu mənəvi dəyərləri tarixin yaddaşına həkk edib. Həkk edib ki, vaxtın ölçüsü dəyişsə də, onun yazdıqları, yaratdıqları tarixin ayrı-ayrı səhifələrində bizlərə olduğu kimi çatsın. Qədim abidələr xalqın tarixidir, onun mövcudluğunun sübutudur.

Ulu əcdadlarımızın bizə miras qoyduğu qədim əlyazmalar, daş kitabələr arasında orta əsrlərin epiqrafik abidələri xüsusi yer tutur. X əsrin əvvəllərindən XX əsrin sonunadək memarlıq və tarixi abidələrdə müxtəlif xarakterli yazılara təsadüf olunur ki, burada orta əsrlər Azərbaycanının sosial-iqtisadi həyatının bir sıra suallarına cavab tapmaq mümkündür. Monumental memarlıq abidələrində saxlanılıb qalmış, bu abidələrin bədii tərtibatını təşkil edən, hətta qəbir daşlarının üzərində olan yazılar xalqımızın məişəti, sənəti, ticarəti, ictimai fikir tarixi və s. haqqında mülahizələr yürütməyə, həqiqəti üzə çıxarmağa imkan verir. Bunlar əsrlərin əks-sədalarıdır, tarixin izləridir, Azərbaycan xalqının öz əli ilə yazılmış tarixinin monumental səhifələridir. Bu səhifələri hərf-hərf, sətir-sətir, vərəqvərəq oxuyanlardan, respublikamızın bütün ərazisini qarış-qarış gəzib qədim abidələrimizi tədqiq edənlərdən biri də Məşədixanım Nemət olub.

**Bioqrafik məlumat:** Məşədixanım Nemətova. AMEAnın müxbir üzvü, tarix elmləri doktoru. 1924-cü il yanvarın 5-də Bakının II Zabrat kəndində anadan olmuş, indiki Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirmişdir. 1954-cü ildə namizədlik, 1968-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 2001-ci ildə AMEAnın müxbir üzvü seçilmişdir. Məşədixanım ilk azərbaycanlı epiqrafist elmlər doktoru, şərqşünas alim idi.

1968-ci ildə o, "Epiqrafik abidələr və onların XVI-XIX əsr Azərbaycanının sosial iqtisadi və siyasi tarixinin öyrənilməsində əhəmiyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1969-1977-ci illərdə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində epiqrafika fənnindən dərs demişdir. Məşədixanım hələ tələbəlik illərində elmə, tarixi abidələrdəki ərəb və fars yazılarına böyük həvəs göstərmiş, bu həvəs, bu arzu da onu aspiranturaya gətirib çıxarmışdır.

11948-1953-cü illərdə o, Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun aspirantı olmuşdur. Görkəmli epiqrafist Ə.Ələsgərzadənin rəhbərliyi ilə Şirvanın epiqrafik abidələrini tədqiq etməyə başlamışdır. 1954-cü ildə "Şirvanın XIV-XVI əsrlər tarixinin öyrənilməsinə dair (epiqrafik abidələr əsasında)" adlı namizədlik dissertasiyasını müdəfiə etmişdir. Elə həmin ildən Azərbaycanın bütün epiqrafik abidələrini tədqiq etmək fikrinə düşən gənc alim Dərbənddən Laçına qədər, Sabirabaddan Qutqaşenə (indiki Qəbələ) qədər bütün qədim sarayları, körpüləri, karvansaraları, xanəgahları, pirləri, ovdanları, məscidləri, qalaları, məqbərələri gəzərək, onların üzərindəki kitabələri toplayıb, tədqiq etməyə başlamışdır. O, həmçinin Gürcüstan və Ermənistan ərazisində yerləşən Azərbaycan abidələrini də nəzərdən keçirmişdir. Məşədixanım Nemət bir sıra doktorluq və namizədlik dissertasiyalarında opponent olmuşdur. O, Memarlıq Abidələrinin Bərpası İdarəsinin elmi məsləhətçisi olmuşdur. Respublikanın bir sıra tarix diyarşünaslıq muzeylərində sərgilərin qurulmasında iştirak etmişdir. Tarixi abidələrin qorunması, istifadə olunması qaydaları, epiqrafik abidələrin tarixi mənbə kimi əhəmiyyəti və s. bu kimi məsələlərə dair televiziya və radio kanallarında çıxışlar etmişdir. Məşədixanım Nemət Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya üzrə müdafiə şurasının, institutun elmi şurasının, Tarixi mədəniyyət abidələrinin qorunması cəmiyyətinin rəyasət heyətinin, Azərbaycan MEA ictimai elmlər şöbəsi nəzdindəki Orta Əsr Azərbaycan Tarixi Koordinasiya Şurasının üzvü olmuşdur. Əsərləri Bakı, Moskva, Sankt-Peterburq, Aşqabad, Daşkənd, Mahaçqala və Türkiyədə nəşr olunmuşdur. Azərbaycanın amazonkası Onunla ilk görüşümüz 2001-ci ildə AMEA-nın Tarix və Arxeologiya İnstitutunda oldu. Müsahibə almaq üçün ona yaxınlaşdım. Haqqında çox oxumuş, xeyli məlumat toplamışdım. Ancaq həyəcanımı boğa bilmirdim. Bunu hiss edib çox mehribancasına hal-əhval tutdu, söhbətə başladı və özündən, tələbəlik illərindən, ilk iş yerindən, at belində doğma vətəni gəzməyindən, abidələri araşdırmağından danışdı və mənim əvvəlki həyəcanımdan əsər-əlamət belə qalmadı. Söhbətimiz çox

maraqlı keçdiyindən, vaxtın necə başa çatdığını hiss etməmişdik.

Beləcə, Məşədixanım müəllimədən ilk müsahibəni aldıqdan sonra redaksiyaya qayıdarkən yol boyu bu bəstəboy, zərif qadının nə qədər güclü olduğu barədə düşünürdüm. Onun bu yaşda da həyat eşqi ilə yaşadığının, gənclik fədakarlığı ilə çalışdığının şahidi olmuşdum. Bəlkə də ruhun heç vaxt qocalmadığı fikrinə ilk dəfə o gün inanmağa başlamışdım. Onunla sonrakı görüşlərdə buna bir daha əmin oldum. Mənim üçün Məşədixanım müəllimə böyük alim, yorulmaz tədqiqatçı, canlı ensiklopediya, səmimi və mehriban müsahib, nəhayət, gözəl insan idi. Azərbaycanda epiqrafika elmi məhz Məşədixanım müəllimənin vətən sevgisi, inadkarlığı, yorulmazlığı sayəsində bir məktəb formalaşdırmışdır və bu məktəblə indi dünya hesablaşır. Məsələn, qədim Azərbaycan torpağı olan Zəngəzur abidələrini (Urud abidələri) erməni abidələri kimi qələmə vermək istəyən erməni tarixçilərini sovet dövründə ilk susduran Məşədixanım Nemət olmuşdur. Məşədixanım Nemətin aşkar etdiyi çox nadir faktlar “Böyük Ermənistan” xülyaları ilə yaşayan, Urud abidələrindəki kitabələri təhrif ediərək, qəbiristanlığı darmadağın edən və Zəngəzurun heç vaxt Azərbaycan torpaqlarına daxil olmadığını sübut etməyə çalışan üzdəniraq erməni tarixçilərinə sanki müharibə elan etmiş, daş kitabələri toplamaqla, oxuyub dəlil-sübutlar tapmaqla onların qarşısına dəqiq faktlar qoymuşdur. Erməni tarixçiləri nəyin bahasına olursa-olsun, Dərbənddən o yana olan abidələrin onların əcdadlarına məxsus olduğunu sübut etməyə çalışsalar da, Məşədixanım Nemət təkzibolunmaz faktlarla atəşpərəst albanların, tarix boyu bu torpaqda yaşamış türklərin, türkdilli xəzərlərin, türkdilli qıpçaqların, köçəri çöllülərin, skiflərin qədim, köklü mədəniyyətlərini üzə çıxarmış və sübut etmişdir ki, bu torpaqlar heç vaxt ermənilərin olmayıb. Bu işdə Məşədixanım Nemətin xidmətləri əvəzsizdir.

Məşədixanim Nemət təkcə Abşeronun, Şirvanın, Muğanın, Qarabağın, Milin, Gəncəbasarın deyil, Naxçıvanın, Dərbəndin, hazırda erməni işğalı altında olan Qərbi Azərbaycanın, Gürcüstandakı azərbaycanlı abidələrinin daş yazılarını oxumuşdur. Ərəb-fars əlyazması ilə yazılmış, hətta IX əsrə aid olan unudulmuş xətləri də Məşədixanım Nemət oxumuşdur. Azərbaycan memarlığı tarixində Əcəmidən sonra görkəmli yer tutan, XIII əsrdə yaşayıb-yaratmış memar Əli Məcdəddinin adını da kitabələrə əsasən Məşədixanım Nemət aşkar etmiş, dünyaya tanıtmışdır. O, bu barədə şeirlərinin birində deyirdi: Daş etmişmi ürəkləri daşa dönmüş kitabələr? Qulaq verin, türk babamın öyüdləri nələr söylər. Neçə-neçə alim, memar, nəqqaş, xəttat adlarını Sənət tarixinə vermiş yadigardır kitabələr... Bu zərif qadını tez-tez təbiətin qoynunda, kol-koslu meşələrdə, ilanlar mələşən qanqallı qəbiristanlıqlarda, sıldırım qayalıqlarda, düzənlərdə at belində görmək olardı (şəkil 1) . Tarixçilər ona “Azərbaycanın amazonkası” adını vermişdilər. Bu çətinliklərə sinə gərmək hər qadının hünəri deyildi. Bir maraqlı faktı da qeyd etməmək mümkün deyil. 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi ilə əlaqədar Dövlət Komissiyasının iclasında Məşədixanım Nemətin Urud kəşfləri haqqındakı çıxışı ulu öndər Heydər Əliyevin böyük marağına səbəb olmuşdu.

Ulu öndər buradakı tarixi çıxışında demişdi: “Biz ermənilərin bütün bu iddialarının əsassız, uydurma olduğunu beynəlxalq aləmdə sübut etməliyik. Bunun üçün əsaslı sənədlər, fundamental elmi, populyar nəşrlər yaranmalıdır.



***Məşədixanım Nemət at belində***

Biz Azərbaycanın ərazi bütövlüyünü nəinki yaşadığımız indiki illərdə, gələcək nəsillər üçün də qoruyub saxlamaqdan ötrü çox güclü bir konsepsiya yaratmalıyıq. Bundan sonra da elə əsərlər yaranmalıdır ki, o əsərlər indi Ermənistan Respublikası yerləşən həmin torpaqların Azərbaycana məxsus olmasını daim, ardıcıl surətdə sübut etsin”. Alim adını qürurla daşıyan insan Epiqrafika çox mürəkkəb elm olduğundan bu sahəni nadir adamlar seçir. Məşədixanım özü bu barədə deyirdi: “Epiqrafiya üzrə mütəxəssis heç bir institutda hazırlanmır. Bu elm sahəsində çalışan adam iti gözlü, elmi səfərlər zamanı bütün əziyyətlərə dözümlü olmalıdır. Çünki epiqrafist alimin iş laboratoriyası rahat otaqlarda deyil, açıq səma altında, təbiətin qoynundadır. Bu laboratoriyaya gedən axtarış yolları isə tapdanmış cığırlardan deyil, bəzən əsrlərdən bəri insan ayağı dəyməmiş, qızmar günəş altında adam boyuna qədər qalxmış ilanlı kolluqlardan, uçurumlu dağ aşırımlarından keçir. Bəzən günlər boyu hündür nərdivan başında, qızmar günəş altında işləməli olursan. Kitabələri oxumaq üçün epiqrafist alim Şərq dillərini, ərəb qrafikasını, indi əksər ərəblərin özlərinin belə oxuya bilmədiklərini, IX əsrdən ləğv etdikləri müxtəlif sufi xətlərinin və epiqrafik adibələrin mənbə kimi əhatə etdiyi bütün problemləri bilməlidir”. Məşədixanım həm də şair təbiətli xanım idi. O, bir çox abidələrin məzər daşlarının üzərində maraqlı yazılar aşkar etmiş, onlardan çoxunu tərcümə etmişdir. Zığ kəndində yerləşən şəhid Əmir İsfəndiyarın (hicri 552/1448-49-cu illər) məzar daşında yazılan şeirdə ananın bala həsrəti ilə iztirabları təsvir edilir: “Qılmadı kimsəyə ruzigar vəfa, Aqilə etməz xəta tiri-cəfa. Kimsənin əyninə dünya dərzisi, Köynək tikmədi ki, etməsin qəba (qəba

etmək ölünün əynindən köynəyi cırıb çıxartmağa işarədir".

Və ya başqa bir qəbir daşında həkk olunmuş yazı: "Ey çərxi fələk, bu bivəfalıq nə idi? Cövrun çəkən aşiqə cəzalıq nə idi? Sən ki məni bu dərdə mübtəla edər idin, Ey namərd fələk, bəs bu aşinalıq nə idi?" Məşədixanım müəllimə QADIN adını ləyaqətlə, ANA adını şərəflə, ALİM adını qürurla, AZƏRBAYCANLI adını fəxrlə daşıyan gözəl insan idi.

Ömrünün 60 ildən çoxunu bu elm sahəsinə həsr etmiş görkəmli alim apardığı axtarışlar nəticəsində 2500-dən artıq ərəb, fars və türkdilli ərəb qrafikasının ən çətin oxunan müxtəlif xətlərlə yazılmış kitabələri toplamış, Azərbaycan tarixi, memarlıq, sənətşünaslıq, toponomika, tibb tarixi, Azərbaycan xalqının təşəkkülü və s. bu kimi problemlərə dair 12 monoqrafiya çap etdirmişdir. O, 200-dən çox elmi tezis və məqalənin, o cümlədən 6 cildlik "Azərbaycanın epiqrafik abidələrinin toplusu"nun müəllifidir.

2009-cu il martın 4-də "Azərbaycanda epiqrafik irsin tədqiqi sahəsində xüsusi xidmətlərinə görə" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə ***"Şöhrət"*** ordeni ilə təltif olunmuşdur. Bir şeirində deyir: Var idim, izim qaldı Od idim közüm qaldı. Əsrin daş yaddaşında Mənim də izim qaldı... Əsrin daş yaddaşında sözü və izi qalan Məşədixanım müəllimə ötən ilin dekabrında dünyasını dəyişdi. Şərəfli ömür sürən bu gözəl insan onu sevən hər bir kəsin qəlbində özünə kiçik bir abidə ucalda bilmişdir. Bu abidə qeyrət, ləyaqət, vətənpərvərlik abidəsidir...

**28 fevral 2024-cü il tarixində Milli Azərbaycan Tarixi Muzeyində kecirilən Azərbaycanın epiqraf alimi Məşədixanım Nemətin 100 illik yubileyinə həsr olunmuş elmi- praktik konfransın iştirakçıları**





